Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 26 (6069) 19 iyul 2024-cü il | Qiyməti 40 qəpik

# Liderlər İlham Əliyevin masasında



Bax:səh-2

## Əli Əsədov Roland Praysla görüşdü



**Azərbaycanın Baş naziri Əli Əsədov Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Roland Prays ilə görüşüb.**

Adalet.az xəbər verir ki, bu barədə Nazirlər Kabineti məlumat yayıb.

Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında uzunmüddətli səmərəli tərəfdaşlıq çərçivəsində həyata keçirilən və müxtəlif sahələri əhatə edən birgə layihələrin uğurlu nəticələri təqdir edilib.

Hazırda icra olunan layihələrin gedişi, həmçinin Dünya Bankının fəaliyyət istiqamətlərinə və Azərbaycanın inkişaf prioritetlərinə uyğun olaraq bankın 2025-2029-cu illəri əhatə edəcək yeni Ölkə Tərəfdaşlıq Çərçivəsinin hazırlanması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Eyni zamanda Azərbaycan ilə Dünya Bankı arasında bir sıra sahələrdə, o cümlədən COP29 çərçivəsində əməkdaşlığın perspektivləri müzakirə edilib.

## TRAMPIN QULAĞINI BURMAQ İSTƏDİLƏR

**ABŞ-da seçki yaxınlaşdıqca vəziyyət daha da gərginləşir. Trampa sui-qəsd elədilər. Güllə qulağını sıyırıb keçdi. Görünür, öldürmək istəmədilər, 150-200 metrdən nəinki snayper adi adam da cüssəsi iki adam boyda olan Trampı alnından vura bilərdi.**

Ekspertlər, politoloqlar neçə gündür hərəsi bunu bir cür izah edir. Mənə görə isə Trampı öldürmək yox, sadəcə qulağını burmaq istədilər ki, özünü yaxşı apar.

Kennediyə sui-qəsd təşkil edəni həbsxanada öldürdülər, Trampa qulaqburması verəni də elə yerindəcə zərərsizləşdirdilər ki, məsələnin üstü açılmasın.

## ERMƏNİLƏR HƏZRƏT ƏLİ QILINCINI, DEYƏSƏN, UNUDUBLAR







**Son zamanlar ABŞ və Fransa dillərində sülh deyə-deyə əslində erməniləri revanşa hazırlayırlar, İravanı su yoluna döndəriblər. Bir missioner gedir, o biri missioner gəlir, sonra o biri gedir, bu birisi gəlir. Pul yardımları, silah-sursat yardımları, başgicəlləndirici təkliflər...**

Başı olmayan ermənilər də küyə düşüblər. Və, deyəsən, ermənilər başlarını itirdiklərindən Cənab Ali Baş Komandan, Möhtərəm Prezident İlham Əliyevin əlindəki Həzrət Əli qılıncını unudublar.

Dənizdə tufan qopur, Molla Nəsrəddin də gəmidəymiş.

Matroslar tufanla mübarizə aparmaq üçün dor ağaclarına dırmaşırlar. Molla gülüb deyir:

***- Ə, qaqa, ora niyə dırmaşırsınız? Gəmi aşağıdan yırğalanır ey.***

İndi Ermənistanın baş naziri dibindən laxlayan ölkəni xilas etmək əvəzinə Eyfel qülləsinə və Azadlıq heykəlinə dırmaşır.

Aqil ABBAS
aqilabbas@rambler.ru

## SONUNCU POST



(Kinossenari)

**... Kadrda Komandirin evi, iki uşaq yerdə, gəbənin üstə oturub oynayır. Komandirin xanımı paltar ütüləyir. Komandirin Anası çay içir. Televiziyada "Xəbərçi". Uşaqlar səs-küy salır:**

**- Ay uşaq, ə, bir səsinizi kəsin görək nə deyirlər də!**

**Diktor:**

**- Axşamınız xeyir! "Xəbərçi"nin on yeddi buraxılışı efirdədir. Studiyada Rüstəm Əbülfətoğludur. Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin verdiyi məlumata görə, cəbhə xəttində sakitlikdi. Atəşkəs pozulmayıb. İndi isə günün baş xəbərləri. Qarabağ qaziləri...**

**Ana əllərini göyə qaldırır:**

**- Allah, sənə şükür, bu gün ölüm-itim yoxdu!**

**... Məkan dəyişir. Dağın zirvəsinə yaxın Post. Zirvədə Azərbaycan bayrağı. Səngər. Çovğun, külək it kimi uluyur. Dizdən yuxarı qar. Əsgərlər səngərdə kürək-kürəyə veriblər, yorğundular.**

Bax:səh-3

## HAYKANUŞ ADI NECƏ YARANIB?

**Qeyri-adi rejissor və hələ də yeri boş qalan Vaqif İbrahimoğlu Zori Balayanın "Ocaq" əsərinə bir parodiya yazmışdı. Başdan-ayağa yumorla və bəzən də həddən artıq kobud ifadələrlə qələmə alınmış bu əsər bilmirəm onun arxivində durur, yoxsa yox.**

Vaqif İbrahimoğlu erməni qızlarının məşhur adı olan Haykanuş sözünü belə izah edirdi. Türklər erməni qızlarını "ay qancıq" deyə çağırırdılar. Ay qancıq sözünü ermənilər "Aykanuş", "Haykanuş" kimi qəbul edirdilər.



Erməni sözünü də çox maraqlı izah eləmişdi, amma təəssüf ki, bunu yaza bilməyəcəm, oxuculardan ayıbdı.

**"Rotterdam" barədə də yazırdı. Bu şəhərin əsasını XII əsrdə ağdamlılar qoyub. Ona görə də şəhəri doğmalaşdırmaq üçün "Rotter"in dalına bir "dam" da əlavə ediblər. Vaqif İbrahimoğlu onu da yazırdı ki, XII əsrdə Ağdamda Rüstəm adında məşhur bir adam olub, necə ki ağdamlılar Rafiqi Rəmiş çağırırdılar, Rüstəmi də Rotter çağırırmışlar.**

## İran nüvə silahı əldə etmək ərəfəsindədir

**"Amerikaya ölüm" deyən İrandakı dini diktatura hökuməti nüvə silahı əldə etmək ərəfəsindədir. Bu barədə ABŞ Konqresinin Nümayəndələr Palatasının keçmiş sədri Nyut Qinqriç xəbərdarlıq edib.**

O, ABŞ və başqa dövlətləri Tehran hökumətinin bu istiqamətdəki fəaliyyətlərinin qarşısını almağa çağırıb.

# Liderlər İlham Əliyevin masasında



**Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də ”Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısı çərçivəsində bir sıra görüşlər keçirib.**

Ölkə lideri İsveçrə Konfederasiyasının Prezidenti Viola Amher və Macarıstanın Baş naziri Viktor Orban ilə söhbət edib. Sonra Azərbaycan və Macarıstan liderləri bir masa arxasında əyləşərək ünsiyyətlərini davam etdiriblər. Daha sonra Bolqarıstan prezidenti Rumen Radev İlham Əliyevin masasına qoşulub. Daha sonra NATO-nun baş katibi Yens Stoltenberq eyni masaya əyləşib. Serbiya prezidenti Adeksandr Vuçiç də İlham Əliyevlə söhbət edib.

# İlham Əliyev Oksfordda görüşlər keçirdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda qarşı tərəfin müraciətinə əsasən Lüksemburq Böyük Hersoqluğunun Baş naziri Lyuk Friden ilə görüşüb.**

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələr müzakirə olunub.

Lüksemburqun Baş naziri Azərbaycan və region haqqında daha çox məlumatın əldə edilməsinin və regionun sabitliyinin ölkəsi üçün vacibliyini bir daha vurğulayıb. O, Lüksemburqun regional siyasətinin balanslı xarakter daşıdığını diqqətə çatdırıb.

Dövlətimizin başçısı regional proseslər barədə məlumat verərək bölgəyə münasibətdə balanslı siyasətin və bütün tərəflərin mövqeyinə hörmətlə yanaşılmasının önəmini qeyd edib. Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərə toxunularaq, qarşılıqlı hörmət və etimad əsasında əlaqələrimizin inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğu vurğulanıb. Azərbaycan ilə Lüksemburq arasında yüksək texnologiyalar, səhiyyə, investisiyalar, nəqliyyat daşımaları və digər sahələrdə əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb. Söhbət zamanı Azərbaycanın Avropa İttifaqı və İttifaqa üzv ölkələr ilə çox yaxın əlaqələrə malik olduğu qeyd edilib. Avropa Siyasi Birliyi platformasının müzakirələrin aparılması üçün vacib məkan olduğu bildirilib. Görüşdə Azərbaycanın COP29-a ev sahibliyi etməsinin əhəmiyyəti vurğulanıb.Lüksemburqun Baş naziri bu tədbirdə iştirak etmək niyyətində olduğunu diqqətə çatdırıb.

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də ”Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısı çərçivəsində İsveçrə Konfederasiyasının Prezidenti Viola Amherd ilə söhbət edib.**

Söhbət zamanı Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlər və regional sülh gündəliyinin inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

İsveçrə şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa-quruculuq işlərinə töhfəsi müzakirə olunub.

Söhbət zamanı COP29 və iqlim dəyişmələri ətrafında fikir mübadiləsi aparılıb.

# İlham Əliyev “Enerji və bağlantı” mövzusunda dəyirmi masada iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Oksfordda ”Avropa Siyasi Birliyi”nin 4-cü Zirvə toplantısı çərçivəsində ”Enerji və bağlantı” mövzusunda dəyirmi masada iştirak edir.**

# "Ermənistanda artan sürətli hərbiləşmə narahatlıq mənbəyidir"

**Xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan ATƏT-in baş katibi Helqa Şmid ilə görüşüb.**

Xarici İşlər Nazirliyindən Adalet.az-a bildirilib ki, görüşdə Azərbaycan-ATƏT əməkdaşlıq gündəliyinin perspektivləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri, regional əməkdaşlıq imkanları müzakirə olunub.



Mövcud regional və beynəlxalq təhlükəsizlik vəziyyətinin fonunda ATƏT çərçivəsində regional məsələlərin beynəlxalq hüquq normaları əsasında həllini tapması istiqamətində mövcud imkanlardan səmərəli istifadənin vacibliyi vurğulanıb. Bu istiqamətdə, təşkilatın öz fəaliyyətini günümüzün reallıqlarına uyğun şəkildə qurmasının əhəmiyyəti qeyd olunub. Ölkəmizin ATƏT-lə bir sıra istiqamətlər üzrə ən fəal üzvlərindən olduğu diqqətə çatdırılıb. Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyinin mövcud əməkdaşlıq gündəliyində iqlim fəaliyyəti istiqamətinin gücləndirilməsinə töhfə verə biləcəyi qeyd edilib. Nazir Ceyhun Bayramov postmünaqişə dövründə regional vəziyyət, ölkəmizin bərpa, yenidənqurma və sülh gündəliyi, mövcud təhdid və çağırışlardan ətraflı bəhs edib. Ermənistanın mina təhdidinin vətəndaşlarımızın işğaldan azad olunmuş ərazilərə qayıdışına, habelə bu istiqamətdə aparılan genişmiqyaslı bərpa və quruculuq işlərinə hədə törətməkdə davam etdiyi bildirilib.

Azərbaycan və Ermənistan arasında normallaşma prosesində son vəziyyət, sülh prosesində əldə olunan irəliləyişlər qeyd edilib. Bununla belə, Ermənistanın cari Konstitusiyasında hələ də ölkəmizə qarşı ərazi iddialarının mövcudluğunun qəbuledilməz olduğu vurğulanıb. Sülh gündəliyinin irəli aparılmasına təhdid törədən addımların, xüsusilə Ermənistanda artan sürətli hərbiləşmənin narahatlıq mənbəyi olaraq qaldığı diqqətə çatdırılıb.

**Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.**

# Hərbi Prokurorluqda geniş kollegiya iclası keçirildi

**İyulun 17-də Hərbi Prokurorluqda cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində 2024-cü ilin birinci yarısında görülmüş işlərin vəziyyətinin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**

Respublika Hərbi Prokurorluğundan Adalet.az-a bildirilib ki, kollegiya iclasından əvvəl iştirakçılar Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

İclasda hesabat məruzəsi ilə çıxış edən hərbi prokuror vəzifəsini müvəqqəti icra edən hərbi prokurorun müavini ədliyyə general-mayoru Şəfahət İmranov Ulu Öndər Heydər Əliyevin müdrik siyasətini zamanın tələbləri ilə uzlaşdıraraq yüksək məharətlə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildən artıq müddət ərzində ölkəmizdə əldə olunmuş böyük uğurlardan, o cümlədən tarixi torpaqlarımızın işğaldan azad edilməsindən, həmin ərazilərdə həyata keçirilən abadlıq-quruculuq işlərindən bəhs edib. Əldə olunan uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinin mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Məruzədə qeyd edilib ki, ötən dövrlərdə olduğu kimi, bu ilin birinci yarısında da Hərbi Prokurorluq orqanlarının fəaliyyəti uğurlu olmaqla Silahlı Qüvvələrdə nizam-intizamın davamlılığına, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alınmasına, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına yönəldilib. Cinayət işlərinin başlanmasının qanuniliyinə və əsaslılığına xüsusi diqqət yetirilməsi, icraatda olan işlər üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması istiqamətində həyata keçirilmiş fəaliyyət, düzgün qurulmuş istintaq metodikası və taktikası, səriştəli aparılan istintaq hərəkətləri, tələb edilən səviyyədə prosessual rəhbərlik, eləcə də işçilərin peşəkarlığı və əzmi sayəsində qeydə alınmış cinayətlərin ümumilikdə 98,6 faizi, o cümlədən bəzi qəbildən olan cinayətlərin 100 faizinin üstünün açılması təmin edilib.



İnsan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi, nizam-intizamın və qanunçuluğun möhkəmləndirilməsi, eləcə də cinayətkarlığa qarşı mübarizə sahəsində əldə olunan müsbət nəticələrdə Hərbi Prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlar, həmçinin qeyri-hökumət təşkilatları arasında yaranmış əlaqələrin çox böyük əhəmiyyəti olduğu bildirilib.

Bütün bunların nəticəsində də hesabat dövründə qeydə alınmış cinayətlər ötən ilin birinci yarımili ilə müqayisədə ümumilikdə 28,2, hərbi xidmət əleyhinə olan cinayətlər 25,2, qeyri-hərbi cinayətlər isə 31,2 faiz azalıb.

İclasda qeyd olunub ki, ötən ilin birinci yarısı ilə müqayisədə bu ilin birinci yarısında qeydə alınmış qəsdən adam öldürmə cinayətləri 75, özünü öldürmə həddinə çatdırma cinayətləri 80, tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma cinayətləri 3,2, tabelikdə olan hərbi qulluqçuya qarşı zorakı hərəkət cinayətləri 23,2, hərbi xidmətdən yayınma cinayətləri 31,4, maşınları idarəetmə və istismar qaydalarını pozma cinayətləri 90,9, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə cinayətləri 33,3 və rüşvət alma (passiv rüşvətxorluq) və rüşvət vermə (aktiv rüşvətxorluq) cinayətləri 58,6 faiz azalıb.

Məruzə ətrafında çıxış edənlər hesabat dövründə görülmüş işlərdən danışıb, qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün həyata keçiriləcək tədbirlər barədə ətraflı məlumat veriblər.

Kollegiya iclasında, hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, ”Prokurorluq haqqında” Qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar ətraflı təhlil olunmaqla, onların aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi və işin səmərəliliyinin daim artırılması tələb edilib.

**İclasın yekununda ədliyyə general-mayoru Şəfahət İmranov bildirib ki, Hərbi Prokurorluğun kollektivi Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsi sahəsindəki fəaliyyətin səmərəliliyini daim artıracaq, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, cinayətkarlığa və digər qanun pozuntularına qarşı mübarizədə üzərinə düşən bütün vəzifələri layaqətlə yerinə yetirəcək.**



# “Qərb Rusiya ilə danışıqlar imkanlarını araşdırır”

**Qərb ölkələri BMT Təhlükəsizlik Şurasının iclasları çərçivəsində Ukrayna böhranının həllində danışıqların təşkili üçün yeni imkanları araşdırır. Adalet.az xarici KİV-ə istinadən xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib.**

Diplomat BMT Təhlükəsizlik Şurasının iclasının keçirildiyi Nyu-Yorkda təkcə Küveyt, Bəhreyn, İran, Macarıstan nümayəndələrinin deyil, həmçinin İsveçrənin xarici işlər naziri İqnazio Kassisin də xarici işlər naziri Sergey Lavrovla görüşdüyünü deyib: ”Üstəlik, görüş İsveçrə tərəfinin xahişi ilə baş tutub”.

**AQİL ABBAS**

# SONUNCU POST

## (Kinossenari)

... Kadrda Komandirin evi, iki uşaq yerdə, gəbənin üstə oturub oynayır. Komandirin xanımı paltar ütüləyir. Komandirin Anası çay içir. Televiziyada "Xəbərçi". Uşaqlar səs-küy salır:

- Ay uşaq, ə, bir səsinizi kəsin görək nə deyirlər də!

Diktor:

- Axşamınız xeyir! "Xəbərçi"nin on yeddi buraxılışı efirdədir. Studiyada Rüstəm Əbülfətoğludur. Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin verdiyi məlumata görə, cəbhə xəttində sakitlikdi. Atəşkəs pozulmayıb. İndi isə günün baş xəbərləri. Qarabağ qaziləri...

Ana əllərini göyə qaldırır:

- Allah, sənə şükür, bu gün ölüm-itim yoxdu!

... Məkan dəyişir. Dağın zirvəsinə yaxın Post. Zirvədə Azərbaycan bayrağı. Səngər. Çovğun, külək it kimi uluyur. Dizdən yuxarı qar. Əsgərlər səngərdə kürək-kürəyə veriblər, yorğundular.

Komandir radioəlaqə ilə az qala bağırır:

- Mərkəz! Mərkəz! Mən Şahinəm! Mərkəz! Mərkəz! Şahinəm!

Qara:

- Komandir, özünü öldürmə! Görmürsən ratsiya donub?!

Komandir:

- Mərkəz! Mərkəz! Ə, ölmüsüz, cavab verin də! Ay it...

Qara:

- Komandir, söymə! Onlar ölməyib ey, biz ölmüşük!

Dağlaroğlu:

- Komandir! İndi bizi heç Allah da eşitmir! Çığırma, qoy yataq də!

Komandir onlara fikir vermir:

- Mərkəz! Mərkəz! Mərkəz!

Şair:

- Komandir, Dağlaroğlu düz deyir! İndi bizi Allah da eşitmir. Sən Allah, qoy öldüyümüz yerdə ölək!

... Məkan dəyişir. Qərargahın rabitə otağı, rabitəçi əsgər:

- Şahin! Şahin! Mən Mərkəzəm! Mən Mərkəzəm!

Mayor:

- Nə oldu?

- Yoldaş mayor, bütün günü çağırıram, cavab vermirlər. Yəqin ki, ratsiyaları xarab olub.

Mayor:

- Sən çağır. - sonra telefonu götürüb zəng edir; - Yoldaş polkovnik, cavab vermirlər. Yox, yoldaş polkovnik, bu havada heç cür kömək göndərə bilmərik. İki dəfə cəhd elədik, çovğun aman vermədi, əsgərlər yarıyolda qaldılar. Risq edə bilməzdim, qaytardım geri. Lap bir batalyon da göndərsək hamısı bu tufanda yenə yarıyolda qalıb qırılarlar, altından çıxa bilmərik.

Telefondakı səs:

- Mən tufan-mufan bilmirəm. Əsgərlərin yolda qalacağından qorxursansa, özün qalx!

Mayor:

- Qalxaram, yoldaş polkovnik. Mən ölsəm düzələr?!

Telefondakı səs:

- Gərək ki, sənin də oğlun var.

Mayor:

- Bəli, yoldaş polkovnik.

Telefondakı səs:

- Universitetdə oxuyur?

Mayor:

- Xeyr, yoldaş polkovnik. Əsgərdi, vallah, özü də Murovdadı!

Telefondakı səs:

- Elə fikirləş ki, sənin oğlun da onların arasındadı. Anlada bildim.

- Bəli, yoldaş polkovnik.

Telefondakı səs:

- Elə isə indi sənə əmr edirəm, qalx oğluyun və oğlanlarıyın yanına!

- Baş üstə, yoldaş polkovnik!- sonra yenə əsgərə müraciət edir:

- Çağır, oğlum, çağır!

***

... Məkan dəyişir. Səngər, əsgərlər soyuqdan, şaxtadan bomboz bozarıblar, əlcəklərini çıxarıb əllərini hovururlar. Komandir Şairi öpür, Qaranı dürtmələyir:

- Sizə qurban olum. Kişisiz ey, kişi!

Bayaqdan dillənməyən və avtomatını qucaqlayıb dişi-dişinə dəyərək sitildəyən Bakılı Balası:

- Komandir, belə getsə kişiliyimiz o söz!

... Məkan dəyişir. Erməni postu. Bayraq. Dağın ətəyindədi. Postların arası bir güllə məsafəsi. Ermənicə danışırlar. Tonqalları yanır. Amma onlar da yorğun və düşkün, şaxtadan sitildəyirlər. Tonqalın istisinə qızınmağa çalışırlar.

Əsgərlərdən biri:

- Belə getsə hamımız donacağıq.

Başqa bir əsgər:

- Özlərinin balaları Yerevanın saunalarında kef eləyir, bizim kimi yetim-yesirlər də dağlarda, dərələrdə tülkü kimi qırılırıq. Müharibə bir il olar, iki il olar.

Zabit əsəbiləşir:

- Axmaq-axmaq danışmayın. Biz əsgərik! Əsgərin də borcu vətən yolunda ölməkdi.

Əsgər:

- Vətən uğrunda ölər də, daha türklərin bu dağlarında yox.

Zabit:

- Bu dağlar türklərin deyil, bizimdi.

Əsgər:

- Babalarımızı da bu nağıllar öldürdü, atalarımızı da. İndi də bizi.

Zabit:

- Kəsin səsinizi, küçüklər!

Əsgər:

- Komandir, səsimizi kəs deyirsən, kəsək, amma kömək gəlməsə qırılacağıq, yanacaq da qurtarır.

Zabit:

- Gətirəcəklər. Ratsiya işləməsə də, vəziyyətimizi bilirlər. Siz necə ermənisiz?

Əsgər:

- Şaxtaya nə erməni, müsəlman!

Əsgər o biri əsgərdən soruşur:

- Türklərə kömək gəldi?!

- Yox!

Zabit:

- Gələ də bilməz! Heç bizə kömək gələ bilmir. Gör onlar hardadı, ora qalxmaq olar? Qoy donub qırılsınlar it uşaqları. Bu gecə o postu götürəcəyik. Sonra on gün evə, sevgililərinizin yanına.

... Məkan dəyişir. Dərədən ağır-ağır bir yük maşını yuxarı qalxır. Erməni əsgəri sevinclə:

- Komandir, bax, bizimkilər gəlir!

Zabit:

- Dedim kömək gələcək?! Bir az geciksəydilər hamınız vətən xaini olmuşduz. Amma inanmıram bura qalxa bilsinlər. Qalxsalar qəhrəmandırlar! - bu vaxt maşın dayanır; - Gördüz?!

... Məkan dəyişir. Ermənilərin maşını qara batır. Sürücü mühərrikə nə qədər güc versə də, təkərlər boşuna fırlanır, maşın yerindən tərpənmir. Erməni əsgərlər maşını itələyib batdığı yerdən çıxarmağa çalışırlar. Mümkün olmur, yorulurlar.

Erməni serjant (ermənicə):

- Bu maşın posta çıxan deyil. Şey-şüyləri götürün, burdan o yana piyada, marş!

Əsgərlər çantaları maşının banından yendirirlər və qara batabata posta dırmaşmağa başlayırlar.

Kadrda ermənilərin tonqalı. Əsgərlər öpüşüb görüşürlər, çantaları boşaltmağa başlayırlar.

... Məkan dəyişir. Bizim əsgərlər ermənilərin tonqalına elə baxırlar, sanki Qarabağ yanır. Qara dişini-dişinə qıcayır, pulemyota tərəf qalxır, heç kim əhəmiyyət vermir. Qara pulemyotu ermənilərin tonqalına tərəf tuşlayır, donmaqda olan əllərini hovurub tətiyi çəkir. Yanan güllələr havada uçuşur. Pulemyotun şaqqıltısı küləyin səsinə qarışır və dağlarda əks-səda verir.

Güllələr hədəfə dəyməsə də, ermənilər özlərini ora-bura atırlar.

... Ermənilər özlərinə gəlib cavab atəşi açırlar.

... Komandir Qaranın üstünə atılır və çəkib onu pulemyotun üstündən götürür:

- Ə, neynirsən itoğlu! Sabah komandirlər bizi minəcək. Hələ ATƏT-i demirəm.

Qara burnunu çəkə-çəkə:

- Sənin Atətiyin də, komandirləriyin də...

Bakılı Balası:

- Dünya dağılmadı ha! İtuşağı atəşkəsi hər gün on dəfə pozur, heç kim onlara gözün üstə qaşın var demir. Qoy bir dəfə də desinlər ki, atəşkəsi biz pozmuşuq.

... Məkan dəyişir. Erməni postu. Atəşin dayandığını görən erməni zabiti:

- Bəsdi, saxlayın! Onsuz da donub ölürlər, bu gecədən çıxmayacaqlar. Sabah bax, o bayrağı qoparıb bu ayaqqabılarımı siləcəm.

Əsgərlərdən biri:

- Komandir, Allah qoysa de!

Komandir:

- Allah qoysa da siləcəm, qoymasa da!

***

... Məkan dəyişir. Bizim post. Qaranın sifətində qan qalmayıb. Komandir onun ayaqlarını soyundurur, möhkəm-möhkəm ovxalayır, sonra öz sinəsini açıb Qaranın ayaqlarını sinəsinə sıxıb üstünü örtür. Qara xoşhallanır.

Komandir:

- Dədəm-nənəm sizə qurban, yatmayın! Yatsanız, donub öləcəksiniz. Ana-bacılarımızın xətrinə! - Bayrağı göstərir: - O Bayrağın xətrinə! Yatmayın!

Bakılı Balası:

- Komandir, bəlkə nağıllardakı kimi barmağımızı kəsib duz dolduraq?!

Komandir əsəbi:

- Lazım gəlsə, barmaqlarınızı özüm kəsəcəm, amma qoymayacam yatasınız.

Komandir sonra flyaqasını çıxarır, əvvəlcə Qaraya bir qurtum içirir, sonra verir uşaqlara:

- Bircə qurtum! İkinci qurtum ölümdü!

Hərə bir qurtum içir, sonra flyaqanı Komandirə qaytarırlar. Komandir də içmək istəyir, bir flyaqaya baxır, bir uşaqlara, içmir.

Komandir:

- Bir az da dözün. Çovğun bir az kəsən kimi kömək gələcək.

Görmədiz, ermənilər bizdən nə qədər aşağıda, dərədədilər, amma maşınları çıxa bilmədi, batıb qaldı. Dözün! Kömək gələcək! Mütləq gələcək! Yatsaq, hamımız donnub ölərik, ituşaqları da postu götürərlər.

Dağlaroğlu:

- Komandir, vallah döyüşdə ölsəm heç uf da demərəm! Amma indi partlayıram. Axı mən niyə burda donub ölməliyəm?! Biri var deyələr Dağlaroğlu şəhid oldu, biri də var deyələr donub öldü!

Və qalxır ayağa, səngərdən çıxmaq istəyir:

- Çıxıram gedəm, cəhənnəm olsun hamısı...

Komandir:

- Sən öl, bircə addım atsan səni deşik-deşik edərəm, köpəyoğlu! - və atılır Dağlaroğlunun üstə, çəkib salır səngərə və başlayır yumruqlamağa, üz-gözün qana boyayır. Dağlaroğlu ağlayır.

Komandir onun başını sıxır sinəsinə:

- Ağlama, qurban olum, ağlama! Sən mənim balamsan! Balam! Ata kimi vurdum.

Dağlaroğlu da Komandirin boynunu qucaqlayır, sonra donmaqda olan uşaqlara baxıb deyir:

- Məni bağışlayın, qardaşlar. Hirsimdən oldu. Bir qələtdi elədim. Mən sizi heç düşmən qabağında tək qoyub gedərəm!

Sonra Dağlaroğlu uşaqları birbir bağrına basır:

- Bu canım sizə qurbandı.

Komandir yenə bir-bir uşaqlara baxır. Şairin üz-gözünü qarla möhkəm-möhkəm ovur, sonra barmaqlarının ucu ilə təmizləyir:

- Ə, küçük, demirəm yatma?! Yatsan donub öləcəksən! Ə, sən nə cür müsəlmansan, ağzımda bir "Quran"lıq söz danışıram, yenə eşitmirsən. Yatma da, küçük!

Qara:

- Komandir, sabah axşam televizordakı xəbərlərə bu gün baxa bilsəydim, dərdim olmazdı.

Komandir:

- Ə, nə boş-boş danışırsan? Sabah axşamkı xəbərlərə bu gün baxmaq olar? Özü də nəyinə lazım?!

Qara:

- Heç, bilərdim ki, bu gecə donub ölmüşük, ya yox.

Uşaqlar güclə də olsa Qaranın bu sözlərinə gülümsəyirlər.

Komandir də gülümsəyir:

- Darıxma, sabah axşam hamımız bir yerdə televizorun qabağında çay içə-içə baxıb görərik donub ölmüşük, ya yox!

Bu zarafatdan bir az qıvrığı açılan Bakılı Balası burnunu çəkəçəkə soruşur:

- Komandir, sən canın, o Artist qızın axırı nə oldu ey...

Komandir:

- Deməli, belə. Bir də gördüm telefon özünü cırır. Götürdüm. Gördüm bu. Dedi, axşam bizə gələrsən. Ürəyim düşdü ayaqlarımın altına. Vay dədəm, vay! Məni evə çağırır?. Getdim Axund hamamına. Qəşəng-qəşəng çimdim. Üzümü yaxşı-yaxşı qırxdırdım.

Şair:

- Təkcə üzünü?

Bakılı Balası:

- Ə, tərbiyən olsun.

Komandir:

- Hə, üzümü yaxşı-yaxşı qırxdırdım, çıxdım oturdum bir taksiyə, dedim, qədeş, sür Yasamala. Bazarla üzbəüz, beşmərtəbəli bina var ey, bax orda üç otaqlı lüks evi vardı. O kinodan sonra bir prokuror bağışlamışdı.

Şair:

- Bəs prokurordan qorxmadın?

Komandir:

- E, prokuror qoca kişiydi. Zəngi basdım. Əvvəl-əvvəl qapının deşiyindən baxdı...

Komandir gördü Qaranın gözləri yumulur, dürtmələdi:

- Qara, ay Qara!

Qara hövləndi:

- Atırlar?

Komandir:

- Bir də yatsan təpənə elə bir qapaz salacam, gözlərin düşsün ovcuna!- flyaqanı uzatdı ona:- Ala, bir qurtum al, əvvəlcə ağzını yaxala, sonra iç.

Qara bir qurtum alıb flyaqanı qaytarır.

Şair:

- Komandir, bir qurtum da mənə.

Dağlaroğlu:

- Mənə də bir qurtum.

Komandir onlara vermir:

- Qələt eləməyin, siz hələ dözə bilərsiz.

Bakılı Balası:

- Ə, bir dayanın də. Hə, Komandir, sonra nə oldu ey?

Komandir:

- Qapını açdı. Suyun içində, əynində xalat. Xalatın yuxarı düymələri açıq, məmələri də yarı çöldə. İslanmış saçları şəlalə kimi tökülüb məmələrinin arasına...

Şair:

- O da qırxdırmışdı?

Bakılı Balası:

- Ə, demədim tərbiyən olsun.

Şair:

- Saçlarını deyirəm də, niyə hirslənirsən?

Komandir söhbətini kəsdi. Uşaqların qanı donmuş sir-sifətlərinə baxdı, sonra boynundakı şərfi çıxarıb bir neçə yerə böldü, payladı uşaqlara:

- Alın, ağız-burnunuzu örtün.

Uşaqlar:

- Bəs sən?

Komandir:

-Mən Sibirdə bundan da pis şaxta görmüşəm. Tüpürürdük, havada donurdu.

Uşaqlar şərflə ağız-burunlarını örtdülər.

Bakılı Balası:

- Hə, Komandir, məmələri yarı çöldəydi, saçları da şəlalə kimi tökülmüşdü məmələrinin arasına...

Komandir:

- Hə, məmələri yarı çöldə, saçları da şəlalə kimi tökülüb məmələrinin arasına. Dünya gözəli qız ola, özünüz kinoda görmüsüz də, mənim kimi görməmiş kənd uşağı! Elə dəhlizdə qamarladım ey...

Şair dişləri şaqqıldaya-şaqqıldaya:

- Komandir, mən ölüm, sən ona heç nə eləməmisən.

Komandir:

- Necə qamarladımsa...

(ardı qəzetin növbəti sayında)



Rüstəm Hacıyev

# "İran Trampı öldürmək istəyir"?

*CNN telekanalı məlumatlı mənbələrinə istinadən bildirib ki, Birləşmiş Ştatların kəşfiyyat xidməti bir neçə həftə bundan öncə xəbər alıb ki, guya İran keçmiş prezident Donald Trampa qarşı sui-qəsd həyata keçirməyi planlaşdırıb.*

*Məqalədə qeyd olunur ki, bu məlumatdan sonra, Gizli xidmət prezidrntliyə namizədin ətrafında nəzarəti gücləndirib. Mənbənin məlumatına görə, Gizli xidmət Pensilvanidə keçirilən seçkiqabağı mitinq zamanı Donald Trampa qarşı sui-qəsd törətməyə cəhd edən Metyu Kruksun, İranın hazırladığı planla əlaqələri barədə heç bir məlumata sahib deyill.*

*İlon Maksın da qeyd etdiyi kimi, prezidentliyə namizədin təhlükəsizliyinin qorunmasında səriştəsizlik höstərən və bir başa məsuliyyət daşıyan xüsusi xidmət orqanları, indi də günahı İranın üstünə atmağa çalışır.*

*Adama deyərlər ki, əgər doğrudan da, bir neçə həftə bundan öncə İranın keçmiş prezidentə qarşı hazırladıqları plan barədə məlumatınız var idisə, bəs onda harda yatıb qalmışdınız ki, günən günorta vaxdı, ”dünyanın demokratiya beşiyində” prezidentliyə namizədə qarşı sui-qəsd aktı həyata keçirildi.*

*İran tərəfi ona aarşı irəli sürülən ittihamları rədd edib və bəyan edib ki, onların xüsusi xidmət orqanları Trampa qarşı hər hansı bir plan hazırlamayıblar.*

## İSPANLAR İNGİLİSLƏRDƏN ÜZÜM İNTİQAMINI ALDILAR




**II Dünya müharibəsi ərəfəsində ingilislər ispanlara babat atmışdılar. Müqavilə bağlamışdılar ki, nə qədər üzüm istehsal etsəniz biz alacağıq. İspanlar da bütün İspaniyanı üzüm bağına çevirmişdilər, yəni aqrar ölkə olmuşdu.**

Müharibə qurtarandan sonra ingilislər day ispanlardan üzüm almadılar. Ara qarışdı, məlum oldu ki, müqavilədə ingilislər ispanlara atıb. İngilislər müqavileni o qədər ağıllı hazırlayıblar ki, orda bir şərt ingilislərin gözündən qaçıb. Həmin şərtə görə, ingilislər yalnız müharibə dövrü ispanlardan üzüm almalıymış. Müharibə bitdi, salam-əleyküm də bitdi, üzüm alveri də. İspanlar hələ də bunun altını çəkirlər. Bütün Avropa ölkələri sənaye baxımından güclü inkişaf eləsə də, İspaniya geri qaldı.

**Və Avropa çempionatında bu intiqamı ingilislərdən aldılar. Amma çox maraqlı oyun idi. Hər iki tərəf gözəl oyun nümayiş etdirdi. Və ingilislərin özündən müştəbehliyi onların məğlub olmasına gətirib çıxartdı. İngilislərin acığına kuboku da İspaniyanın kralı təqdim elədi.**

## FTB xəbərdarlıq etdi




**ABŞ-ın Federal Təhqiqatlar Bürosu və daxili işlər nazirliyi, Trampa qarşı sui-qəstin intiqamının alına biləcəyi ilə bağlı xəbərdarlıq edib. Bu barədə Politico qəzeti güc strukturlarının sənədlərinə istinadən məlumat verib.**

”FTB və daxili işlər nazirliyi sui-qəsdə cavab verilə bilecəyindən narahatdılar”- deyə qəzetin yaydığı məlumatda bildirilir. Sənədlərə əsasən, qeyd olunur ki, intiqam təhlükəsi seçkilərlə əlaqədardır. Bununla yanaşı güc strukturları kimlərə qarşı hücumlar təşkil edilə biləcəyi barədə məlumat verməyiblər. Həmçinin sənədlərdə ”ekstrimistlərin daha əvvəllər siyasi və ideoloji rəqiblərinə qarşı belə aktraın keçirilməsində iştirakı” barədə də məlumat verilmir.

FTB sosial şəbəkələrdə ABŞ prezidentliyinə namizədlərlə bağlı təhdid dolu ritorikaların artdığını bildirirlər.

Xatırladırlq ki, bu ayın 13-də, Pensilvalidə keçirilən mitinq zamanı, prezidentliyə namizəd Donald Trampa qarşı sui-qəsd planı həyata keçirilmişdir.

**Rüstəm Hacıyev**

# "Krokus" terrorunda "rus barmağı"

**”Moskva yaxınlığındakı ”Crocus City Hall”da baş verən terror aktını Mərkəzi Asiya və Avropa ölkələrinin nümayəndələrindən ibarət beynəlxalq komanda təşkil edib. Onların arasında ruslar da var”.**

Adalet.az xəbər verir ki, bu barədə ”Rosfinmonitorinq”in rəhbəri Yuri Çixançin Federasiya Şurasında çıxışı zamanı bildirib.

”Crocus City”yə gəlincə, araşdırmalar davam edir. Amma deyə bilərəm ki, onlar müxtəlif ölkələrin vətəndaşlarından ibarət beynəlxalq komandadır. Bunlar Mərkəzi Asiya ölkələrinin, Avropa ölkələrinin və s. nümayəndələridir”, - o qeyd edib.




Qeyd edək ki, Moskvada ”Krokus Siti Holl”da törədilən terror aktı ilə bağlı 20 müttəhimdən 18-i həbs edilib. Məlum teraktdan sonra Rusiyada miqrantlara qarşı münasibət sərtləşib. 2024-cü ilin yanvar-aprel aylarında Rusiyadan 22 minə yaxın xarici vətəndaş çıxarılıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə təxminən iki dəfə çoxdur.

**Xatırladaq ki, martın 22-də ”Krokus Citi Holl” konsert zalında törədilən terror aktı zamanı 145 nəfər həlak olub, 550-dən çox insan yaralanıb.**

**Əntiqə Rəşid**

# Gorusda olay: Rusiyanın dondurulmuş toyuq budları erməniləri zəhərlədi

**Rusiya istehsalı olan dondurulmuş toyuq budu ermənləri zəhərləyib.**

Adalet.az xəbər verir ki, Ermənistan Qida Təhlükəsizliyi Müfəttişliyi orqanı Zəngəzur vilayətinin Gorus şəhərində qeydə alınan zəhərlənmə hadisəsinə operativ reaksiya verib, öz səlahiyyətləri daxilində lazımi tədbirlər görüb.



O cümlədən, həmin gün Gorus şəhərindəki mağazaların birindən və Şinuheyr kəndindəki mağazadan ilkin diaqnozla xəstəxanaya çatdırılan ailə üzvlərinin alıb istifadə etdikləri məhsullardan nümunələr götürülüb. Müvafiq olaraq Rusiya istehsalı olan dondurulmuş toyuq budu, toyuq kotleti, Krakovski tipli kolbasa və Rusiya istehsalı olan buğda unundan hazırlanmış qida məhsulları laboratoriya müayinəsinə təqdim edilib. Müayinənin nəticəsinə əsasən, dondurulmuş broyler toyuq budu nümunəsində patogen salmonella aşkar edilib (istehsalçı və təchizatçı: ”SPK Kournikov” MMC, Saratov quşçuluq zavodu, 04.10.2024-cü il, yararlılıq müddəti: 01/10/ 2025) və ”Home Food” brendinin toyuq əti kotleti MAFAnMK (mezofilik aerob və fakultativ anaerob bakteriyalar) indeksinə əsasən (istehsalçı: A/D Samson Avaqyan, Sünik rayonu, istehsal olunmuş) Aİİ-nin texniki reqlamentinin tələblərinə cavab verməmişdir. 25.05.2024-cü il, istifadə müddəti 120 gün).

**Laboratoriya müayinəsinin nəticələri ilkin ekspertiza orqanına təqdim olunacaq.**

**Ə. Rəşid**

# Doğma şəhərimizə, məhləmizə ögey münasibətimiz...

**Bakıda yerləşən binaların 85 faizinin qarşısı bu gündədir! Bura da bizim binanın qarşısıdı Zatən başqa cür olsaydı təəccüblənərdim!**



Görən, insanlarımız nə vaxt sahiblənmək ehtiyacı duyacaq:mənim kucəm, mənim şəhərim mənim evimdir - deyəcək! Əvvəllər süpürgə götürüb 7 mərtəbənin pillələrindən başlayıb məhlənin böyük hissəsini süpürürdüm... Utanmırdım, usanmırdım. Elə bilirdim kəndimizdəki, həyət-bacımızı süpürürəm. O eşqlə yəni!

Sonra başını buraxdım!

Niyə? Baxdım ki, binanın, məhlənin bəzi qadın sakinləri mənə süpürgəçi kimi baxır... Sanki bu işi görmək mənim boynumun borcu imiş...

**Saxlatdim elə birisini, dedim, xanım 2 qırmızı diplomum var, ali təhsilli peşəkar jurnalistəm... Bu məhələdə, nədəsə, məndən üstün olan qadın yoxdu... Sadəcə, bu iş mənim içimdən gəlir... İndi day eləmirəm...**

**Əntiqə Aslan**

# ABŞ rəsmisinin müəmmalı missiyası: Ayran içməyə gəlib, yoxsa, ara açmağa?

**Xəbər verdiyimiz kimi, ABŞ dövlət katibinin mülki təhlükəsizlik, demokratiya və insan haqları üzrə müavini Üzra Zeyanın iyulun 13-16-da Ermənistana səfəri oldu.**

Onu da xəbər verdik ki, xanım Zeya Ermənistana xəbər gətirmişdi ki, Bayden Administrasiyası onlara 16 milyon dollara yaxın vəsait ayırıb. Xanım Zeya bir neçə dövlət və hökümət adamlarının qəbulunda oldu. Ermənistanın siyasi və iqtisadi durumu, vətəndaş cəmiyyəti ilə insan haqları, korrupsiya ilə mübarizə və mətbuat azadlığının gücləndirilməsi ilə bağlı müzakirələr aparıb.

Di, çıxsın getsin də!

Getməyib!



Adalet.az xəbər verir ki, ABŞ dövlət katibinin müavini Uzra Zeya ABŞ-ın Ermənistandakı səfiri Kristina Quinnlə də görüşüb.

Xanım Kristina da xanım Zeyanı götürüb gedib Ermənistanın zəngin mədəni irsi ilə tanış olmaq üçün Lori bölgəsində orta əsrlərə aid Haqpat monastır kompleksinə baş çəkib.(Məlumdur ki, məbəd qədim türk diyarında türklərə məxsus bir abidə olub)

Məlumatı ABŞ-ın Ermənistandakı səfirliyi yayıb. ”X” mikroblokunda xəbəri paylaşan səfir yazıb: ”Mədəni və dini irsin qorunması son dərəcə vacibdir”.

Daha sonra Zeya həmçinin saxta erməni ”soyqırımı memorialı”nı ziyarət edib.

**Qeyd edək ki, ABŞ-ın Ermənistandakı səfirinin Mədəni Dəyərlərin Qorunması Fondu məbədin bəzi Alban abidələrinin bəzi hissələrində bərpa işlərinə, digər hissələrində isə gücləndirmə işlərinə 175 min dollar ayırıb. Məhz sərhəddə yerləşən Alban abidələrini təlsik bərpası ilə məşğul olmağa çalışan Ermənistan gələcək üçün bizə yeni sürpriz planlar hazırlayır.**

**Əntiqə**

# ""Test" mənim xidmətimdir" deyənlər, Vurğun Əyyub sağkən səsiniz çıxmırdı...

**1987-ci il idi. Kənd məktəbi səviyyəsində məzun olaraq qurduğum xəyallara qovuşmaq üçün gün sayırdım. Nəhayət avqust ayında Lenin adına APİ-nin Azərbaycan -dili - ədəbiyyat fakültəsinə imtahan verməli oldum. Bu günkü kimi yadımdadır. İlk imtahanım ədəbiyyatdan yazılı idi. Mövzum isə" Cəfər Cabbarlı yaradıcılığında mənfi obrazların təhlil" oldu. O vaxt sinifdənxaric oxu üsulu ilə nəinki, tək C.Cabbarlını, yalan olmasın bütün yazıçılarımızın əsərlərini oxuyub başa vurmuşdum. Orta məktəb ədəbiyyat müəlliməm Roza xanım çox güclü idi. Həm fənni sevdirmişdi, həm də yazıçıları.**

Plan qurmağı da, plan sayəsində inşanı ardıcıl şəkildə yazmağı da mənə çox gözəl şəkildə öyrətmişdi. Heç kəsin inanmadığı bir iş oldu. Yazıdan 4 almışdım. İkindi imtahan isə şifahi ədəbiyyat və Azərbaycandilidən idi. 3 aldığıma elə sevinirdim. Az qalırdım küçədən keçənləri tutub bağrıma basam. Çünki biz Bakıya imtahana gələndə hamı bir ağızdan deyirdi ki, havayı yerə ora gedib, yola pul xərcləməyin Əntiqənin sevdiyi fakültənin qiyməti 10 min manatdır. Amma 2 imtahandan keçməyim məni elə sevindirirdi ki...

Yadıma düşmükən deyim, o vaxt imtahana girəndə həm daimi qeydiyyat yerini yazırdılar, həm də müvəqqəti- imtahan verdiyin zaman qaldığın ünvanı . 3 gündən sonra sonuncu- 3-cü imtahana gedəcəkdim. Ananla birgə qaldığımız ünvana kəndimizdən olan Qaməddin adlı bir adam gəldi. Qohumlarımla görüşdü, söhbətləşdi və məlum oldu ki, ali məktəblərə "makler"lik edir. APİ-dən bunu mənim ardımca göndəriblər. Qaməddin dedi ki, həmin fakültənin qiyməti 10 min manatdır, amma bu qız 2 imtahanı verdiyinə görə 7 min manata tələbə ola bilər.

Anam kəndə -atama zəng vurdu, məsələni dedi. Atam qəti etiraz etdi.Dedi ki, biliyi var girsin, yoxdu qayıtsın gəlsin evinə:"Mənim insituta veriləcək pulum yoxdu".

Sonuncu imtahandan 2 alandan sonrabilmədim insitutları "alverxanaya" döndərənlərəmi əsəbləşim, yoxsa, bankda 13 min manat pulu ola-ola mənə 7 min manat rəva görməyən atamamı əsəbləşim... Küsdüm, institutdan da, oxumaqdan da... 2000-ci iilərin başında yenə insitut həvəsim "ərşəqalxanda" yenidən Bakıya üz tutdum və test imtahanlarını müvəffəqiyyətlə verib ali məktəbin tələbəsi oldum!Bunun üçün isə hər zaman Elçibəyə və Vurğun Əyyuba təşəkkür borcum bitib-tükənməz olub.

### *Keçək əsas məsələyə*

Bəzən ziyalı, ağsaqqal, alim hesab etdiyimiz insanların uşaqcasına danışıqları bizdə hələ balaca vaxtından yaranan sterotipləri kökündən məhv edir.

Hamıya məlumdur ki, 1992-ci ildə , yəni Azərbaycan müstəqillik qazandıqdan sonra ilk iş ali təhsilin qayğısına qalmaq olub. Bu o dövrün bütün şahidləri təsdiq edər. Müstəqil Azərbaycanın qurucuları olan gəlnclərin sovet üsul idarəsinin tətbiq etdiyi ali təhsil almaq şərtləri nin dəyişdirilməsi mühüm məsələ olaraq gündəmə gəldi. O vaxt hökümətdə təmsil olunan şəxslər açıqlamasında bildirdilər ki, 1992-ci ilin iyul ayında prezident Əbülfəz Elçibəyin və prezidentin təhsil üzrə müşaviri Rafiq İsmayılovun rəhbərliyi ilə ali məktəb rektorlarının qatıldığı müşavirə keçirildi.

Həmin müşavirədə bütün rektorlar test üsulunun tətbiqi ilə razılaşdılar. Çünki, yoxsul təbəqədən olan gənclərin təhsil alma şansları artacaqdı. Beləliklə, Preziden Elçibəyin qərarı ilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası yaradıldı və ilk sədr Vurğun Əyyub seçildi. Düzdür, sistemin tətbiqi birinci növbədə Əbülfəz Elçibəy başda olmaqla Azərbaycan hakimiyyətinin siyasi iradəsi hesabına baş tutsa da, yaddaşlarda ən çox Vurğun Əyyub qalıb. 1989-cu ildə Azərbaycan Xalq Cəbhəsinin (AXC) yaradılması prosesi zamanı təşkilatın idarə heyətinin üzvlərindən biri seçilib və 1992-ci ildə Azərbaycanda ali məktəblərə tələbə qəbulunun test üsulu ilə keçirilməsini təmin edib. 1989-cu ildə Azərbaycan Xalq Cəbhəsinin (AXC) yaradılması prosesi zamanı təşkilatın idarə heyətinin üzvlərindən biri seçilib.

O, 1992-ci ildə Azərbaycanda ali məktəblərə tələbə qəbulunun test üsulu ilə keçirilməsini təmin edib. Maraqlıdır ki, V.Əyyub dünyasını







dəyişəndən sonra bəzi ziyalılarımızın dili açılıb. Məsələn, 2019-ci ildə Azərbaycanın ilk təhsil naziri Firudin Cəlilov bakupost-a müsahibəsində testi ölkəyə kim gətirib sualına cavab verərkən deyib ki, İndiyə qədər mən bu barədə danışmamışam. Amma görürəm ki, artıq danışmaq lazımdır:" "Mən Rəhim Hüseynovun vaxtında Baş Nazirin müavini işləyirdim. İnstitutlar, məktəblər mənim kurasiyamda idi. Mən də test imtahanlarını gətirmək istəyirdim, amma bu çox ağır bir məsələ idi. Sərəncam verdim, qəbul imtahanlarını dayandırdılar ki, testə keçək. Mənim sərəncamımdan bir ay sonra Elçibəy hakimiyyətə gəldi. Mən ona dedim ki, bu artıq mənim səlahiyyətimdə olan bir iş deyil. Prezident sənsən ya "hə" de, ya "yox". Konkret razılıq vermədi. Orda bizim Elçibəylə xoş olmayan deyişməmiz oldu. Bu söhbətdə Pənah Hüseyn, İsa Qəmbər, Arif Hacılı, İxtiyar Şirin, Sülhəddin Əkbər və başqaları da iştirak edib. Amma 30 ildə birinin qanacağı çatıb bu barədə danışmadı. Heç kim etiraf etmədi ki, test üsulunu təhsilə kim gətirib və ilk test imtahanını kim keçirib.. Heç kim etiraf etmədi ki, test üsulunu təhsilə Vurğun yox, Firudin gətirib.

Sonra mən sınaq kimi 2000 tələbəni testdən keçirib göndərdim Türkiyəyə. Bu, xalqda yaxşı bir ovqat yaratdı. İnsanlar artıq inandılar ki, test daha ədalətli imtahan üsuludur. Yalnız ondan sonra Elçibəy Pənah Hüseynovu yanıma göndərdi ki, test üsulu təsdiqlənsin. Vurğun Əyyubla Misir Mərdanovu Türkiyəyə göndərdim ki, gedin o sənədlərin hazırlanma qaydasını öyrənin. Tələbə Qəbul Komissiyasını yaratdım. Elçibəy dedi, ora kimi sədr qoyaq? Vurğunu dedim".

Sonda Cəlilov deyib ki, , son illərdə Vurğun Əyyub da, Misir Mərdanov da müsahibələrində etiraf etdi ki, test imtahanı Firudinin ideyası idi".

Hazırda biz, Cəlilovun bu sözünə inanmamaq məcburiyyətindəyik.

Çünki, sabiq təhsil naziri Misir Mərdanov bu fikrin tərsini deyir. O açıqlayıb ki, çoxları elə bilir ki, test üsulunu o vaxtın təhsil naziri Firidun Ağasıoğlu gətirib. Düzdür, qərarı onlar verib. Ancaq test üsulunu, o kağızları əlində Azərbaycana gətirən mən olmuşam: "Nazir müavini kimi Türkiyənin təhsil işçilərinin hamısını yaxşı tanıyırdım. Xalq Cəbhəsi gəlib, bu işə başlayanda isə heç nə bilmirdilər. Şəxsən rektor məni çağıraraq bildirdi ki, deyirlər, test kağızlarını gətirmək üçün Misir müəllim getsin. Düzdür, həmin ərəfədə məni çıxarıb universitetə keçirmişdilər, bir az incik idim. Buna baxmayaraq, o kağızların dalınca mən getdim. Ancaq belə gözləmirdik. Bunlar tamamilə fərqli sistem gətirdilər, səhv yol ilə getdilər. Mən o sualları tərtib edən adamlarla tez-tez görüşürdüm. Deyirdim ki, bu uşağa hansı həcmdə bilik vermisənsə, onu tələb elə. İndi isə olduqca ağırlaşdırılmış suallar salırlar. Düşünürəm, təcili olaraq bu qaydalardan imtina olunmalıdır".

Son olaraq: Baxmayaraq ki, Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun əməkdaşı, filosof Müşfiq Şükürov 1992-ci ildən bu yana keçirilən və təriflənən test üsulu bizim təhsil sahəsindəki uğursuzluğumuzun abidəsidir -deyir, amma özüm də daxil olmaqla , o dövrdən bu günə qədər məzun olan bütün gənclər Elçibəyə, V.Əyyuba və o dövrdə hökuməti təmsil edənlərə təşəkkür borcludur.

***P.S.** Yadıma kiçik bir hadisə düşdü. Deməli "Laçınım mənim" mahnısı ilə qəlbimizdə özünə taxt quran sevimli müğənnimiz Məhəbbət Kazımov dünyasını dəyişəndən sonra onun duet ortağı Könül Kəirimova iddia qaldırdı ki, o"Laçınım mənim" mahnısı onun özünə məxsusdur. Həmin vaxt belə bir məqalə yazmışdım:" Könül , bu iddianı niyə M.Kazımov sağ olanda qaldıra bilmədin? İnsan da yaxın bildiyi insana bu namərdliyi edərdimi?".*

***Təbii ki, yalan danışırdı və iddiasından geri çəkildi... Eyni nüans...***

**Əntiqə Rəşid**

# Baqrat niyə Paşinyana qalib gələ bilmədi - Gizlinlər ortaya çıxır

**Uzun zamandır , erməni ictimaiyyəti düşünür ki, may ayının əvvəlindən başlayan "Vətən Naminə Tavus" vətəndaş hərəkatı niyə iflasa uğradı, niyə Ermənistanın baş naziri onu kürsüdən salmaq istəyən güçlü xalq qüvvələrinə qarşı saymazyana yanaşdı?**

Bəli, Ermənistanda təkcə Tavusda, xüsusilə Nikol Paşinyan tərəfindən təhvil verilən ərazilərin ətrafında deyil, həm də Ermənistanın müxtəlif yaşayış məntəqələrində, müxtəlif dövlətlərarası yollarda etiraz aksiyaları davam etsədə, Paşinyan velosiped sürməyindən, istirahətindən, futbola baxmaq üşün Almaniyaya getməkdən çəkinmədi.

Etirazçılara başçılıq edən, etiraz aksiyasını 3 aydır dayandırmayan din xadimi Baqrat Qalstyanın başlatdığı hərəkatın son günlər "söndüyünü" dəqiq anlayır. Xatırladaq ki,



etiraz aksiyasına bir çox rəsmi şəkslər, alimlər, biznesmen və siyasətçilər yekdilliklə qoşulmuş Paşinyana qarşı çıxmışdılar. Amma çi fayda... Paşinyan hazırda Almaniyada velosiped sürü, xanımı Anna ilə istirahətindən qalmır. Yenədə qeyd edirəm ki, hələ də erməni ictimaiyyəti düşünür ki, may ayının əvvəlindən başlayan "Vətən Naminə Tavus" vətəndaş hərəkatı niyə iflasa uğradı?

Bunun səbəbini isə xırda bir detal ortaya qoyur.

Deməli, ABŞ Dövlət katibinin müavini Uzra Zeya başçılıq etdiyi nümayəndə heyəti ilə birgə İrəvanda səfərdədir. O, Ermənistanın baş prokuroru Anna Vardapetyan görüş keçirib. ABŞ dövlət katibinin müavini Uzra Zeya Ermənistanda davam edən demokratik islahatları, xüsusilə korrupsiyaya qarşı mübarizə sahəsində aparılan işləri diqqətə çatdırıb və ABŞ hökumətinin Ermənistanın korrupsiyaya qarşı mübarizədəki səylərini fəal dəstəklədiyini vurğulayıb.

Sonra bax elə bu görüşdə ABŞ rəsmisi deyib ki, ABŞ hüquq-mühafizə orqanlarında islahatların təşviqində Ermənistanla əməkdaşlığa sadiqdir:"Buna görə də, ABŞ Ermənistanda patrul polisinin formalaşdırılmasına 16 milyon dollara yaxın vəsait ayırıb".

Qeyd edək ki, Ermənistan yeni AES tikintisi prosesində mühüm mərhələyə keçib.Hazırda ABŞ-la bu layihənin hüquqi bazasının tənzimlənməsi ilə bağlı müzakirələr aparılır. ABŞ hərbçilərinin 2-ci dəfə Ermənistanda hərbi təlim tədbiri keçirməsi də əslində hər zaman Qafqazda əlini -qolunu sallayıb gəzən, özünü Qafqazın sahibi hesab edən Rusiyaya qarşı birgə addım atmaq üçündür. ABŞ Bakı və Tibilisini itirdikdən sonra Ermənistan kimi oyuncaq bir tərəfdaşı itirmək istəyərmi?

***P.S.** Əgər xalq diktator bildiyi bir lideri yerindən tərpətməyə gücü çatmırsa, demək ki, onun arxasında dünyanın hegemon ölkələri, dünyanı yönləndirən güclər durub, onu qoruyurlar. Bu səbəbdən də Paşinyan istədiyi qərarları verir!*

**Əntiqə Aslan**

# “Ballı market”in yeni fırıldağı...

**Sirr deyil ki, bəzən marketlər isehlakçıları aldadır, vitrindəki qiymətlərlə kassada verilən qəbzlər arasında müyyən qədər qiymət fərqləri olur.**

**Üstəlik də əhaliyə bir çox halda istifadə müddəti başa çatmış ərzaq və qida məhsulları satılır. Təbii ki, bu da alıcıların haqlı narazılıqlarına gətirib çıxarır. Həmişə olduğu kimi, iyulun 15-də Yeni Günəşli yaşayış sahəsində yerləşən” Ballı market” dən bazarlıq eləmək istədim! Bir az badımcan, bir az da bibər aldım.**




**Həmin məhsulları bizə çəkib verən satıcı qız qiyməti sellofan torbanın üstünə yapışdırdı. 61 qəpik bibər, 55 qəpik badımcan idi. İkisi bir yerdə 1 manat, 16 qəpik elədi. Amma birinci kassada işləyən xanımın verdiyi qəbzdə (çekdə) onların qiyməti 1 manat 45 qəpik göstərilmişdi.**




**Biz narazılığımızı marketin nəzarətçisinə bildirən də o dedi ki, bibər bahalaşıb, kiloqramı 2 manat, 99 qəpik olub. Biz yenə həmin nəzarətçiyə öz iradımızı bildirdik: “Onda həmin məhsulun üstündə də qiyməti dəyişməliydiniz, amma siz qiyməti dəyişməmisiniz və bizi aldadırsınız”. Bu dəfə nəzarətçı bir qədər fikirləşib dedi: “Hələ səhərdir, bir azdan dəyişəcəyik”. Hansı ki, həmin vaxt günorta saat üçün yarısı idi! Deməli, “Ballı market”in sahibi və əməkdaşlar biləkdən camaatı aldadır! Ümumiyyətlə, bu marketdə çox vaxt belə “səhv” lər olur! Və “səhv”lər alıcılara baha başa gəlir! Və biz də başımıza gələnləri qələmə aldıq, qəbzin və sellofanın üstündəki qiymətin fotosunu da oxucularımızın diqqətinə çatdırırıq! Hər halda, əlaqədar qurumlar da bu faktlara önəm verməli, özbaşınalıqlara son qoymalıdır!!!**




**Faiq QİSMƏTOĞLU**

## *Tramp Ukrayna münaqişəsini necə həll edəcək?*



**Financial Times qəzeti Macarıstanın baş naziri Viktor Orbana istinadən yazır ki, ABŞ-ın eks-prezidenti Donald Tramp yenidən prezident seçilərsə, Ukraynanı Rusiya ilə danışıqlara başlamağa məcbur etməyi planlaşdırır. ”Biz seçkilərə qədər Trampdan hər hansı sülh təklifləri gözləmirik. Lakin, mən əminliklə deyə bilərəm ki, Tramp seçildikdən sonra, hətta inaqurasiyanı gözləmədən sülhpərvər fəaliyyətinə başlayacaq”- deyə Orban bəyan edib.**

Macarıstanın baş naziri xüsusiylə qeyd edib ki, Trampın sülh prosseslərinə başlanması üçün yaxşı işlənmiş planları var. Orban hımçinin bildirib ki, bu vəziyyətdə Avropa İttifaqına üzv dövlətlər, sülh prossesini sürətləndirmək üçün Rusiya ilə diplomatik əlaqələrini mütləq bərpa etməlidirlər.

Xatırladırıq ki, Çin də, Braziliya ilə birgə hazırladığı plana əsasən Avropa İttifaqınını Ukrayna münaqişəsinin həlli istiqamətində danışıq tonunu dəyişməyi məsləhət görüb.

**Rüstəm Hacıyev**

# Ləl-Cəvahirat Fondunun yaranmasının 32 ili: Şaiyələr və reallıq

**Şaiyələr bu gün də dillərdə gəzməkdədir. Hətta deyirlər ki, Ləl-Cəvahirat Fonduna 1992-ci ildə 65 kq təmiz əyarlı qızıl verən Balakən sakininin adı və fonda yığılanlar 32 ildir müzakirə olunur.**

Adalet.az xəbər verir ki, bu gün Azərbaycanda Milli Ləl-Cəvahirat Fondunun təsis edildiyi gündür. Milli Ləl-Cəvahirat Fondu Azərbaycan Respublikasının ikinci prezidenti Əbülfəz Elçibəyin 1992-ci il 16 iyul tarixli 50 nömrəli fərmanına əsasən qiymətli metalların, daş-qaşların və onlardan hazirlanmış məmulatın və digər əşyaların qəbulu, saxlanılması və uçotu üçün yaradılıb. Ə.Elçibəyin 1992-ci il 21 iyul tarixli sərəncamı ilə İskəndərov İsfəndiyar İskəndər oğlu Milli Ləl-Cəvahirat Fondu direktoru təyin etdi.

Milli Ləl-Cəvahirat Fondu Azərbaycan Respublikası Prezidentinin 20 avqust 1998-ci il 759 nömrəli fərmanı ilə ləğv edilib.



Qeyd edək ki, Azərbaycan mediasının diqqət mərkəzindən düşməyən Milli Ləl-Cəvahirat Fondu haqqında fikirlər hələki yekun bir nəticə ortaya qoymayıb Buna baxmayaraq mediamız yazır: Rəsmi şəxslərin dediyinə görə Fondda 2 -4 ton qızıl olub. Hətta sabiq deputat Fərəc Quliyev 9 ton olduğunu öz müshibəsində qeyd edir”.

Yeri gəlmişkən, Musavat.com 2010-cu il -də yazırdı: ”Pənah Hüseyn Ləl-Cəvahirat Fondu ilə bağlı maliyyə nazirinin dediklərinə istinadən sensasion bir çıxış etdi. Yeri gəlmişkən, nazir Samir Şərifov demişdi ki, Azərbaycan qızıl ehtiyatı yaradır. Onun sözlərinə görə, 99.5 kiloqram həcmində ilk qızıl partiyası Azərbaycana daxil olub və saxlanmaq üçün Mərkəzi Banka verilib. O, yaxın vaxtda daha 100 kiloqram qızılın ölkəyə gətiriləcəyini vurğulayıb.

P.Hüseyn isə bununla bağlı Müsavat deputat qrupunun sorğusunu çatdırdı: ”Nəzərinizə çatdırıram ki, 1992-ci il iyul ayının 16-da dövlət qızıl ehtiyatlarının yaradılmasını nəzərdə tutan Ləl-Cəvahirat Fondu haqqında prezident fərmanı verilmişdi. Mən 1993-cü ildə bizim hakimiyyət dövründə orda indi elan olunandan onlarla dəfə artıq miqdarda - dövlət sirri olduğu üçün dəqiq rəqəm səsləndirmirəm - antikvariat, qızıl toplanmışdı. Ona görə də biz dövlətə məxsus olan bu ehtiyatın taleyinin necə olduğunu, bunun kim tərəfindən sərf olunduğunu xalqa açıqlamağı xahiş edirik”.

**Sayt daha sonra yazır:”Siyavuş Novruzov 1993-cü ildə Ləl-Cəvahirat Fondunun ”süpürüldüyünü” iddia etdi. O, məsələni araşdırmaq üçün komissiya yaradılması təklifini verdi: ”Araşdırma olsa, burda oturanların bir neçəsi cinayət məsuliyyətinə cəlb olunacaq”.**

**Əntiqə Rəşid**

## *Avtobus zolağına girən avtomobillər...*



**Bakı şəhərində son vaxtlar sərnişin daşıyan avtobusların rahat hərəkət etməsi üçün avtobus zolaqlar ayrılıb.**

Təbii ki, bu yolla , ancaq avtobus lar hərəkət etmək hüququna malikdir, amma bəzən bunun əksinə olur, yeni o zolaqla digər avtomobilllər də hərəkət edir. Bu isə birmənalı olaraq qanun pozuntusu deməkdir. Belə hallarda avtobus sürücüləri çıxılmaz vəziyyətdə qalır, onlar digər nəqliyyat vasitələrinin yoluna çıxaraq hərəkət edirlər.

Mövcud vəziyyətlə əlaqədar Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis kapitanı Toğrul Nəsirli deyir ki, digər nəqliyyat vasitələrinin avtobus zolaqların daxil olub, hərəkət etməsi qanun pozuntusudur. Belə qanun pozuntusuna görə, sürücülər İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə cərimə edilirlər. Eyni zamanda həmin avtobuslarında digər avtomobillərin yoluna çıxması inzibati məsuliyyət yaradır. Qanun niyə tələb edirsə, sürücülər də ona əməl etməyə borcludurlar! Əks- təqdirdə onları müxtəlif məbləğlərdə cərimələr gözləyir!

Avtobus sürücülər isə digər avtomobillərin yoluna çıxmaları zolaqların zəbt edilməsi ilə izah edirlər. Onlar deyirlər ki, biz görürük , zolaqlar tutulub, məcbur olub başqa zolağa çıxıb hərəkət edirik! Ona görə də hər bir sürücü zəhmət çəkib ona aid olan zolaqla avtomobili idarə etməlidir! Belə olsa, qanun pozuntusu da baş verməz!

## *Onlar təhlükəsizliyimizi yüksək səviyyədə qoruyurlar...*

**Daxili İşlər Nazirliyi həmişə ictimai asayişi qoruyub və cinayətkarlığa qarşı ciddi mübarizə aparıb! Hər bir Azərbaycan vətəndaşı bunu gündəlik həyatında hiss edir.**

Ona görə də bu xalqın polisə böyük hörmət və məhəbbət var! Heç Avropa ölkələrində polis bizimkilər kimi insanların təhlükəsizliyini təmin edə bilmirlər.

Aşura günü də Azərbaycan polisi bütün məscidlərdə mərasim iştirakçılarının həyatını yüksək səviyyədə qoruyurdu və mən bir Azərbaycan vətəndaşı kimi bundan qürur duyurdum! Biz səhər saatlarında

Bakının Yeni Günəşli yaşayış sahəsindəki ” Fatimeyi-zəhra” məscidində olarkən bir daha bunalrın şahidi olduq! Şahidi olduq ki, Çevik Polis Alayının və Post- patrul xidmətinin əməkdaşları mərasim iştirakçılarının təhlükəsizliyi üçün bütün qabaqlayıcı tədbirləri görmüsdü.Polisin belə yüksək səviyyədə xidmətindən məscidə mərasimə gələnlər




çox razılıq etdilər və dedilər ki, Allah Azərbaycan Polisini qorusun!!! Biz də onların fikirlərinə qüvvət verərək ” Amin!”- dedik!!!

## *İki-üç ildən bir yol təmir edənlər...*

**Bəlkə də dünyanın heç bir yerində bizim ölkədəki kimi iki- üç ildən bir yollar təmir edilmir və bir müddətdən sonra o yollar dağılıb sıradan çıxır.**

Dövlətin milyonlarla pulu təmir adı ilə mənimsənilir. Və buna görə yol tikintisi ilə məşğul olanlar sual- cavab edilmir,



məsuliyyət cəlb olunmur.Deyən yoxdur ki, ay vəzifəli şəxs, sənin tikdiyin yol niyə iki ildən sonra dağılır?! Çünki yol tikintisi zamanı işlər keyfiyyətsiz görülür, hər şey şişirdilir və küllü miqdarda pul ” yeyilir”. İndi də ” Mətbuat ” prospektini dağıdıb sökürlər. Heç olmasa , barı bu dəfə keyfiyyətli yol tiksinlər! Xarici ölkələrdə yol inşa edilərkən ona 20- 30 il zəmanət verirlər! Görəsən, bizdə yollar yenidən tikilərkən nə qədər müddəti olur! Bax, bu sualın cavabını o yolu tikənlər bilirlər!!!

## *Kiloqramı yeddi manata pomidor olar?!*

**İndi nə desən , ola bilər! Bir həftə bundan əvvəl pomidorun kiloqramı 1 manat, uzaqbaşı 1 manat 50. qəpiyə satılırdı və bundan da əhali xeyli razı idi.**

Baxmayaraq ki, sovet dönəmində bu vaxtlar pomidorun, xiyarın, kartofun bir kiloqramı 10- 15 qəpik olardı. Ötən həftə də bu barədə yazı qələmə almışdıq, bahalıqla bağlı fikirlərimizi oxucularımıza çatdırmışdıq. Təəssüf ki, aidiyyəti qurumlar süni bahalaşmanın qarşısını almaq əvəzinə, mövcud nöqsanlara göz yumdular.

Və bundan sonra görünməz qüvvələr pomidorun qiymətini yeddi manata qədər qaldırdılar. Bu dövlətə, xalqa qarşı sabotajdab başqa bir şey deyil! Bəs görəsən, İqtisadiyyat Nazirliyi bu süni bahlaşmanı görmürmü?! Görmürsə, zəhmət çəkib görsün.



**Əgər görüb tədbir görmürsə, bu daha pis! Qardaşlar, dünyanın hər yerində daxili bazar qorunur. Bizdə isə qorunmur.Kənd təsərrüfatı məhsullarının əksəriyyəti ya Rusiyaya, ya da digər xarici dövlətlərə ixrac olunur və nəticədə ölkəmizdə belə bahalıq yaranır.Bəs bunun qarşısını kim alçaq?! Belə getsə, heç kim! Bizdə belə bir deyim var:” Əvvəl evin içi, sonra çölü”. Deyəsən, evin içi yaddan çıxıb, axı!!!**

**EMİL FAİQOĞLU**



# Azərbaycanda şəxsiyyət vəsiqələrini fiziki təqdim etməyə ehtiyac qalmayacaq

**Azərbaycanda dövlət və özəl müəssisələrdə xidmətlərdən istifadə zamanı şəxsiyyət vəsiqəsinin fiziki daşıyıcısını təqdim etmək məcburi olmayacaq.**

Bu barədə Adalet.az-a İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyindən bildirilib.

Belə ki, bundan sonra vətəndaşların tələb olunan şəxsiyyət vəsiqəsi məlumatlarını "mygov" tətbiqi vasitəsilə təqdim etməsi fiziki şəxsiyyət vəsiqəsinin təqdim edilməsinə bərabər tutulacaq.

Belə ki, vətəndaş "mygov" tətbiqinə daxil olaraq rəqəmsal şəxsiyyət vəsiqəsi məlumatlarını müxtəlif üsullarla qarşı tərəflə bölüşə biləcək. Vətəndaş eyni zamanda "mygov" tətbiqində şəxsiyyət vəsiqəsi məlumatlarını nə zaman, harada və hansı müəssisəyə təqdim etdiyi ilə bağlı tarixçəylə tanış ola biləcək.

Şəxsiyyət vəsiqələrinin "mygov" üzərindən təqdim olunması müəssisələrə əməliyyatların sadələşdirilməsi və sürətlənməsi, fiziki şəxsiyyət vəsiqələrinə ehtiyacın azaldılması və kağızdan istifadənin minimuma endirilməsi kimi üstünlüklər təqdim edəcək. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi qurumların bu prosesi daha çox xidmət sahəsinə inteqrasiya




etməsinin təşviqi istiqamətində işləri davam etdirir.

Qeyd edək ki, şəxsiyyət vəsiqəsi ilə yanaşı, "mygov" üzərindən təqdim olunan nikah, doğum və ölüm haqqında şəhadətnamə məlumatları da həmin sənədlərin fiziki daşıyıcısı ilə eyni hüquqi qüvvəyə malik olacaq. Xatırladaq ki, 16 iyul tarixində Azərbaycan Respublikası Prezidenti "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1193-VIQD nömrəli Qanununun tətbiqi və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# İstintaq bitdi: "Sərxan"ın Azərbaycana casusluğu təsdiqləndi

**Ötən aylarda xəbər vermişdik ki, Ermənilərin Qarabağdan çıxmasından sonra Xankəndidə qalan Sarkis Qalstyan 7 ay sonra Ermənistana qayıtdıqdan sonra casusluq ittihamı ilə həbs olundu.**

Bu Qalstyanın həbsinin səs-küyə düşməsinin səbəbi odur ki, o qondarma "artsax respublikası"nda sıradan biri olmayıb.O, 2018-2023-cü illərdə Qarabağ işğaldaykən müxtəlif vəzifələrdə çalışıb. O cümlədən Şuşa rayon icra başçısının müavini, Hərbi Vətənpərvərlik, Gənclər, İdman və Turizm Nazirliyinin aparat rəhbəri, Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin aparat rəhbərinin müavini olub. Sonra da artsax "prezidenti"nin aparat rəhbərinin müavini işləyib. Bir sözlə, Azərbaycan Ordusu qondarma rejimə "nida"sını qoyana qədər vəzifələrdə çalışıb.

Bildiyiniz kimi Qalstyan martın 29-da Ermənistana qayıdıb, martın 30-da Azərbaycanın xeyrinə casusluq ittihamı ilə həbs edilib.

Ermənistan tərəfi Qalstyanın Xankəndidə Azərbaycan xüsusi xidmət orqanları tərəfindən "ələ alındığını" hesab edib. Ermənistan mediasında isə Qalstyanın Xankəndinin komendatı olacağına dair əsassız iddialar irəli sürülürdü. Ermənilər Qarabağı tərk etdikdən sonra Qalstyanın niyə Xankəndidə qalması şübələrlə doludur.

"Hraparak" nəşri yazırdı ki, Qalstyan ermənilərin geri qayıdacağına ümid edirmiş, bu müddətdə Bako Saakyanın evində qalıb, lakin "arzularının çin olmayacağını" anladıqdan sonra Ermənistana qayıtmaq qərarına gəlib.

Ona qarşı sürülən bu ittiham, ümumiyyətlə Xankəndidə nə işlə məşğul olması, Azərbaycanın, yoxsa Ermənistanın maraqlarına uyğun fəaliyyət göstərməsi ətrafında müəmmalar nəhayət ki, açılıb.



Adalet.az xəbər verir ki, Ermənistan İstintaq komitəsi açıqlama yayıb. Açıqlamada bildirir ki, Xankəndi sakini Sarqis Qalstyan 2020-ci ilin noyabr ayından "Sərxan" kod adı ilə Azərbaycanın xeyrinə casusluq edib: "Qarabağda hökm sürən hərbi vəziyyət və əhalinin sosial-psixoloji durumu barədə məlumatlandırılaraq, 2020-ci ilin noyabrında o, xarici dövlətin xüsusi kəşfiyyat xidmətinin əməkdaşı olan şəxslə əlaqə yaradıb. Sonuncudan casusluq etmək tapşırığını alan Qalstyan buna razılıq verib və beləliklə, xarici dövlətin xüsusi kəşfiyyat xidmətinin əməkdaşı tərəfindən işə götürülüb və bundan sonra "Sərxan" kod adını alıb".

Açıqlamada o da qeyd edilir ki, Qalstyan Azərbaycanın xüsusi xidmət orqanlarına mütəmadi xəbərlər göndərib. 2020-2023-cü illərdə Qalstyan Azərbaycanın xüsusi xidmət orqanının əməkdaşına Qarabağdakı əhali, onların əhval-ruhiyyəsi, Ermənistan və artsax hakimiyyəti nümayəndələrinin artsax məsələsi ilə bağlı mövqeləri, Ermənistandan mümkün hərbi dəstək barədə məlumatları, eyni zamanda. 2023-cü ilin sentyabr hadisələri, əhalinin ehtiyaclarını ödəmək üçün lazım olan ərzaq və digər vəsaitlərin mövcudluğu, silahlanma, silahlı hücum halında mümkün müqavimət haqqında məlumatları qarşı tərəfə çatdırmaqda günahlandırılır:"2023-cü ilin sentyabrında erməni əhalisi Qarabağı tərk etdikdən sonra Xarici Kəşfiyyat Xidmətinin əməkdaşından Xankəndidə vəzifə təklifi alan "Sərxan" həyat yoldaşı ilə birlikdə şəhərdən getməyib".

Sonrasıdaki,məlum. "Hraparak" deyib.

Axır ki, Qalstyan barəsində ittiham elan edilib, barəsində həbs-qətimkan tədbiri seçilib. Qalstyanla bağlı cinayət işi üzrə ibtidai istintaq yekunlaşıb və ittiham aktı ilə birlikdə məhkəməyə göndərilmək üçün nəzarət edən prokurora göndərilib.

**Əntiqə Aslan**

Əntiqə Rəşid



# Boşanmaların əsas səbəbkarları fəhlə balalarıdır, ya da...

Dövlət Statistika Komitəsi yenə bir maraqlı məlumat yayıb. Yazır ki, cari ilin ilk beş ayı ərzində 17448 nikah və 8795 boşanma halları qeydə alınıb.

Yəni ki, çaşıb evlənənlərin yarıdan çoxu ayrılıblar. Ailəliklərini davam etdirməyə gücləri çatmayıb.

Bəli, bütün valideynlərin arzusudur ki, övladı ailə qursun, xoşbəxt yaşasın, nəsli tükənməsin , nəvə sahibi olsun! Bu arzuya qoşulmayan valideyn təsəvvür etmirəm. Üzərinə düşəni edən valideynlər, oğlu üçün elçi gedir, nişan aparır, toy edir, bütün dost -tanışı çağırıb hamını sevincinə şərik edir. Amma elə həmin gün sevincləri qursaqlarında qalır.

Məlum olur ki, restoran onların toydan əldə etdikləri "nəmər"in ən azı 60 faizinə şərikdir. Qeyd edim ki, restorana borclu qalan toy sahiblərinin müsibəti ilə bağlı xəbərlərə dəfələrlə rast xəlmişik. İstər mediadan, istər gündəlik həyatımızda. Bəli, hər toy sahibinin işi deyil ki, restorana borclu qalmadan toyu başa vursun!



Yeri gəlmişkən, binamızda bir ailə var Ata qaynaqçıdır. Fəhlədir. İki otaqlı mənzildə özü, həyat yoldaşı və birqız, bir oğlan övladı ilə birgə yaşayır. Oğulun səhv etmirəmsə 28 ya 29 yaşı var. Şahidəm Aprel döyüşlərinin iştirakçısı olsa da , heç veteranlığı da yoxdu. Ala bilməyib.

Bakı Biznes Universitetinin maliyyəyə aid fakültəsinə öz biliyi ilə daxil olub və oranı əla qiymətlərlə bitirib. Ailə oğula böyük ümidlərlə baxırdı. İşləyəcək , yaxşı maaş alacaq özünə ev, maşın da qazanıb ailə quracaq.

Ailənin arzuları o zaman suya düşdü ki, oğul 10-larla "sivi" göndərdiyi şirkət və dövlət müəssələrinin heç biri onu yaxına buraxmadı.

2 ili ancaq ixtisasına uyğun iş axtarmaqla keçirdi. Sonda anladı ki, "yuxarda" adamı, tapşıranı olmasa heç vaxt istdiyi işi tapa bilməyəcək və nəhayət artıq əvvəllər qürur və sevinc verən indi isə kədərdən başqa heç nə ifadə etməyən diplomunu atıb evin bir küncünə! Hazırda hansısa tikinti briqadasında suvaq çəkmək, hörgü hörmək sənətinə yiyələnir. Ailə məlul, övlad məlul. O gün anasından soruşuram ki, toy etmirsiniz, gələk toya, qadın övladının əziyyətindən necə danışdısa, sual verməyimə peşman oldum. Deyir düz 4 il ancaq qələm-dəftər, kompyüterə öyrənmiş əllər qabar-qabardı:"Evlənmək adı gələndə sstres keçirir, deyir mama, gəlini hara gətirəcəyik?O gəlinin geyiminə, gecimінə, qızıl və bəzək əşyalarına, nişanatoya hansı pulu xərcləyəcəyik?".

Düzdür, hər oğul belə düşünmür, evləndikdən sonra "ağlı başına gəlir", onda qərara gəlir ki, işim yox, gücüm yox, ailəni necə saxlayacağam? Hələ bir uşaq doğulursa... Doğulanda xəstəxanalardakı böyük problemlər, doğulandan sonrakı pampers, yemək problemi.

Bu düşüncə və qənaətdən sonragənc ailələrin "ailəlilklərinin soyqırımı" başlayır.

Statistika Komitəsi sonra da bildirilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,6-dan 4,1-ə, boşanmaların sayı isə 2,2-dən 2,1-ə düşüb..

Bu o deməkdir ki, gənclərin ümidləri ötən ilkinə nisbətdə bu il daha bərbad şəkil alıb. Ailəlik dönəmi daha ağır məişət çətinlikləri ilə qarşı-qarşıya qalıb.

Bunu deməsəm ürəyim partlayar: Musavat.com saytı sabiq nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov haqqında yazdığı bir araşdırma qarşıma çıxdı. Xəbərdə deyilir ki, hələ gənc yaşındaykən ayı əti yeməsi iddiası ilə aylarla gündəmdə olan Anar indi də dillərdə dastandı. Yəqin , yadınıza gəlir, Qəbələdə restoranların birinin həyətində saxlanan ayını böyük məbləğdə pul ödəyərək, kəsdirmiş, ətindən kabab bişirtdirərək, dostları ilə yemişdi. Həmin o Anarın, sabiq nazirin oğlunun İngiltərədə 20 restoranı və 30 milyon dolları aşan daşınmaz əmlakı üzə çıxıb. Belə bir ailədə məişət problemləri , zorakılıq halları ola bilərmi? Qətiyyən!

Hələ ötən il Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri, hüquq üzrə fəlsəfə doktoru Elgün Səfərov deyib ki, ailələrin boşanmasının əsas səbəbi zorakılıqdır" İkinci yerdə qərarlaşan səbəb sonsuzluqdur və son illərdə aktual problemlərdən birinə çevrilib. Üçüncü səbəb alkoqol və narkotik asılılığıdır.

Dördüncü səbəb xəyanət, qısqanclıqdır. Ümumi səbəblərə baxdığımızda isə görürük ki, boşanmaların səbəbi patriarxal stereotiplərdir ki, bunlar məişət zəminində zorakılıq kimi problemlərə səbəb olur ".

Sən Allah, biri ordan hüquq üzrə fəlsəfə doktoru Elgün müəllimə desin ki, evdə adi məişət çətinlikləri ilə yüklənmiş, gündəlik tələbat mallarını yoxsulluq ucbatından ala bilməyən, adi insani tələbatlarını ödəmək üçün, kasıbyana yaşamaq üçün normal iş yeri olmayan, ildə bir dəfə adam kimi istirahətə gedə bilməyən, yatanda yuxusunda, oyananda gerçəklikdə problemlərlə əlləşən, sevdiyi qadının, canından çox istədiyi övladının yanında başıaşağı olan gənc ailə başçısını düşünün! Sonra da uzun müddət bütün çətinliklərə susan, görməzdən gələn gənc qadının "partlama" kuliminasiyasını düşünün! Bu qarşılıqlı ittihamlara, təhqirlərə, zorakılığa gətirib çıxaran hal deyilmi? Niyə birinci zorakılığı var edən səbəbləri yox, zorakılığı səbəb göstərirsən?

Sizcə, Anar Məmmədov kimi lüks həyat keçirən bir ailədə zorakılıq, "partlama", boşanma ola bilərmi? Qaynaqçıların, fəhlələrin, yuxarıda "adam"ı olmayanların övladlarının məhv olduğuna susub, boşanmaların gün-gündən artmasına göz yumub, Azərbaycanda vaxtilə ən güclü Ailə insitutunun son çırpıntılarınımı seyr edək?

Bəs, bu problemin həlli üçün addım atan olmayacaqmı? Gənclərin baş götürüb Azərbaycandan qaçması, qızlarımızın müxtəlif xoşagəlməz yollarla özünə güngüzaran yaratmasının günahını kimdə görək?

***P.S.** Ötən il mediamız SOS siqnalı çalırdı ki, Azərbaycanda boşanma halları rekord həddə çatıb. SK-nin indi ki rəqəmlərinə baxanda görünür ki, vəziyyət rekordun, rekordunun, rekordunu keçib.*



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# DOĞMA ADAM

## Yazıçı-publisist Əlövsət Bəşirlinin 85 yaşına

Belə bir deyim var: Həyat - səhnədir! Mən bu deyimin kimə məxsus olduğunu indi xatırlamıram. Amma az qala 10 günə yaxındır ki, tez-tez xatırlayıram bu deyimi. Təbii ki bu da səbəbsiz deyil. Çünki gözümün qabağına yaşadığım həyatı gətirirəm, başıma gələnləri xatırlayıram və həmin anda öz-özümə sual verirəm:

- Bütün bunların özümdən başqa kiməsə bir dəxli varmı? Kimsə bundan iynə ucu boyda təsirlənibmi? Kimsə buna bir əks-səda veribmi? Və nəhayət, kimsə bunun necə bir yaşam olduğunu hiss edibmi?

Bax bu suallar ayrı-ayrılıqda cavabı ilə birlikdə böyük bir mövzudu, lakin bütünlükdə mənim həyatımdı və eyni zamanda da mənim tamaşaçı kimi oturub baxdığım səhnədi. Orda baş verənləri təkrar yaşamaq həm ağırdır, ikiqat acıdır, amma həm də bu günə şükürlər üçün bir dayaq nöqtəsidir, güvəncdir. Deməli, bütün bunların da ən maraqlı məqamı məhz əvvəldə səsləndirdiyim sualların birinə söykənən bir gerçəklikdir. Həmin sual da mənim yaşamımın ifadəsini qələmində, sözündə oxucuya çatdıran bir ağsaqqal dostumun həm bədii, həm də gerçək anlamda yanımda olmasıdır. Yəni barəsində indi yazacağım müqtədir qələm sahibi, yazıçı-publisist Əlövsət Bəşirlinin mənim həyatımı ədəbi müstəviyə gətirən "Gecə döyülən qapılar" sənədli-publisist yazısıdır...

Bu gün ailəvi dost olduğum yazıçı-publisist Əlövsət Bəşirlini əvvəllər mən ancaq imzası ilə tanımışdım. Və təbii ki, bütün tanıdığım imzalar içərisində olan bu imzada bir sanbal var idi, çəki var idi. Oxuyanda hiss edirdim ki, sözün, qələmin sahibi həyatın içindən çıxıb bərkə-boşa düşməyin, sözü qəlpə-qəlpə cümləyə çevirməyin bütün qaydalarını bilir və keçib gəlib onlardan. Ona görə də oxuduğum publisist yazıları, məqalələri məndə bir əminlik yaratmışdı. Bu əminlik də Əlövsət Bəşirli imzasının və sözünün gerçəkliyi ifadə etməsi, fantaziyadan daha çox, yaşanmış həyatın inikası olması idi. Və...

"Ədalət" qəzetində bir yazı yazmışdım özüm haqqında, yaşadıqlarım barəsində. Orda yazmışdım ki:

*Yandı evim-eşiyim,*
*Yandı divarım-daşım...*
*İsit, qoyma üşüyüm,*
*İsit məni, göz yaşım.*

Bəli, həmin yazını bu gün adını fəxrlə çəkdiyim, ruhuna dualar oxuduğum görkəmli yazıçımız Nahid Hacızadə oxuyub mənə zəng etdi:

- Mədətoğlu, düş yanıma.Və mən də başımı aşağı salıb düşdüm Nəşriyyatın 5-ci mərtəbəsində Nahid müəllimin iş otağına. Onunla üzbəüz bir nəfər oturmuşdu. Çöhrəsi mənə tanış gəldi. Hardasa gördüyümü düşündüm. Nahid müəllim məni həmsöhbətinə təqdim etdi:

Əlövsət, Mədətoğlu həm də yaxşı şairdi. Bəxtiyar Vahabzadə ona çox yüksək qiymət verib, - dedi.

Tanımadığım bir şəxsin yanında bu cür tərif, təbii ki, biraz məni sıxdı. Amma Əlövsət adı yaddaşıma işıq saldı. Xatırladım Əlövsət Bəşirlini. Bax beləcə başladı bizim üzbəüz tanışlığımız. Nahid Hacızadə bizim dostluğumuzun özülünü qoydu. Həmin özül üzərində Bəşirli ailəsi ilə dostluq, bir-birinə ehtiram və etibar boy göstərməyə başladı. Ən vacibi isə həmin ailənin çox incə ruhlu yazarları Dilarə xanım Vəkilova Bəşirli və bir də Aynur xanım Bəşirli artıq mənə yeni yaradıcılıq imkanları üçün bir növü yardımçı oldular. Çünki Di-



larə xanımın yazılarım barəsində fikirləri, təklif və iradları bir oxucu və redaktor yanaşması idi. Təbii ki, bu da məsuliyyət deməkdir.

Həmin o görüşdən sonra Əlövsət Bəşirlinin "Ədalət" qəzeti ilə canlı ünsiyyəti demək olar hamıya sirayət etdi. İstər operatorumuz Gülər xanım, istər dizaynerimiz Şamxal bəy, istərsə digərləri Əlövsət Bəşirlinin redaksiyamıza gəlişini həmişə açıq üzlə, xoş ovqatla gözlədilər və qarşıladılar. Çünki Əlövsət Bəşirli redaksiyaya müsbət aura gətirirdi. Onun təması, irad və təklifləri, hətta "balalarım" deyə müraciəti hamı üçün səmimiyyətin gül çələngi idi. Bir gün də Əlövsət müəllim telefonda mənə dedi ki, Mədətoğlu, yaman kövrəltmisən məni. Bu şeirin çox düşündürür. Deyəsən, nəsə yaranır içimdə. Həmin şeiri təkrar dedi mənə telefonda:

*Qayğılı çəkdiyim, dərdli çəkdiyim,*
*Bu boyda Bakıda dərddi çəkdiyim!*
*Mənim azadlıqda şərti çəkdiyim -*
*Cəzanın adını çəkənlər bilər!*

- Mədətoğlu, nə çəkdiyini, qaçqınlığın, yurdsuzluğun sənə nə yaşatdıqlarını ürəyimə od sala-sala hopdurursan mənə. Hər şeydən məlumatım var. Ermənı azğınlığını da, Xocalı faciəsini də, Qaradağlı qətliamını da bilirəm, mətbuatdan da, efirdən də, tanış-bilişdən də eşidib öyrənmişəm. Amma sən bütün bunları öz yazılarınla, söhbətlərinlə sanki mənə diqtə edirsən. Elə bil əlimdən tutub məni doğulduğun Tuğ kəndinin məhəllələrində gəzdirirsən. Ermənilərin harda güllə atdığını, harda pusqu qurduğunu göstərirsən mənə. Artıq bütün bunlar mənim masamın üstündəki vərəqlərdə qeydlərə çevrilib. Yaxın günlərdə sənə ithaf etdiyim və sənin həyatından bəhs edən "Gecə döyülən qapılar" sənədli-publisist oçerkimi redaksiyaya təqdim edəcəm.

Bu xəbər məni bir anlıq çaşdırdı. Deməyə söz tapmadım. Hiss etdim ki, gözümün dibində şeh var. Ürəyimin döyüntüsü də biraz dəyişib. Toparlandım. Sadəcə təşəkkür etməyə söz tapa bildim. İçimdə isə o yazını oxuyacağım günün daha tez gerçəkləşməsi diləyi duaya çevrildi. Çox qısa zamandan sonra redaksiyada həmin əlyazmanın ilk oxucusu oldum. Bax onda bir daha Əlövsət Bəşirlinin bir yaradıcı insan olaraq nə qədər böyük diapazonda diqqətcilliyi, həssaslığı mənə bəlli oldu. Anladım ki, Əlövsət müəllim mənim yazılarımı oxuyanda, biz birlikdə olanda etdiyim söhbətləri, danışdığım xatirələri, döyüş bölgəsində yaşayan doğmalarımla əlaqələrimi, bir sözlə, bir nəfərin timsalında bir kəndin, bir elin həyatını özü üçün hər gün söz-söz cümlələrə çevirirmiş, qeydlər aparırmış. Ona görə də "Gecə döyülən qapılar"dakı yaşam reallığı yazıçı təxəyyülünün məhsulundan daha çox yazıçının reallıqdan götürdüyü mövzunun özüdü. Əlövsət müəllim bir yazıçı kimi həm də bu əsərində rəssamlıq edib, portret cizgilər çəkib. Mənim həyatımın cizgilərini...

Bu gün 85 yaşı olan Əlövsət Bəşirlinin təkcə yaradıcılığını yox, həm də bir Azərbaycan İNSANI olaraq şəxsi həyatını, əmək fəaliyyətini, dostlarını, demək olar ki, bütünlüklə tanımışam, öyrənmişəm. Tutduğu ən yüksək vəzifələrdə belə hamının tanıdığı, sevdiyi kimi qalan, dəyişməyən, heç vaxt hansısa bir vəzifədə kimlərəsə tapşırıq verdiyini və yaxud hesabat tələb etdiyini dilinə gətirməyən Əlövsət müəllim adi həyatda da, müxtəlif məclislərdə də, eyni formada, məzmunda qalan insandır. Bir az da açıq desəm o, heç bir halda dəyişmir, necə var elə də qalır. Mən 85 illik yubiley ilə bağlı içimdə olan müəyyən fikirləri, barəsində eşitdiklərimi və sözün verdiyi imkana söykənib hansısa pafoslu sözləri, cümlələri bu yazıya gətirə bilərdim, amma Əlövsət müəllimin, eləcə də Dilarə xanımın gözümün önündə olan sadəliyi, səmimiliyi məni bu fikirdən daşındırdı. Çünki səmimiyyət və sadəlik yarınmaq və yaxud pafos sevmir. O, olduğu kimi görünür və göründüyü kimi də olur. Əlövsət Bəşirlinin bu həyatda dostlarına bağlılığı, ailəsinə güvənci, qələmlə, sözlə yaşaması mənə imkan verdi ki, ikicə cümlə yazım:

- Əlövsət müəllim, Sizi tanımaq, oxumaq və dostunuz olmaq mənim üçün böyük şərəfdir. İstərdim ki, hər zaman telefonunuzdan gələn zəng "Mədətoğlu, hardasan?" - deyib qayğılardan, xəyallardan ayırsın məni. Və mən Sizinlə itirdiklərimizi xatırlaya-xatırlaya sabahkı günlərimizin yazılarından danışım. 85 yaşınız mübarək, doğma adam!

---

Jalə Quliyeva,
BSU-nin tələbəsi



# Həyat ağ işıqdadır...

Yadımdadır, 2018-ci ilin baharı idi. O vaxtlar hər şeyin necə asan olduğunu düşünərkən ətraf məsum görünürdü. Uşaqlıq çağlarının bir aləm olduğuna inanırdıq. Yəni, ən azından mən inanırdım. Sehirli evlər, insanların acılı-şirinli həyatları, təbiət gözəllikləri, dünya cizgi filmlərini xatırladırdı.

Orta məktəbdə oxuyanda ekskursiyalara bütöv siniflə getmək bizim ən böyük arzularımızdan idi.Yolumuz böyük bəstəkar,yazıçı, publisist, görkəmli söz sərrafı Üzeyir Hacıbəylinin ev muzeyinə düşmüşdü. Biz başqa cür təsəvvür etsək də,sanki möcüzələr aləmində idik.. Böyük mütəfəkkirin musiqisinin ecazkarlığı bizi ovsunlamışdı. Ekskursiyadan dönəndə tarix müəllimimiz Leyla xanım ana ma bir söz demişdi:

-Nə qədər ki, qızınız xasiyyətini dəyişməyəcək, həyatda kimlərisə itirəcək...

Bu sözü yaşa dolduqca bəzən səbəbsiz, bəzən səbəbli insanlardan uzaqlaşdıqca daha yaxşı anlayırdım. Əslinə qalsa, xasiyyətimi dəyişmək üçün yeni insanları tapmağa çalışırdım. Amma çox vaxt müyəssər ola bilmirdim.

Yeni tanışlar istər-istəməz bir iz qoyub gedirlər. Bəziləri insanda çox dərin yaralar açır, bəziləri də xoş xatirələr olaraq yaddaşlara həkk olunur. Sevgidə itirmək, dost itirməkdən əslində çox acıdır, dostlar bəzən yaxın olur, bəzən də ötəri münasibət göstərirlər. Amma sevgi insanların könüllərində yaranır, qəlblərdə öz abidəsini ucaldır. Sevgini isə qazanmaq nə qədər çətindirsə, itirmək o qədər asandır. Bəzən düşünürəm, doğrudanmı xasiyyətimi dəyişmək üçün çaba sərf etməliyəm. Bəlkə də qarşımdakı şəxslə anlaşa bilmirəm. Amma, bunu zamanında anlamaq olmur. Yaxşı deyiblər ki, çox vaxt sevginin gözü kor olur.

Universitetdə tələbə adı qazanandan sonra tez-tez düşüncələrə dalırdım. Axı mən jurnalist ixtisasını seçmişdim. İnsanları öyrənmək, onların düşüncələrini, qəlbimin döyüntülərini arayıb-axtarmaq, duymaq və bir insan kimi çətin anlarda onların yanında olmaq arzusu mənimlə həmişə yol yoldaşı olub.Bəzən düşüncələr məni ağuşuna alır, doğrudan da xasiyyəti dəyişmək üçün çox meyarlara fikir vermək və hətta bəzən istəyindən də məhrum olmaq lazım gəlir.

Bəzi xarakterik xüsusiyyətləri həyatımda dəyişməyə qərar verdim. Öyrənməyə çalışdım. Düşünürəm ki, insan kimlərdənsə asılı vəziyyətdə yaşamağa davam etsə, bir o qədər çökər...

Romantik tələbəlik illərində həyatıma biri varid oldu. Əslində hələ də həyatımdadır.Amma soyuqluq olsa da, düşünürəm ki, məhz mənim səhvimdir. Keçmişdən gələn xasiyyətimin cücərtiləri bəlkə hələ də qalmaqdadır. Xasiyyətimi yaxşılığa dəyişmək, insanlarla səmimi ünsiyyətin yollarını aramaq mənim üçün ən zəruri məsələ idi. Mən necə olmaq istədiyim xarakterik xüsusiyyətləri misqal-misqal yaradırdım. Xəyalımda təsəvvür etdiyim kimi olmaq, əlbəttə çox çətindi.

Artıq insanları tez tanımağa alışdım.Onların münasibətlərini araşdırmaq, əsl niyyətlərini dərindən anlamaq lazım idi. Bu gedişlərdə hətta bəzilərindən tezliklə kənarlaşdım.

Çünki, gündəlik dostlardan hesab olunurdular. İnsanları mənən tanımadan isə sevmək, qəlbən yanaşmaq doğru deyil... Çünki sevginin istəklə fərqi çoxdur.Bilmirsən, pisdirmi, yaxşıdırmı. Elə sadəcə istəyirsən ki, səni duyub qarşılıqlı münasibəti doğrultsun.

Xarakterlərin nizamladığı çox cəhətlər mövcuddur. Mən həyatda düzgün yolu tutmağı, onu illərin yolayrıcında tanıyıb-seçməyi qarşımda bir vacib məsələ kimi qoydum. Yəqin etdim ki, ən əsası onun qibləgah seçdiyi ata-anasının,bir köynək əziz olan insanların dəyərli məsləhətlərini mütləq əsas tutmalısan. Milli-mənəvi əxlaqi dəyərlərimiz həyatda müvəffəqiyyətlərimizin, qazandığımız yaxşı cəhətlərin, gələcək ailə həyatımızın xoşbəxtliyinin məhək daşıdır.

Sədaqətli insanlar, müqəddəs bildiyimiz müəllimlərimizin və səmimi münasibətli rəfiqələrimizin məsləhətləri, dəyərli fikirləri dövr-zamanın, ziqzaqlı dünyamızın gənclik çağında həyatın düz yollarını seçib,o müqəddəs arzulara doğru yön almalısan.Çünki dolanbac yollar səni çiçəkli çəmənliklərə, dağ zirvələrə aparar ya da ki, məhv edər. Ona görə də yolayrıcları həyat, ölüm qoxuludur. Gərək, əqidəndən heç vaxt dönməyəsən. Həyat ağ işıqdadır...

# ÜRƏYİMİN ÜMİD YERİ

**Əlimi gözlərimin üstünə günlük eləyib çox-çox uzaqlara baxıram. Baxdıqca da qəribə hisslər keçirirəm. Açığını deyim ki, hətta ürəyim elə sıxılır ki, onun bu dəqiqə partlayacağına, bu an susacağına qəribə bir inam yaranıb içimdə. Sanki kimsə sıxır ovcunun içində ürəyimi - partlatmaq, öldürmək istəyir. Bilmirəm niyə? Amma tam əminəm ki, o çox-çox uzaqlar mənə bu gündən, bu andan daha çox-çox yaxındı, daha doğmadı. Görünür, elə o doğmalığın, o yaxınlığın bu qədər uzaq olması sıxır, öldürür məni. Amma sıxılmaq istəmirəm. İnanın ki, səmimi deyirəm. Bu məqamda, bu yerdə sıxılmaq, ürəyimin partlayıb parampərça olması heç istəmədiyim, arzu etmədiyim bir şeydi. Bilirsiniz niyə?..**

Hə, onda, indi xatırlayacağım o tarixdə çalışdığım "Təşviqatçı" jurnalına ezamiyyətə göndərilmişdim. Bu mənim müxbir kimi ilk ezamiyyətim idi. O vaxta qədər bir həvəskar kimi müxtəlif qəzetlərdə, jurnallarda məqalələrim çap olunmuşdu, şeirlərim işıq üzü görmüşdü. Hətta efirin, ekranın da qonağı olmuşdum. Amma cibində vəsiqə, əlində ezamiyyət vərəqəsi olan bir müxbir kimi mən ilk dəfə qapı döyürdüm. Bunu mənə tapşırıq kimi vermişdilər və mən də böyük həvəslə o tapşırığı icra etməyə getmişdim. Özü də mənə doğma olan bir ünvana - Füzuli rayonunag

O vaxtlar sovet dönəmi idi və mənim danışdığım, daha doğrusu, xatırladığım tarix də 1991-ci il idi. Füzulidə, daha doğrusu, SSRİ-nin hər yerində olduğu kimi, bu rayonda da rəhbər orqan rayon Partiya Komitəsi idi. Təbii ki, rayona gələn qonaq da ilk növbədə raykoma gedirdi. Burda qarşılanır, gəlişinin məqsədi öyrənilir və buna müvafiq qaydada rəhbərlik tərəfindən müəyyən razılaşdırılmış proqram cızılır və qonaq da rahatlıqla öz işini görüb geri qayıdırdı...

Mən də raykoma getdim. Onda raykomun təbliğat və təşviqat şöbəsinin müdiri vəzifəsini ixtisasca jurnalist olan mərhum Kərəm Hətəmov idi. Çox səmimi insan, mətbuat işçilərinə qarşı diqqətli olan Kərəm müəllimlə xeyli söhbət etdik.

Raykomun birinci katibinin tapşırığı ilə o, mənim gəlişimin məqsədini, məramını öyrənib bir neçə təşkilatın adını çəkdi. Məsləhət gördü ki, bu təşkilatlarda olub istədiyiniz mövzunu yaza bilərsiniz. Və söhbət əsnasında onu da söylədi ki, rayonda yeni xəstəxana binası tikilib. Hələ tam istifadəyə verilməsə də, amma artıq buraya üz tutanların sayı günbəgün çoxalır. Hətta qonşu rayonlardan da bizim həkimlərin yanına gələnlər var.

Bu təqdimat məndə öncə həmin xəstəxanaya baş çəkmək marağı yaratdı. Onun razılığı ilə birlikdə yeni tikilmiş rayon xəstəxanasına yollandıq. Mərkəzi xəstəxananın baş həkimi, həm də səhiyyə şöbəsinin müdiri olan Tapdıq həkimlə onun iş otağında görüşdük. Bu mehriban insan bizi qarşılayıb bir qədər söhbət etdikdən sonra düyməni basıb katibəsini yanına çağırıb soruşdu:

- Öyrən gör, Rafiq həkimin yanında xəstə var, yoxsa boşdu?

Bir qədər sonra katibə içəri qayıdıb bildirdi ki, Rafiq həkim yerindədi... Baş həkim əvvəl Kərəm müəllimə, sonra mənə baxıb "gedək, bizim partkomla da söhbət edək" - dedi. Biz xəstəxananın yeni korpusunun 3-cü mərtəbəsinə qalxdıq. Səliqə-səhman, divardakı stentlər dərhal diqqəti çəkirdi. Mən stentlərdən anladım ki, biz kardioloji şöbəyə gəlmişik. Elə şöbənin girişində də həmin təqdimatı oxudum. Dəhlizdə ağ xalatlı, orta boy, cavan bir oğlan xəstə ilə ayaqüstü söhbət edirdi. Bizi görəndə həmsöhbətindən üz istəyib bizə tərəf addımladı. Tapdıq həkim dedi ki, bu da bizim ürəyimizin həkimi, həm də partkomumuz - doktor Yusifov!

Beləcə, tanış olduq. Rayonda, kənddə olanda adını eşidib üzünü görmədiyim Rafiq həkimlə ilk ezamiyyətdə bir jurnalist-həkim söhbəti dialoqu yaşadıq və mənə sanki çox müsbət bir enerji bağışlandı. Özüm də bilmirəm nədənsə burda, bu adamların arasında, xüsusilə Rafiq həkimlə xəstələr müalicə olan otaqları gəzə-gəzə etdiyim söhbət əsnasında onu təkcə həkim kimi yox, həm də insanın içini gö-



rən, insana bir müsbət enerji bağışlayan insan kimi tanımağa, sevməyə başladım. Bu sevgi elə həmin o gündən bir ümid ağacı kimi içimdə göyərməyə başladı. Və bir gün baxıb gördüm ki, bu ağac çox qollu-budaqlı, çox nəhəng bir xan çinardı! Ona söykənib, ona sığınıb, ona güvənib və hətta onunla nəfəs alıb yaşamaq mümkündü - necə ki, mən yaşayıram...

Füzulili günlərim mənim üçün bir neçə məqamla və bir neçə adamla elə yaraqlanıb, silahlanıb, elə doğmalaşab, elə bənzərsiz olub ki, mən onu heç cür ifadə edə bilmirəm. Çünki o günləri mən öz canıma-qanıma Vahid Əlifoğluyla, Vəzir Hacıyevlə, Sabir Rüstəmovla, Kərəm Hətəmovla, Vaqif Mehdiyevlə, Mətləb Misirlə, Məcnun Namazəliyevlə,Oktay Əliyevlə, Umud Rəhimoğluyla, Oruc Sədayla, Dilavər Əliyevlə, Camal Ocaqverdiyevlə, Nəbi Muxtarovla,Aslan Mehdiyevlə, Sulduz Quliyevlə, Tapdıq Behbudovla, Telman Qasımovla, Elman Məmmədovla, Süleyman Qaradağlıyla, Mahmud Qacarla, Rafiq İbrahimovla və daha kimlərlə hopdurmuşam. Bu insanların hər biri mənim üçün bir parça Füzuli torpağı olub. Mən də o torpağa güvənib, o torpağı bağrıma basıb neçə dərdin-sərin kürəyini yerə vurmuşam, neçə ağrıya-acıya qalib gəlmişəm və qucaq-qucaq sevinc qazanmışam...

Bəlkə də bütün bu yazdıqlarım sizə pafoslu görünə bilər. Düşünərsiniz ki, bu adamlar hansısa bir vəzifənin, hansısa bir biznesin sahibidilər və mən də onlara yarınıram, onlara xoş gəlmək üçün bər-bəzəkli, təmtəraqlı sözlər axtarıb tapıram. Xeyr, yanılırsınız. Əlimi ürəyimin üstünə qoyub bütün səmimiyyətimlə deyə bilərəm, hətta and içə bilərəm ki, o adamların bir çoxu artıq Tanrı dərgahındadı, bir qismi təqaüddə. Necə deyərlər, nəvə-nəticə ilə ömrün qalan hissəsini yola verirlər. Amma bütün bunlara baxmayaraq, o adamlar mənim içimdədi, mənim ürəyimdədi. Mənim dünənim və bu günümdü, hətta yaşaya bilsəm sabahımdı. Çünki onlar mənim üçün bir parça Füzulidi.

Rafiqlə mənim həmin o çox-çox uzaq illərdən başlayan tanışlığımız iki insanın bir-birinə candan, könüldən bağlılığının bütün sərhədlərini bir araya gətirdi. Biz sözsüz, görüntüsüz və hətta müəyyənləşdirilməsi qeyri-mümkün olan bir sərhəddin, yəni dostluq, qardaşlıq sərhəddinin içərisində özümüzün insanlıq yükümüzü, özümüzün doğmalıq missiyamızı yaşada və daşıya bildik. Bu gün də yaşadıb və daşıyırıq.

O yük, o missiya ailəmizə, övladlarımıza keçdi, indi nəvələrə keçmək üzrədi. Həyatımdakı, iç dünyamdakı adamlardan Rafiq tək onunla fərqlənir, onunla diqqət mərkəzində olur ki, o, qaçqınlığın ilk anında qapılarını mənim ailəmin üzünə açdı. Evinin açarını masa üzərinə qoyub:

- Bu gündən oldu sənin. Buyurun, yaşayın!

Biz o gündən ikinci bir ev qazandığımızı ailəlikcə anladıq. Bildik ki, bizim dağılan evimizin əvəzini bizə bağışlayan, bizə qaytaran dostumuz var. Zaman keçdi, bu dostluğun möhkəmlənən təməli bir gün mənə xatırlatdı ki, ürəyinin də açarı dostundadı. Və o, mənim dərk etdiyim, mənim həkim kimi qapısını döyüb şikayətimi söylədiyim an özünəməxsus bir təbəssümlə dilləndi:

- Qağa, sənin ürəyin çoxdan müalicəyə ehtiyac duyur. Düzdür, hər görüşümüzdə, söhbətimizdə mən müəyyən məqamlarda sənə nələrisə çatdırıram. Sağ ol, sən də söylədiklərimdən nəticə çıxarıb dediklərimə əməl də edirsən. Amma indi yaşın elə dövrüdü ki, ürəyə mütləq diqqət yetirməlisən. Onunla zarafat etmək olmaz.

Və beləcə başladı ürəyimin müalicəsi. Doktor Rafiq indi dostdan, qardaşdan bir addım da irəli getdi. O mənim və doğmalarımın həkimi oldu. Ürəyimi nəzarətə götürüb onun ritmini saxlamağa, onun ömrünü uzatmağa bir loğman kimi yardım etdi. Artıq neçə ildi ki, ürəyim doktor Rafiqin himayəsindədi.

Mən ona o qədər inanıram ki, hətta digər həkimlər ciddi görkəm alanda, müayinədən sonra sükuta dalanda onun etdiyi telefon zəngi mərhum şairimiz Əli Kərimin təbirincə desək, "salam, ölüm!" sədasını, onun yaratdığı auranı bir andaca məndən qovub uzaqlaşdırır. Sanki üstümə gün doğur, nəfəsim genişlənir, ürəyimin sızıltısı azalır.

Çünki mənə güvəndiyim, ümid yerim olan xan çinar kimi bir dost - Rafiq həkim əl uzadır!

Bəli, bir həkim, bir insan kimi son dərəcə sadə, son dərəcə mehriban və mənə elə gəlir ki, qədərindən də artıq təvazökar olan Rafiq Yusifov təkcə mənim yox, həm də işğal olunmuş bölgələrdən, xüsusilə Füzulidən, Cəbrayıldan, Xocavənddən onun ünvanına gələn hər kəsə qarşı son dərəcə səmimi və diqqətcildi. Çalışdığı xəstəxanaya bu bölgənin adamları onun adını tutub gəlirlər. O da bacardığı kimi məsləhətini verir, yardığımını göstərir. Hətta öz gücündən, öz imkanından artıq olan işlərin də necə çözüləcəyi barədə fikirlər də söyləyib, ünvanlar da göstərib. Onun məsləhəti, onun tövsiyəsi mütləq və mütləq köməyə çatır. Çünki o, həqiqətən loğmandı.

**Bəzən deyirlər ki, insan daha çox həssaslığın, səmimiyyətin ağrısını-acısını yaşayır. Çünki bu hiss birbaşa ürəyə aiddi. Ürək həssas olduqca ağrısı da çox olur. Bu mənim gəldiyim ən böyük qənaətlərdən biridi. Mən Rafiq həkimin ürəyinin də ağrılarının şahidiyəm. Amma o, öz ağrılarını ovutmağı başqalarının ağrılarını müalicə etməklə sakitləşdirir. Axı o, ürək həkimidi!..**

**Əbülfət Mədətoğlu**



*Elxan Şükürlü*

# 14 ƏSRİN SÖNMƏYƏN İŞIĞI...

**Sabah (yəni, bu gün 16 iyul) Kərbəla faciəsinin - Peyğəmbərimizin (s.ə.s.) çox sevdiyi, müsəlmanlara da hörmətini saxlamağı vəsiyyət etdiyi sevimli nəvəsi Həzrəti Hüseynin və doğmalarının amansızlıqla qətlə yetirilməsinin növbəti ildönümüdür.**

**Düz 14 əsr - 1344 ildir ki, müsəlmanlar bu faciəni onun ağrısını təkrar yaşaya-yaşaya, ancaq həm də böyük bir qürur və iftixar hissiylə anır, qeyd edirlər.**

**Üstəlik, ilk vaxtlar çox gizlicə və məhdud sayda insanın iştirakıyla qeyd edilən bu faciənin ildönümünü indi dünyanın hər yerində milyonlar böyük yanğı, coşğu və sevgiylə anırlar. Hər il də bu say arta-arta gedir, coğrafiya genişlənir, heç bir qadağa, təzyiq də bu əzəmətli dalğanın qarşısını ala bilmir!**

**Bilirsiniz, niyə?**

**Çünki dünyada ədalətsizliklər, qeyri-bərabərliklər və zülm artdıqca, ona paralel şəkildə də Kərbəlada yaşananlar araşdırıldıqca, öyrənildikcə, bu hadisənin təkcə İslam tarixində deyil, ümumiyyətlə, bəşəriyyətin mübarizə tarixində necə böyük və örnək bir nümunə olduğu daha yaxşı dərk edilir, anlaşılır!**

**Artıq Həzrəti Hüseynin həyatı, əxlaqı, davranışları, zalıma boyun əyməmək və ideyası uğrunda ölümə yürümək örnəyi təkcə zülm və zorakılığın yayılıb artdığı Yaxın və Orta Şərqdə - İslam coğrafiyasında deyil, ədalətsizliyin və haqsızlığın olduğu hər yerdə, o cümlədən xristian Qərb dünyasında, hətta buddistlərin çoxluq təşkil etdiyi Çin və Hindistanda belə, böyük maraq və həvəslə araşdırılır, öyrənilir, tədqiq edilir.**

**Hər il Kərbəla hadisəsinə, onun qəhrəmanlarına həsr olunmuş, bu hadisəyə müxtəlif baxış və rəyləri əks etdirən nə qədər kitablar, məqalələr yazılır, filmlər çəkilir, musiqilər bəstələnir. Və istisnasız olaraq da, bu əsərlərin əksəriyyətində İmam Hüseynin adı əsl lider necə olmalıdır nümunəsini yaratmışların önündə gəlir artıq...**

**Əlbəttə, hər kəs Kərbəlanı anlaya, hər kəs Hüseynə ağlaya və onu sevə bilməz! Heç bu, hər kəsdən gözlənilmir də! Çünki yalnız soyu-qanı təmiz, ideyasına və prinsiplərinə sadiq, kin, həsəd və paxıllıqdan uzaq, həqiqi ləyaqət və şərafət sahibi olan gerçək dava adamları Hüseyni və tərəfdarlarını daha yaxşı başa düşər, anlayar, onları sevər, hörmətini də hər yerdə saxlayar! Axı yalnız onlar daha yaxşı bilir və qəbul edirlər ki, Kərbəlada yaşananlar təkcə iki ərəbin - Hüseynlə Yezidin hakimiyyət və sərvət bölgüsü savaşı deyildi!**

**Bu, Əli oğlu Hüseynlə Müaviyə oğlu Yezidin timsalında Xeyirlə Şərin, soylu ilə soysuzun, haqqla nahaqqın, imanla imansızın, dürüstlə nadürüstün, mərdlə namərdin, ləyaqətlə rəzalətin, sədaqətlə xəyanətin, işıqla zülmətin savaşıydı!**

**Əgər 680-ci ildə Əli oğlu Hüseyn Müaviyə oğlu Yezidin beyət təklifini qəbul etsəydi, babası Peyğəmbərin soyuna, söylədiklərinə, gətirdiyi Kitaba xəyanət və özünün halal haqqından da imtina etmiş olardı;**

**nadürüstlər və namərdlər ondan sonra hər yerdə qürrələnib önə, başa keçər, dürüst və mərdləri küsdürər, alçaqların ləyaqətlilər üzərində hökmranlığını əbədi edərdi;**

**daha heç kəs ləyaqətə, sədaqətə və etibara fikir verməz, dünya xəyanət yuvasına çevrilərdi;**

**Allahı anladan və bəşəriyyəti xeyirxahlığa, yaxşılığa, dürüstlüyə və ədalətə çağıran işıqlı kəlmələrsə birdəfəlik sönər, zülmət və zillət hər yeri qaranlığa qərq edərdi!**

**Nə yaxşı ki, Hüseyn o vaxt Yezidə beyət etmədi və yenicə közərən o işığı da sönməyə qoymadı!**

**...İmam Hüseynin 680-ci ildə Kərbəlada, Fərat çayının sahilində özünün və övladlarının qanıyla yandırdığı o işıq 1344 ildir ki, azadlıq və ədalət istəyən, haqqı uğrunda mübarizə aparan və bunun üçün canını belə çəkinmədən verən insanların yolunu aydınlaşdıran nura, mayaka, əbədi məşələ çevrilib!**

**Azərbaycan insanı o yolda yürüyənlərin nələrə nail olduğunu 44 günlük Qarabağ savaşında bir daha gördü, anladı...**

**Bu gün şəhidlər sərvəri İmam Hüseyni və eləcə də Qarabağımızda düşmənə təslim olmayaraq, onun beyət təklifini qəbul etməyərək şərəfimiz, namusumuz, ləyaqətmiz, Vətənimiz üçün öz canından keçən hər bir Şəhidimizi dərin hörmət, sevgi, minnətdarlıq və ehtiram hissiylə anırıq!**

**Başınıza döyüb, onu yarmayın, əziz həmvətənlər - "Allahu Əkbər!" nidalarıyla düşmən üzərinə yürüyən Şəhidlərimizi başa keçirin, baş tacı edin, onların həyatını dərindən öyrənin və bir də onları heç vaxt unutmayın!**

**Çünki onda görəcəksiniz ki, Şəhidlər, həqiqətən, ölmürlər - həmişə diridirlər və bizimlə birgə, ancaq bizlərdən daha çox yaşayırlar...**

# DÜNYA ŞÖHRƏTLİ CƏMİYYƏTİN SEÇİLMİŞ ÜZVÜ

**Bir müddət əvvəl İngiltərənin paytaxtı Londondan ölkəmizə daxil olmuş xoş xəbər bütün Azərbaycan geoloqlarının sevinc və fərəhinə səbəb oldu. Və bu xəbər daha çox mədənçiliklə məşğul olan gənc geoloqlar üçün qürur və ilham mənbəyinə çevrildi". Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited"in ("Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkəti") geoloji kəşfiyyat**

işləri üzrə meneceri, yer elmləri üzrə fəlsəfə doktoru Anar Vəliyev bu ilin aprel ayında ABŞ-ın və İngiltərənin İqtisadçı geoloqlar Cəmiyyətinin seçilmiş üzvü dərəcəsinə layiq görülmüşdü. Bizim hər birimiz üçün bu xəbər nə qədər xoş olsa da, bu bütün həyatını ölkəmizdə filiz geologiyası elm sahəsinin inkişafına həsr etmiş istedadlı və işgüzar, daim öz üzərində çalışan, Gədəbəy bölgəsində bir sıra yeni qızıl yataqlarının kəşf olunmasında böyük xidmətləri olan gənc alim-geoloq, gözəl insan Anar Vəliyevin fədakar əməyinə verilən layiqli qiymətdir.

Dünyanın ilk İqtisadçı Geoloqlar Cəmiyyəti Amerika Geoloji Cəmiyyəti üzvlərinin 1919-cu ildəki toplantısında təsis edilmişdi. Cəmiyyət 28 dekabr 1920-ci ildə A.M. Bateman, V.H. Emmons, L.C. Qraton, J.F.Kemp, A.C.Lavson, U.Lindqren, R.A.F. Penrose, Jr., R.H. Sales, J.E. Spurr və H.V. Vinchell kimi 60-a qədər görkəmli mütəxəssis alimlərin ilk üzvləri seçildiyi bir təşkilat İngiltərədə fəaliyyətini genişləndirmişdi. Onu da qeyd edək ki, adı çəkilən böyük alimlər, xüsusən V.H. Emmons və U.Lindqren XX əsrdə dünyada geologiya elminin sıçrayışla inkişafında və təşəkkülündə böyük rol oynamış və adları bütün universitetlərin geoloji dərsliklərində yer almışdır. Bu gün həmin Cəmiyyətin dünyanın 127 ölkəsində fəaliyyət göstərən 10243 üzvü vardır ki, onlardan yalnız 1748-i seçilmiş üzv dərəcəsinə layiq görülmüşdür.



Fəxrlə qeyd edə bilərik ki, Azərbaycanımızın yetirməsi Anar Vəliyev də dünya şöhrətli bu nüfuzlu təşkilatın bölgə ölkələri arasında ilk və yeganə seçilmiş üzvdür.

Vəliyev Anar Ələsgər oğlu 25 aprel 1983-cü il tarixində Ucar rayonunun Bərgüşad kəndində zəhmətkeş bir ailədə anadan olmuşdur. Anarın ata babası Möhsüm kişi nəvələrinə xatirələrindən danışarkən qeyd edərmiş ki, onun atası papaqçı Məhsim kişi XIX əsrdə Şamaxıda baş vermiş dağıdıcı zəlzələ nəticəsində ailə üzvlərinin böyük hissəsini itirdikdən sonra Şamaxıdan Bərgüşada köçmüşdür. O illərdə Şamaxıda nəsillikla papaqçılıqla məşğul olan məşhur, seçmə ustalar var idi. Həmin vaxtlar kişi papağı mərdlik, namus, qeyrət, cəsarət simvolu olduğu üçün hər ustanın da yüksək keyfiyyətli papaq tikməsi mümkünsüz idi. Bu işə yüksək peşəkarlıq tələb olunurdu. Belə peşəkarlardan biri də Məhsim kişi idi. Sonralar Möhsüm kişi də Bərgüşadda atasının papaqçılıq sənətini davam etdirmişdi. Fəqət qanlı İkinci Dünya Müharibəsi hər şeyi yarımçıq qoydu. Möhsüm kişi 1939-cu ildə müharibəyə yollanmış, 1942-ci ildə ürəynin sağ divarından ağır güllə yarası almasına baxmayaraq 1945-ci ildə müharibənin sonuna qədər vətəni qorumaq üçün döyüşmüş və bir çox medallarla təltif olunmuşdur. Anarın uşaqlıq illəri Möhsüm babanın xoş və şirin söhbətlərini, müdrik məsləhətlərini dinləməklə keçmişdi. Sonralar atası Ələsgərin işi ilə bağlı ailələri paytaxt Bakıya köçməli olmuşdur.



Anar 2000-ci ildə Bakı şəhərinin Binəqədi rayonunda, 9-cu mikrorayonda yerləşən, Milli Qəhraman Famil İsgəndərovun adını daşıyan 157 saylı orta məktəbi bitirmişdir. Həmin məktəb o illərdə nizam-intizamın, tədrisin və ali məktəblərə qəbul nəticələrinin yüksəkliyinə görə Azərbaycanın qabaqcıl məktəblərindən biri hesab olunurdu. Məhz Anargilin siniflərinin şagirdləri də məktəbin uğurlarını davam etdirərək 95%-dən çoxu ali məktəblərə daxil olumuşdu.

Anar əmisi Azərbycanın əməkdar neftçisi Əlimöhsüm Məsimovdan ruhlanaraq geoloq olmaq qərarına gəlmiş və 2000-ci ildə Bakı Dövlət Universitetinin Geologiya fakültəsinə daxil olmuşdur. O təhsil aldığı müddətdə AMEA üzvləri Vasif Babazadə və Arif İsmayılzadə, professorlar Vaqif Ramazanov, Nazim İmamverdiyev, Musa Məmmədov, Dəmir Əhmədov, Sərdar Səmədov, Tofiq Şahsuvarov kimi böyük geoloq alimlərdən təhsil almış 2004-cü ildə bakalavr, 2006-ci ildə magistr pilləsini fərqlənmə diplomu ilə bitirərək böyük alim, akademik Akif Əlizadənin rəhbərlik etdiyi Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya instutununun "geokimya və petrologiya" şöbəsində doktorantura pilləsinə qəbul olmuşdur.

Həmin şöbəyə uzun illər rəhbərlik etmiş professor Musa Məmmədov Anara elmin incəliklərini öyrətmiş, geologiya-mineralogiya elmləri namizədi Gültəkin Babayeva isə riyazi geoloji məsələlərin tətbiqində ona dəstək olmuşdur.

O, 2014-cü ildə Azərbaycan geologiyasına daim yeni elmi ideyalar gətirməsi ilə seçilən professor Nazim İmamverdiyevin elmi rəhbərliyi ilə "Kiçik Qafqazın Azərbaycan hissəsinin Üst Pliosen-Dördüncü dövr kolliziya vulkanizminin petrogeokimyəvi modeli, filizəmələgəlmə potensialı" mövzusunda elmi tədqiqat işi müdafiə edərək Yer elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır.

Anar Vəliyev 14 elmi əsərin, 27 tezisin, 1 monoqrafiyanın və İngiltərədə çap olunmuş "Vulkanologiyada yeniliklər" (Updates in Volcanology) kitabının həmmüəllifidir. Anar həmçinin qeyd olunduğu kimi ABŞ və İngiltərənin beynəlxalq nüfuzlu İqtisadçı Geoloqlar Cəmiyyətinin (Society of Economic Geologists) seçilmiş (fellow) üzvüdür.

O, paralel olaraq Azərbycanda Dövlət müstəqilliyi əldə olunandan sonra yaradılmış ilk beynəlxalq mədən şirkəti olan "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited"də 2005-ci ildə əmək fəaliyyətinə başlamışdır. Geologiya elminin praktik sirlərinin öyrənməsində ona Azərbaycan Respublikasının əməkdar geoloqu Akir İsazadə, Azərbaycanın ən iri qızıl yataqlarından biri olan Çovdar yatağının ilk kəşfçilərindən Həsən Çələbi, Naxçıvan MR-da kəşf olunmuş bir çox yataq və təzahürlərin ilk kəşfçilərindən Mirməcid Seyidov kimi məşhur geoloq müəllimlik etmişdir. O, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited" şirkətinin "Gədəbəy saziş sahəsi"-də kəşf olunmuş Qədir, Uğur, Gilar və Zəfər qızılpolimetal filiz yataqlarının ilk kəşfçilərindən biridir. O hazırda həmin şirkətin geoloji kəşfiyyat işlərinə rəhbərlik edir.

Anar hal-hazırda da akademik Vasif Babazadə, elmi rəhbəri olmuş professor Nazim İmamveriyevlə, Amerikanın Mayami Universitetinin professoru Yildirim Dileklə, İngiltərənin Təbiət Tarixi İnstitunun professorları Jamie Vilkinson, Robin Armstronq, Konya Texnik Universitetinin professoru Fetullah Arik, dünyaca məhşur geoloqlar professor Richard Sillitoe, Bob Foster kimi alimlərlə ortaq elmi layihə və məqalələr üzərində çalışmaqdadır...

...İnsanın əmək fəaliyyətini əhatə edən çoxsaylı ixtisasların hər birinin öz gözəlliyi və özünəməxsusluğu vardır. Peşəkarlığın əsas meyarı insanın seçdiyi peşəyə bağlılığı, onun sirlərinə və incəliklərinə yiyələnməsi ilə müəyyən olunur. Bununla yanaşı, mövcud olan ixtisas növləri içərisində digər peşələrdən bir qədər fərqli olan fəaliyyət növü də vardır. Burada çöl mövsümü zamanı işçinin əmək fəaliyyəti vaxt məhdudulğu ilə bağlı olan gərgin əməklə, çoxlu fiziki qüvvə sərfi ilə, hava şəraitindən asılılıqla, texnikanın vəziyyəti ilə, işçilərin qarşılıqlı münasibəti və nisbətən artıq təhlükəlilikIə xarakterizə olunur... Yəqin ki, söhbətin geoloq peşəsindən getdiyini bir çoxunuz duydu. Bir qayda olaraq, əksər peşə sahibləri harada çalışmalarından asılı olmayaraq işdən sonra evə, ailəsinin, doğmalarının yanına qayıdır. Geoloqlar isə əksinə uzun müddət evdən, ailədən təcrid olunmuş şəraitdə işləməli, həm də yaşamalı olurlar. Görünür bu amilə görə bir çoxları Geologiyanı peşədən, ixtisasdan əvvəl Həyat Tərzi adlandırırlar.

Anar Vəliyev məktəbi bitirərərək geologiyanı özünə ixtisas seçərkən bu barədə o qədər də məlumatı yox idi. Lakin o inanırdı ki, hər bir insanın şərəfi, ləyaqəti olmalıdır və o həyatda layiq olduğu hörməti dərin zəkası və zəhməti ilə qazanmalıdır. Hər bir insan doğma Vətəni üçün, özü və yaxınları naminə Qürurlu olmalıdır. O, hələ məktəbdən bilirdi ki, müasir insan heyvanları sevməli və qorumalı, təbiətin keşiyində durmalıdır. A.Vəliyev həm də tabeçiliyində olan iş yoldaşlarına qarşı tələbkardır. Eyni zamanda onlarla çox mədəni və ədalətlə davranır.

Böyük alman filosof alimi F.Hegel mədəniyyətə "insan tərəfindən yaradılmış ikinci təbiət" adını vermişdir. Mədəniyyət - "təbiət tərəfindən bizə bəxş edilmiş sərvətdir, insanlar tərəfindən yaradılmış və toplanılmış maddi və mədəni dəyərləri, bizi əhatə edən təbiəti qiymətləndirmək üçün bizə verilmiş şansdır"- yazmışdır F.Hegel. Milli mədəni dəyərləri şərəflə daşıdığına, sadə və səmimiyyətinə görə Anar Vəliyev iş yoldaşlarının, dost-tanışlarının böyük hörmətini qazanmışdır. Bu xüsusiyyətlərinə görə ona İngiltərəli həmkarları da hörmət və rəğbətlə yanaşırlar. O, nisbətən gənc olmasına baxmayaraq filiz yataqlarının geologiyası sahəsi üzrə ölkəmizdə nüfuzlu alimlərdən biri kimi tanınır.

A.Vəliyev hələ 2016-cı ildən ABŞ-ın və İngiltərənin beynəlxalq nüfuzlu "İqtisadçı Geoloqlar Cəmiyyəti"-nin (Society of Economic Geologists, SEG) üzvü idi. O, nəinki Azərbaycanımızda, hətta region ölkələrindən SEG kimi beynəlxalq nüfuzlu geoloji cəmiyyətin seçilmiş ilk üzvüdür. O bu Cəmiyyətin Türkiyə, Çin, İngiltərə və başqa ölkələrdə təşkil etdiyi beynəlxalq geoloji konfranslarında qlobal, filizlərin yeni genetik modellərinin Azərbaycanda olan filiz yataqlarına tətbiqi, özünün də birbaşa kəşfçisi olduğu Qədir, Uğur, Gilar və Zəfər kimi qızıl-mis-polimetal yataqları haqqında müxtəlif mövzularda məruzələr etmişdir.

Anar Vəliyev hazırda həyat və yaradıcılığının ən gözəl, ən məhsuldar çağlarını yaşayır və qazanılacaq daha böyük qələbələrin astanasındadır. Şübhə etmirik ki, biz gələcəkdə onun möhtəşəm nailiyyətlərinin şahidi olacağıq və onlar bizim yeni qürur mənbəyimizə çevriləcəkdir.

**Biz Anar müəllimi ABŞ və İngiltərənin beynəlxalq nüfuzlu "İqtisadçı Geoloqlar Cəmiyyəti"-nin seçilmiş üzvü sıralarına daxil olması münasibətilə ürəkdən təbrik edir, ona cansağlığı və böyük uğurlar diləyirik.**



**Ağamahmud Səmədov**
**"Yer və insan" jurnalının redaktoru**

---

### *Nobel mükafatçısı 10 ildir övladları ilə görüşə bilmir*

**Nobel Sülh mükafatı laureatı, məhbus hüquq müdafiəçisi Nərgiz Məhəmmədi iki övladı Kiana və Əlidən 10 ildir ayrı düşüb.**

Adalet.az "İran İnternational"a istinadən xəbər verir ki, bu barədə onun instaqram səhifəsində məktub dərc edilib.

Oğlu və qızından ayrı düşməsinin 10-cu ildönümü ilə əlaqədar yayılan məktubda bildirilib ki, o, mübarizə, müqavimət hərəkatının rəmzidir.



Ötən ilin dekabrında Nobel mükafatı onun övladlarına təqdim edilib. Onda Əli və Kiana Rəhmani bildirmişdi ki, İranda hökm sürən şərait səbəbindən bir daha analarını görməyə bilərlər.

Nərgiz Məhəmmədi isə övladların sevgisi barədə belə yazıb: "Oğlum və qızım mənim mehriban ana olduğumu, ürəyimin daim onlara sevgi ilə vurduğunu yaxı bildiklərinə ümid edirəm".

Onun oğlu və qızı hazırda ataları ilə birlikdə Fransada yaşayırlar. Övladlarının anaları ilə telefon danışığına belə icazə verilməyib. Nərgiz Məhəmmədiyə qarşı irəli sürülən müxtəlif ittihamlara əsasən, onun həbs müddəti ümumilikdə 13 il 3 aya çatıb.

O, 1972-ci il aprelin 21-də Güney Azərbaycanın Zəncan şəhərində anadan olub. Tanınmış jurnalist və hüquq müdafiəçisi, Azərbaycan türküdür. İranda bir sıra KİV-də işləyib. Ötən ilin sentyabrında İranda başlayan etiraz aksiyalarına ilk qoşulanlardan və fəal iştirakçılarından olub. O, 16 il müddətinə azadlıqdan məhrum edilib. Nərgiz Məhəmmədiyə 2022-ci il üzrə "Sərhədsiz Reportyorlar" Təşkilatının "Cəsarət Mükafatı" verilib. O, 2023-cü ilin yanvarında Olof Palme mükafatına layiq görülüb. Bundan başqa, Nobel Sülh Mükafatına namizədliyi irəli sürülüb.

2023-cü il mayın 3-də İranın məhbus jurnalistləri Nərgiz Məhəmmədi, Nilufər Həmidi və İlahə Məhəmmədi BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatının (UNESCO) Gilyermo Kano adına Dünya Mətbuat Azadlığı Mükafatına layiq görülüblər. Nərgiz Məhəmmədi 2003-cü ildə Nobel Sülh mükafatına layiq görülmüş, Güney Azərbaycan türkü Şirin İbadinin yaxın silahdaşıdır. Güney Azərbaycandan olan hüquq müdafiəçisi 2024-cü ilin yanvarında 2023-cü il üzrə Nobel Sülh mükafatına layiq görülüb.

## *İmtahandan qovulanlara güzəşt edilə bilər?*



**Tez-tez imtahanlarda mobil telefonla imtahan binasına daxil olmağa cəhd halları müşahidə edilir. 14 iyul tarixində keçirilən I və IV ixtisas qrupları (o cümlədən, III qrup üzrə DT və TC altqruplarının hər ikisini seçənlər üçün coğrafiya fənni) üzrə qəbul imtahanında 3 nəfərdə mobil telefon aşkarlandığı üçün imtahandan xaric olunub.**

**Bəzi hallarda abituriyentlər imtahanın birinci cəhdində heç bir qanunauyğunsuzluq etməsə də, imtahanın ikinci cəhdində telefonla binaya daxil olmağa çalışırlar.**

**Bəs imtahanın ikinci cəhdində xaric olunanlara güzəşt tətbiq edilə bilər? Onlar birinci cəhd nəticələri ilə ixtisas seçimi edə bilər?**

**Bakıvaxtı.az-ın məlumatına görə, məsələ ilə bağlı Dövlət İmtahan Mərkəzindən Trend-in sorğusuna cavab olaraq, bildirilib ki, imtahandan xaric edilənlərə heç bir güzəşt edilməyəcək.**

**”Qəbul qaydalarına əsasən, həmin şəxslərin müsabiqə nəticələri ləğv olunur.**

**Onlar ixtisas seçiminə buraxılmırlar.**

**Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanlarda diqqət yetirilən əsas məqamlardan biri də imtahan prosesinin şəffaflığının təmin edilməsidir.**

**Bütün imtahan iştirakçıları üçün lazımi şəraitin yaradılması, onların bərabər şərtlər altında imtahanlarda iştirakı, imtahanda davranış qaydalarına riayət edilməsinə nəzarət və həyata keçirilən digər tədbirlər imtahan verənlərin maraqlarının qorunması və ədalətli seçimin təmin edilməsinə yönəldilir.**

**İstər girişdə yoxlama zamanı məqsədli şəkildə mobil telefonu gizlətməyə çalışdığı üçün imtahan zalına buraxılmayan, istər imtahan zalında üzərində telefon aşkarlanan, istərsə də digər qayda pozuntularına yol verən şəxslərin nəticələri ləğv olunur və onlar müsabiqədə iştirak etmək şanslarını itirirlər”, - deyə əlavə edilib.**

**Elman Cıvıroğlu**

# BOZQURD TƏFƏKKÜR FENOMENİDİR



**(əvvəli ötən sayımızda)**

**Yer üzündə dəmirdən ilkin istifadə edən bir sıra xalqlar, ölkələr olmuşdur. Ancaq bu istifadə epizodik şəkildə idi. Əsl dəmir çağı ondan ilkin olaraq saysız-hesabsız silah və alət hazırlayan Türklərlə başladı. Dəmirçilik görünməmiş inkişaf, üfüqlərə sığmayan imkanların açılması demək idi. Dəmirdən istifadə ilə Türkün qüdrəti daha da artdı. Bəşər mədəniyyətinin ən böyük kəşflərindən olan at və dəmirdən sonralar başqa xalqlar da geniş ölçüdə faydalandılar. Ancaq bənzərsiz düşüncə tərzi Türkləri həmin xalqlardan fərqləndirdi.**

Bütün bunlar Türkə ”dünyaya sığışmamaq” ruhunu, mübarizliyi, savaşqanlığı aşılayırdı. Bu coşğun ruhun ən mühüm əlamətlərindən biri Türkün azadlığa vurğunluğu idi. Siyasi azadlığını, müstəqilliyini Türk yer üzündə hər şeydən uca tuturdu. Türk haraya köçsə də, öz sürüsü, iqtisadi təminatı ilə bərabər idi. Bu isə onda başqalarından asılı olmamaq ruhunu gücləndirirdi.

Türk öz sürüsünü xəstəliklərdən, isti-soyuqdan, çovğundan, qasırğadan və bir də gözlənilməz basqınlardan qorumağın daim qayğısını çəkirdi. Yüksək sayıqlıq, itigözlülük bu işin öhdəsindən gəlməyə ona imkan verirdi. Basqınlar isə müxtəlif idi. İnsan basqını, yırtıcı heyvan basqını...

Bozqırın bir də yırtıcı heyvan sakinləri vardı: Bəbir, pələng, aslan, qurd və s. Bunların içində ən inadkarı qurd idi. Qurd sayca da çoxluğu təşkil edirdi. Qurdların basqını Türkün heyvan sürüsünün, at ilxılarının daimi izləyicisi idi.

Bu izləmə isə Türkün bu inadkar yırtıcı hücumları ilə tez-tez üzləşməsiylə nəticələnirdi. Və hər dəfə qarşılaşdıqca, çarpışdıqca onu heyrət bürüyürdü: onunla qurd arasında nə qədər oxşarlıq vardı... Qurd nizamlı şəkildə dəstə ilə hücuma keçir, ciddi müqavimətə rast gəlincə bir göz qırpımında geri çəkilir, yoxa çıxırdı. Ancaq qənimətlə dönmək üçün şiddətli mübarizə aparırdı. Qurd bəzən tələyə düşsə də, əlini-qolunu qurban verməklə olsa da qurtulurdu, əsarətə boyun əymirdi. Çeviklik, gözlənilməz ani hücum qurdun dəyişməz xasiyyəti idi. Türk qurdla çarpışa çarpışa ondan bəzən öyrəndikləri də olurdu.

Nəhayət, zaman keçdi, Türkün içində bir fikir işığı doğdu: Onun - Türkün damarlarında coşan qan bəlkə qurdun qanıdır, bəlkə ulu atası - əcdadı qurd südüylə bəslənmiş, boya-başa çatmış, qurd südüylə yoğrulmuşdur. Yoğrulduğu südün istiliyini, qoxusunu isə insan məzara qədər qanında, nəfəsində daşıyır... Yenə də zaman keçdi, Türkün içi daha da işıqlandı: Onun ulu atası bir qurd südüylə sadəcə bəslənməmiş, həm də bir dişi qurddan doğulmuşdur.

Türk isə anaya müqəddəs gözlə baxırdı. Ana müqəddəsdi. ”Dünyaya sığışmayan”, özünü böyük görən, başqalarını sevməyi bacaran Türk (özünü böyük görəgörə) öz millətini Tanrının yaratdığı müqəddəs bir varlıq sayırdı və inanırdı ki, bu millət başqa xalqları idarə etməli, onlara xoşbəxtlik gətirməlidir. Harada Türk törəsi - qanunu hökm sürürsə, orada xoşbəxtlik hökmran olmalıdır. Çünkü uca Tanrının özü belə buyurmuşdur. Deməli, Türk özündə Tanrının bir əlamətini, ilahi bir qüvvədən nəyisə bir şeyi daşıyır. Belə bir ilahi qüvvədən bir əlamət daşıyan millət isə Tanrının rəmzi olan, onu təcəssüm etdirən ilahi bir varlıqdan törəməli, doğmalı idi. Bu səbəbdən Türk öz ulu əcdadına ilk öncə ”Kök Börü” (və ya Böri), sonralar isə ”Boz qurd” dedi. Türk hər şeyin qaynağı və yaradıcısı olan öz Tanrısına ”Göy Tanrı” (Tenqri) deyirdi. ”Göy” isə Tanrı ilə bağlı idi və buna görə də müqəddəsliyi bildirirdi - müqəddəs rəngdi. Tanrının əlaməti olan Qurd isə ”Kök Börü” və ya ”Bozqurd” olmalıydı.

Türk ”Göy” ilə ”Boz”u eyni anlamı daşıyan sinonim sözlər kimi işlətmişdir. Zaman keçdikcə Türk müqəddəsliyi rənglə ifadə etmək, bildirmək istədikdə ”Boz” sözünə üz tutmuşdur.

Deməli, Türkün ”Əcdad qurd - Ata qurd” anlayışı maddilikdən mənəviliyə doğru inkişaf etmişdir (qarşılaşdır: Göy qübbəsi inkişaf nəticəsində Tanrı olmuşdur). Türk bozqırın - stepin daim hücumda olan, olduqca çevik, inadkar və qarşıdakı təhlükənin öhdəsindən gələ bilməyəcəyini duyduqda ildırım sürətiylə qaçıb qurtulmağı bacaran, ”ələ yovuşmaz” yırtıcısı ilə özü arasında bənzərlik olduğunu görmüş və getdikcə qurd onun gözündə Tanrı ilə bağlantısı olan müqəddəs bir varlığa çevrilmişdir.

Türk ”Qurddan törəmə”ni dastana çevirdi. Yüz illər bir birini arxada qoyduqca bu dastan daha da zənginləşdi, ona yeni yeni zinət verildi: Bir gün qarı düşmən Türklərin yurduna hücum edərək hamını öldürür. Düşmən əsgərləri yalnız bir oğlan uşağını öldürmürlər. Onun da ayaqlarını kəsib bir bataqlığa atırlar. Haradansa bir dişi qurd gəlir, bu uşağı tapıb onu bəsləməyə başlayır. Düşmən uşağın sağ qaldığını bildikdə qurd ilahi bir qüvvə ilə uşağı qaçırıb bir mağaraya gətirir. Bura hər tərəfi dəmir dağlar ilə dövrələnmiş, bol otu, çəməni olan bir ova idi. Bu uşaq böyüdükdə qurd ondan bir neçə övlad dünyaya gətirir. Türklər bu yeni doğulan uşaqlardan törəyirlər. Türklərin ataları uzun zaman burada yaşayır və xeyli çoxalırlar. Nəhayət, onlar dəmir dağı əridib mağaradan çıxırlar. Onlar öz atalarının qisasını düşməndən aldıqdan sonra böyük bir dövlət qururlar.

Ancaq Türk bu müqəddəs varlığa - Bozqurda tapınmadı, ona sonsuz sayqı, ehtiram göstərdi. Bozqurd bütün Türklərin idi, Türklərin hamısı - dünyanın harasında olurlarsa olsunlar - bu Bozqurdda birləşirdilər. Orta Asiyanın bu yorulmaz sakinləri qəbilə qəbilə, boy boy birbirinə söykənmişdilər. Bu boylar qurdun doğurduğu uşaqlardan törəmişdilər. Və ulu əcdad-qurdun birləşdirici keyfiyyəti buradan da aşkar görünür. Görəsən, Bozqurd Türkün totemiydimi?! Yuxarıda da dediyimiz kimi, Türk Bozqurda tapınmamışdı. Əski Türk tarixi, mədəniyyəti daha dərindən öyrənildikcə, bir çox qaranlıqlar aydınlaşdıqca və elmi araşdırmalarda gerçəyə sədaqət gücləndikcə totemçiliyin tanıdığımız əski Türk cəmiyyətinə yad olduğu üzə çıxır. Türklər əcdadlarının - atalarının vaxtilə yaşadığı yer kimi mağaranı da müqəddəs bilmişlər. 6-8-ci yüzillərdə - Göy Türklər dövründə ”Bozqurd” inamı Türklər arasında çox geniş yayılmışdı. Türk xaqanı ildə bir dəfə dövlətin vəzifəli adamları ilə birlikdə müqəddəs mağaraya baş çəkər, orada əcdadlarının şərəfinə qurban mərasimini keçirərdi.

Qurd Türk inancında əcdad ulu ata vəzifəsini icra etməkdən başqa, həm də çətinliyə düşənin köməyinə gələr, qurtuluş yolunu göstərər, bələdçilik edərdi. ”Qutlu dağ” əfsanəsində əvvəlki yurdları uğursuzluğa uğradığı üçün Uyğurlar qurdun bələdçiliyi ilə yeni yurd axtarırlar. Oğuz xan göy yalmanlı bir erkək qurdun öncülüyü ilə dünyanın fəthinə çıxır. Oğuz xan bir gün xalqına ziyafət (şölən) verir və bu şöləndə xalqına deyir: ”Bozqurdun səsi işarəmiz olsun!”

Göz Türk xaqanının çadırı önündə daim qızıl qurd başlı bayraq (sancaq, tuğ) ucalırdı. Qızıl qurd başlı sancaq xaqanlıq əlaməti sayılırdı. Çin bir Türk hökmdarını rəsmən tanıdığını bildirmək üçün ona qurd başlı bayraq göndərərdi.

***

Türklər Bozqurd haqqında dastanlar, əfsanələr yaratdılar, demişdik. Yüzillər keçdikcə bu dastan və əfsanələr əski Çin, İslam, Suriya, Avropa və s. qaynaqlarını bəzədi, ölümsüzləşdirdi. Ən əski məlumat miladdan öncə 119-cu il tarixli bir Çin qaynağında verilir. Böyük ipək yolu ilə Orta Asiyaya keçərək Türk ölkəsini gəzib dolaşan, tanınmış Çin diplomatı Çjan-ken (və ya Çjan-tsyan) öz ölkəsinə qayıtdıqdan sonra Çin imperatoruna verdiyi hesabatda (M.Ö. 119-cu il) bir sıra məsələlər ilə bərabər, Türk əsilli Vu - sunlardan (Usunlardan), onların Qunmo rütbəsini daşıyan hökmdarının uşaqkən bir qurd tərəfindən əmizdirilməsindən danışır.

Bozqurddan törəmə mövzusu ”Bozqurd dastanı”, ”Ərgənəkon dastanı” və Uyqur törəyiş-yaradılış dastanında verilir. Qurddan törəmə dastanı özünün daha mükəmməl, klassik şəklini 6-8-ci yüzillərdə - Göy Türklər çağında almışdır. Buna görə də Bozqurd dastanına Göy Türk dastanı da deyilir. Bu dövrdə qurd motivi o zamankı Türk sənətinin başlıca mövzusuna çevrilmişdi. Göy Türklərin dastanında qurd ”ulu ana - dişi qurd, Uyqurların dastanında isə ”ulu ata” - erkək qurd kimi çıxış edir. Ancaq Türklər ”dişi qurd” motivində birləşmişlər.

6-7-ci yüzillər Mərkəzi Asyada Göy Türk qüdrətinin aşıb-daşdığı bir dövr idi. Çin bu əzəmətli dövlətə - Türkə yenidən heyran qalmışdı. Çin hökmdarlarının əmriylə Çinli tarixçilər Türk ölkəsində baş verənləri, Türk gələnəklərini - ənənələrini böyük həvəslə, diqqətlə qələmə alırdılar. Bozqurd dastanının əsasını Çin qaynaqlarında yazıya alınmış üç əfsanə təşkil edir. Birinci və üçüncü əfsanələr Çindəki Cou sülaləsinin (557-581 və ya 579) Cou-shu adlı rəsmi tarixində, ikinci əfsanə isə Sui sülaləsinin (581-618) Sui-shu adlı illiyində yazılmışdır. Birinci və ikinci əfsanələr arasında demək olar ki, fərq yoxdur, ancaq üçüncü əfsanə bir qədər fərqlənir. Bununla belə, başlıca motiv hər üç əfsanədə eynidir. Bu dövrdə Çinlilər Orta Asyanı Türk əsilli olmayan xalqlarını qurddan törəməyənlər kimi səciyyələndirdilər.

Ərkənəkon dastanı Bozqurd dastanının monqollaşdırılmış şəklidir. Ərkənəkon dastanına da Göy Türklərin mənşə əfsanəsi kimi baxılmalıdır. Bu dastanın ən əski mətni Elxanlı (Hulakilər) Qazan xanın vəziri Rəşidüddin Fəzlullahın (1247-1318) ”Cami-üt Təvarix” adlı əsərində verilmişdir. Ərkənəkon dastanının ikinci qaynağı 17-ci yüzildə Xivə hökmdarı olmuş Əbulqazi Bahadır xanın ”Şəcərə-i Türk” adlı əsəridir.

”Ərkənəkon” sözü 12-13-cü yüzillərdən işlədilməyə başlamışdır. Rəşidüddinin yazdığına görə, ”ərkənə” - ”sarp”, ”kon” isə ”dağ beli” deməkdir. ”Ərkənə”nin monqol sözü olduğu çox sonralar sübut edildi.

”Ərkənəkon” da Bozqurd dastanının dəmir dağ və mağara motivləri xeyli genişləndirilmiş, qurd ana, yay və qış Tanrıları (3-cü Göy Türk əfsanəsinin motivləri) isə dastandan çıxarılmışdır. Ərkənəkon dastanında qurd motivi Türklərin bu mağaradan çıxdıqları vaxtda onların hökmdarı olan monqol ”Bərtə Çinə” və ya ”Bərtə Çino”nun adı ilə bağlıdır. Monqolca ad olan ”Bərtə Çinə” ”Boz qurd” deməkdir. (”Bərtə” - boz, ”çinə” - qurd). Göy türklərin Bozqurd dastanında qurdun doğurduğu uşaqlardan birinin - gələcək Göy Türk xaqanının adı ”Aşina”dır. Aşina da ”qurd” (Aşino - çino (çina) anlamını verir.

Monqollar qurduqları dövlətə qanuni əsas vermək üçün Türklərin mənşə əfsanəsini mənimsəmiş və özlərini Türklərə bağlamışdılar. Rəşidüddin Monqollara xidmət etdiyi üçün dastanı Monqollara aid etmişdir. Bundan başqa, həmin dövrdə Monqollar yanlış olaraq (bu yanlışlıq uzun müddətli oldu) Türklərin bir qolu sayılırdı. Xivə xanı Əbülqazi Bahadır xan da Monqol mənşəli idi. O, Rəşidüddinin yazdığını demək olar ki, təkrarlamışdır.

Uyqurca ”Oğuz xaqan” dastanında (14-cü yüzil), ”Kitabi Dədə Qorqud”da, hətta Şaman dualarında qurd motivlərinə rast gəlirik. Ancaq bunlar bilavasitə” törəyiş” ilə bağlı deyildir. Bugün bütün Türk dünyasının dastan, əfsanə, nağıl və hekayələrində, deyimlərində qurd motivi yaşamaqdadır.

Qurd motivi, qurd inancı sırf Türk təfəkkürünün, təməllərindən biri gerçəklik olan Türk düşüncəsinin, milli xarakterinin məhsulu və kəşfidir. Bu motiv tarixin ən əski çağlarında dünyanın müxtəlif xalqları tərəfindən Türk milli mədəniyyətinin digər sərvətləri ilə birgə mənimsənilmişdir. Bu mənimsəmə və Türk təsiri Hind-Avropa xalqları və başqa xalqlar ilə Türklərin ünsiyyəti, əlaqəsi nəticəsində mümkün olmuşdur. Yunan, İtalyan, Alman, Fin və digər Avropa xalqlarına aid əfsanələrdə, Amerika, Hind əfsanələrində qurd motivi vardır. Bu motiv Avropaya latınlardan öncə tarix səhnəsinə çıxan Etrusklar vasitəsilə keçmişdir. Latın-Roma mədəniyyəti isə Etrusk mədəniyyəti üzərində ucalmışdır. Dünya xalqlarının əfsanə və nağıllarındakı qurd motivinin Türk mənşəli olması gerçəyində dünyanın ən görkəmli, sözükeçər alimləri birləşirlər.

Bozqurd dastanı, qurdla bağlı inanc bizim ölümsüz mədəni dəyərimiz, qürur və ilham qaynağımızdır. Bu qaynaq bizi bu gün də üfüqlərə, gözəl gələcəyə, yeni-yeni arzulara qanadlandırır. Türkün digər mədəni dəyərləri kimi həm də bəşəri anlam daşıyır.

Bir şeyi də unutmamalıyıq: Əgər istəyiriksə milli dəyərlərimiz ləkələnməsin və oğurlanmasın, mənəviyyatımıza xain əllər uzanmasın, yeni haqsızlıqların qurbanı olmayaq, onda Türk tarixini, Türk mənəviyyatını ilk öncə Türkün Özü öyrənməli və yazmalıdır.

***Not: ”Azərbaycan” qəzetinin 1993-cü il 16, 17 fevral tarixli saylarında dərc edilmiş və bir qədər esse xarakterli bu yazı ciddi elm adamlarının araşdırmaları əsasında hazırlanmışdır. Mövzunun güncəlliyini göz önündə tutaraq (hər bir xalqın yaradılış dastanı özünə görə güncəldir) bu yazının yazılarımın üzünə qapısını hər zaman açıq tutan ”Ədalət”in səhifəsində yerləşdirilməsini istədim.***



*Vaqif Yusifli*
*Filologiya elmləri doktoru*

# İMAM CƏMİLLİ – 70

O, Əfqanıstan və Qarabağ müharibələrinin iştirakçısı olub, gəncliyinin ən qaynar, qızğın çağları döyüşlərdə keçib. Əfqanıstanda keçmiş SSRİ -nin döyüşçüsü olsa da, orada yaralansa da, heç vaxt azərbaycanlı olduğunu unutmayıb. Doxsanıncı illərdə isə Vətənin sıra nəfəri kimi Birinci Qarabağ müharibəsində iştirak edib, burada ağır yaralanıb, ikinci qrup müharibə əlilidir. Əlbəttə, onun hər iki müharibədə qan və savaşla, ölüm-itimlə, səngər və döyüşlə keçən həyatı bir Azərbaycan kişisinin keçdiyi şərəfli ömür yoludur. Və bu ömür yolu İmam Cəmillinin şeirlərində, publisistik əsərlərində, hekayə, povest və romanında əksini tapıb.

Kəlbəcərin Cəmilli kəndində anadan olsa da, həyatı, mənəvi varlığı daha çox ali təhsil aldığı Gəncə şəhəri ilə bağlıdır. İmam Cəmilli Gəncədə-tələbəlik illərində bu şəhərin ədəbi həyatına meyl etmiş, özü də könlündəki duyğuları şeirə, nəğməyə çevirməyə can atmışdır. Gəncə ədəbi mühiti Azərbaycanda ən qədim sənət ocaqlarından biridir və İmam Cəmilli burada Altay Məmmədov, Qərib Mehdi, Xəzangül Hüseynova, Sahib İbrahimli, Fazil Sənan kimi tanınmış şair və nasirlərlə görüşmüş, onların ədəbi məclislərində iştirak etmiş və getdikcə bu ədəbi mühitin fəal bir üzvünə çevrilmişdir.

İmam Cəmilli üçün ədəbiyyat həyat deməkdir və o, bu həyatı səmərəsiz keçirməmişdir. 1996-cı ilə ilk kitabı- "Biçilməmiş zəmim oldum" şeirlər kitabı işıq üzü gördü və o vaxtdan keçən bu 28 il ərzində onun şeir , nəsr və publisistik əsərlərindən ibarət 16 kitabı nəşr olunub("Haraylayır İstisuyum", , "Həsrətinə boylanıram", "Kəlbəcər həsrəti", "Ana fəryadını eşitmir dünya", "Təbriz həsrəti" "Daş altda məktub", "Məndən sənə oğul olar, ay Vətən", "Təzadlı dünyanın təzadlı adamı", "Azadlığın sərhədi yoxdur", "Seçilmiş əsərləri" və s.) .

İmam Cəmilli Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər Birliyinin üzvüdür. Öncə qeyd etdik ki,Gəncədə-o qaynar ədəbi mühitdə öz fəallığı ilə seçilir. Və təbii ki, təkcə Gəncədə deyil, onun hüdudlarından kənarda da yaxşı tanınır. Mən onun şeirləri, poemaları və nəsr əsərləri ilə bir daha tanış oldum və istəyirəm onun bədii yaradıcılığı ilə bağlı təəssüratlarımı sizinlə bölüşüm.

İmam Cəmilli ədəbiyyata xalq şeiri qanadlarından gəlib. Onun şeir və poemalarında xalqın ruhu, mənəvi dünyası, adət-ənənələri öz əksini tapır.Hiss olunur ki, xalq onun şeir və poemalarının baş qəhrəmanıdır və bu baş qəhrəmanın ifadəçisi şairin özüdür. Onun "Ata", "Ana", "Ay Vətən" lirik poemaları eslində, bir şair kimi səciyyələndirə bilər. Söhbət ondan getmir o, atasını, anasını, Vətənini ürəkdən sevir, əsas odur ki, bu obrazlar vasitəsilə milli-mənəvi dəyərləri ifadə etsin. Burada iki məqamı xüsusi qeyd etmək lazımdır. O, ilk növbədə ataya, anaya, Vətənə şəxsi, subyektiv münasibətini ön plana çəkir. Məsələn, ata ölümünün oğul qəlbində necə dərin iz buraxdığını çox təsirli boyalarla nəzərə çarpdırır:

*Ölümünlə bu ömrümü göynətdin,*
*Tüstüm küreyimdən çıxdı, ay ata.*
*Bütün varlığımı lərzəyə saldın,*
*Günəş də dayanıb baxdı, ay ata.*

*Təntidi nəfəsim, dondu da qanım,*
*Fırlanıb tərsinə döndü zamanım.*
*Sanki axarından çıxdı dövranım,*
*Kür-Araz üstümə axdı, ay ata.*

İmam Cəmillinin həmin poemada ata məhəbbəti və həsrəti ilə bağlı orijinal bayatıları da təsadüfi deyil, onun digər şeir və poemalarında qətiyyən xalq bayatılarından seçilməyən şeir nümunələrinə müraciət etməsi təbiidir.

*Deyirəm ata yeri,*
*Göynəyir ata yeri.*
*Heç kəs, heç nə verməyir,*
*Dünyada ata yeri.*

İmam Cəmillinin "Ana" poeması, mənim fikrimcə, onun əgər belə demək mümkünsə, ən seçimli əsərlərindən biridir. Bu poemada Ana obrazı Vətən obrazı ilə vəhdətdə verilib.

*Durna gedir, qatardasan,*
*Ürəkdəsən, məzardasan?*
*Mən hardayam, sən hardasan?*
*Səni gəzir gözüm, ana,*
*Adım Vətən, sözüm Ana!*

Mənim fikrimcə, əgər siz İmam Cəmilli adlı bir şairi daha yaxından, sanki nəfəs-nəfəsə tanımaq istəyirsinizsə, onun "Ey Vətən" poemasını oxuyun. Bu poema şairin Vətənə xitabları üzərində qurulub. Elə əsərin əsas qayəsi də ŞAİR və VƏTƏN anlayışları üzərində qurulub. "Məndən sənə oğul olmaz ay Vətən", "Bizdən sənə oğul olmaz ay Vətən" misraları bütün poema boyu təkrar edilir. Müəllif otuz il ərzində-ikinci Qarabağ müharibəsindən öncə Vətənin taleyi ilə bağlı nicarançılığını, həddsiz narahatlığını, təəssüf hisslərini və hətta ümidsiz anlarını qələmə alıb. Burada təkcə bir fərdin dey il, o illərdə az qala bütün kütlənin ürəyinə yığılmış bir inamsızlıq var idi. Poeziyada ara-sıra nikbin notlar, qələbəyə səsləyən çağırışlar olsa da, KƏDƏR hissi ön plana keçmişdi (Nə yaxşı ki, 44 günlük müharibə bu ümidsizliyi belini qırdı). "Ay Vətən" poeması bir şairin-bir oğulun Vətənlə bağlı inamsızlığını deyil, böyük məsuliyyətini əks etdirir. Düşüncə meyarı ilə yanaşsaq, poemadan belə bir nəticə hasil olur ki, bu yurdun hər bir sakini Vətənin başı üstünü alan bəlalara, müsibətlərə qarşı öz haqq səsini ucaltmalıdır. Poemadakı etiraflar da məhz bu amili şərtləndirir.



*Həqiqətin doğru üzü acıdı,*
*Zəmanəmiz ədalətin acıdı,*
*Qazi, Şəhid haqsızlığa acıdı,*
*Vətənimdə budurbu gün görünən,*
*Məndən sənə oğul olmaz, ay Vətən.*

*Ayağa qalx, oyanmağın vaxtıdı,*
*Közərməyin, lap yanmağın vaxtıdı,*
*Kişi kimi dayanmağın vaxtıdı,*
*Yatma ayıl, ya Qarabağ, ya kəfən*
*Bizdən sənə oğul olmaz, ay Vətən.*

Bu yazıda İmam Cəmillinin "Həsrətimin bayramı" poemasından söz açmamaq günah olardı. Əgər "Ey Vətən" poeması hardasa oxucuda nostalji hisslər oyadırsa, biz "Həsrətimin bayramı"nda şairin bir zamanlar şeirlərində həsrətlə yad etdiyi (xüsusən "Kəlbəcər həsrəti" kitabındakı şeirlərdə) Kəlbəcərə səfərindən söz açır. "Həsrətə son qoydum, "Kəlbəcərdəyəm" deyən şair öz doğma yurd yerini dolaşır, ona əziz olan məskənləri seyr edir, səvimli insanlarla görüşür. Hər halda, arzularını gerçəkləşdirir:

*Həsrətimə qovuşmuşam,*
*Səsin necə xoşdu, bulaq.*
*Qayalardan püskürürsən,*
*Gözün niyə yaşdı bulaq.*
*Mavi gözlə gözümə bax*
*Səp-sərinsən, qəlbimə ax.*
*Gəl sinəmin üstünə çıx*
*Sanki İmam daşdı, bulaq.*

İmam Cəmilli həm də nəsr əsərləri yazır, povestləri, hekayələri ilə də diqqəti cəlb edir. Mən onun "Görüş", "Əfqanıstan yaraları" povestlərini, "yaddaşımın ağrıları" romanını və müasir həyat hadisələrini əks etdirən on iki hekayəsi ilə də tanışam. Nəsr əsərlərində də həyat həqiqətlərinə sadiq qalır, maraqlı obrazlar yaradır.

İmam Cəmillini 70 yaşı münasibətilə təbrik edirəm. Bu vaxta qədər onu tanımamışdım, əsərlərini oxudum və bu Vətən qazisini, Qarabağ döyüşçüsü olmuş bu yazıçıya yeni yaradıcılıq uğurları arzulayıram.



*Zaur ƏHMƏD*

# İlahi həqiqət aşiqi və Aşiqin ilahi ədaləti...

*Biz Hz. Hüseyni dini cəhətdən deyil, qəbimizdəki ədalət, zülmə baş qaldıran ruhun yaralı yeri kimi sevdik. O sevgi yalnız ruhumuz canınımızdan ayrılanda bitə bilər, o da bu fani dünya üçün keçərlidir, amma Allah qatına gedən ruhumuzda İmam Hüseyn sevgisi bizimlə olacaq. İnamımız da, imanımız da odur ki, Hz. Hüseyn zülmə baş qaldıranların öndəridir, özündən sonrakı haqlılar və haqqı tapdananlar üçün bir cığır açmışdır. İnşallah, qiyamətə qədər bir nur olaraq, haqqa gedən yola işıq salacaq...*

***

*İlahi həqiqət aşiqi və Aşiqin ilahi ədaləti...*

*Mənə görə nümunələr həyat yolunu müəyyənləşdirmək üçün ən vacib məqamlardır. İnsanı hansısa yola dəvət etmək, yaxud hansısa yoldan yayındırmaq üçün mütləq ki, nümunə lazımdır.*

*Mən vətəni, milləti sevməyi atamdan öyrənmişəm. Atam heç vaxt mənə vətən, millət dərsi keçməyib, heç bu barədə söhbətimiz də olmayıb. Amma məqam gələndə etdiyi seçimlə, getdiyi şəhadət yolu ilə nümunə oldu mənə, bəlkə də çoxlarına...*

*Kərbəla, Həzrəti Hüseynin şəhadəti də bir nümunədir. Haqq savaşına çıxanlar üçün əsl nümunə elə budur. Vətənini, millətini, dövlətini, dinini, ailəsini, uşağını sevmək, o uğurda canından keçməyi gözə almaq haqq, ədalət, daha dəqiqi - İLAHİ ƏDALƏT uğrunda cihada qalxmaq kimidir. Bəlkə də dünyadakı bütün haqsızlıqlara qarşı savaşanlar İLAHİ ƏDALƏT uğruna aparılan savaşdan ilhamlanıblar, ondan bəhrələniblər.*

*Həzrəti Hüseyn İLAHİ ƏDALƏT uğrunda savaşıb. Niyyətini, hədəfini də əvvəlcədən bəyan edib: "Mən bu yola pis niyyətlə, fitn?-f?sad tör?tm?k, zülm etmək və özünə xoş güzəran qurmaq üçün yox, babamın ümmətini islah etmək, insanları yaxşılıqlara çağırmaq və pisliklərdən çəkindirmək üçün çıxmışam!", "Mən hakimiyyət üçün hərəkata başlamamışam. Mənim istəyim yalnız İlahi həqiqətləri ölməyə qoymamaqdır", "Ey camaat, hər kim Allahın qanunlarını dəyişdirən, halalı haram, haramı halal elan edən, beytül-malı ürəyi istədiyi kimi xərcləyən, ilahi hüdudları aşan və müsəlmanların qanını axıdan bir hökuməti görüb sakit otursa, Allah onları zalımların məskəni olan cəhənnəmə aparar! Bu vəziyyəti görüb susan şəxs zalımlardan biri sayılır!".*

*Həzrəti Hüseyn niyə bu qədər sevilir? Kərbəla müsibəti niyə unudulmur? 14 əsr əvvəl baş verən hadisə insanı niyə bu qədər ağrıdır, ağladır? Heç nə səbəbsiz olmur. Səbəb İLAHİ olanda o sevgi, o sayğı daha da artır. Bəzən ilahi sevgiləri anlatmaq olmur, sözün gücü çatmır. O həqiqətin gücü qarşısında söz acizdir.*

*Bir şəxs ki, İlahi Həqiqətlər üçün savaşa qalxsın kim onu sevməz?*

*Bir şəxs ki, sonunda ölüm olduğunu bilə-bilə hədəfindən dönməyə kim ona sayğı duymaz?*

*Bir şəxs ki, Allahın qoyduğu qanunların əyildiyini görə, susmaya, zalıma beyət etməyi ölümdən betər biabırçılıq hesab edə, kim onun yoluna qurban olmaz?*

*Bir şəxs ki, özünün, altı aylıq körpəsinin, qardaşının, sirdaşının, ən yaxın dostlarının şəhid olacağını bilə-bilə geri çəkilməyə, kim bu cəsarətə, bu hidayətə, bu əzəmətə baş əyməz?*

*Bir şəxs ki, Allahın ən sevdiyi qulunun ən sevdiyi ola kim ona beyət eləməz, uğruna ölməz?*

*"Bizimlə öz qanını bizim yolumuzda axıdıb şəhidlik zirvəzinə ucalmaq istəyənlər gələ bilər, başqa məqsədi olanlar qayıtsınlar. Canından keçməyənlər bizimlə gəlməsin. Bizim qafiləmiz canından keçənlərin qafiləsidir" - deyən birini kim unudar...*

*"Biz təslim olan deyilik - son damla qanımıza qədər vuruşacağıq!" - deyən birinin qeyrətinə kimin nə sözü olar...*

*Bunlar Həzrəti Hüseyni sevməyi, onun yoluna beyət etməyi məqbul edən səbəblərdən bir neçəsidir.*

*Mən, Kərbəla müsibətini illərlə xalqımızın düçar olduğu müsibətlə eyniləşdirirəm. Bütün zalımlar bütün məzlumlar eynidir. Mənə görə, bizim vətən savaşı Hz Hüseynin haqq savaşının davamıdır. Çünki Vətən savaşı İlhahi Həqiqət savaşından bir parşadır. Hüseynin Kərbəla savaşı bütün dünyadakı məzlumların zülmə məruz qalması və şəhadətə qədər gedən bir savaş nümunəsidir. Bəzən insan özündən asılı olmayaraq haqsızlığa, zülmə baş qaldırır, fani dünyanı unudaraq, şəhadətə yürüyür. Məncə, bu, ilahi bir hikmətdir, insanların şüuru altında yatan nümunələrin işə düşməsidir. Bizim genetik şüurumuzda haqsızlığa, ədalətsizliyə, zülmə baş qaldırma nümunələri olmasaydı, işğalla razılaşardıq, dözərdik. Nə yaxşı ki, Kərbəla nümunəsi var, nə yaxşı ki, bizim qanımızda, canımızda, düşüncəmizdə yatan nümunə bizi haqq savaşında qalib elədi.*

*Bir məsələyə də toxnmaq istərdim. Aşurada niyə ağlayırlar? Bəzən bunu kinayə ilə də vurğulayırlar.*

*Bu gün Qarabağda şəhid olan tanımadığımız birinin azyaşlı qızını görəndə, onun fəryadını eşidəndə kövrəlmirikmi, ağlamırıqmı, ürəyimiz dağlanmırmı? Təbii ki, ürəyində Allah və insan sevgisi olan hər kəs ağlayır. O zaman Hüseynə, qucağında al qana boyanan altı aylıq oğluna, gözünün önündə atasının başı kəsilən qızına niyə ağlamayaq? Bu müsibət dünyanın harasında olsa, insan oğlu insan ağlamalıdır. Kərbəla hadisəsinin bütün detallarını nəzərə alsaq, hələ belə bir müsibət nümunəsi yoxdur. Kərbəlanın 14 əsr unudulmamasının səbəblərindən biri də budur. Hərə bir cür qəbul edir. Mənə görə, Hz Hüseyn savaşını, Kərbəla müsibətini İlahi özü unutdurmur, qiyamətə qədər də unutdurmayacaq...*

*Allah bizi haqqı danmayanlardan, zülmə boyun əyməyənlərdən, gərəkdiyində şəhadətə ucalmaq cəsarəti görstərə bilənlərdən qərar versin.*

# ÜST rəhbəri: Növbəti pandemiya hər an gələ bilər

**Dünyada hər an yeni bir pandemiya başlaya bilər.**

Adalet.az xəbər verir ki, bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus Cenevrədə pandemiyanın qarşısının alınması üzrə saziş layihəsini hazırlayan Hökumətlərarası Danışıqlar qurumunun iclasında çıxışı zamanı bildirib. "Mövcud H5N1 epidemiyası bizə xatırladır ki, növbəti pandemiya hər an gələ bilər", - ÜST-nin baş direktoru deyib. O, Hökumətlərarası Danışıqlar qurumu tərəfindən hazırlanan sənədi "nəsillərin razılaşması" adlandıraraq, bu təsisatın həyata keçirdiyi işlərin aktuallığını qeyd edib. "Danışıqların bu il başa çatdırılması tarixi hadisə olacaq", - Qebreyesus vurğulayıb. Sənəd üzərində işin nəticələrinə 2025-ci ilin mayında keçiriləcək 78-ci Ümumdünya Səhiyyə Assambleyasında və ya Assambleyanın 2024-cü ilin sonuna qədər baş tuta biləcək xüsusi sessiyasında yekun vurulacağı gözlənilir.

**Bundan əvvəl iyulun 11-də Qebreyesus Cenevrədə keçirdiyi mətbuat konfransında Kamboca və ABŞ-də qeydə alınan son infeksiya hallarına diqqət çəkərək, bütün ölkələri quş qripi üzərində nəzarəti gücləndirməyə çağırıb. O, həmçinin risk qruplarının, xüsusən də yaşı 60-dan yuxarı olan şəxslərin və tibb işçilərinin COVID-19-a qarşı ildə azı bir dəfə peyvənd edilməsinin zəruriliyini xatırladıb.**

## “Heydər Əliyevin vətən səfərləri” çoxcildliyinin təqdimat mərasimi keçirilib

**Atatürk Mərkəzində ”Heydər Əliyevin vətən səfərləri” çoxcildliyinin təqdimat mərasimi keçirilib.**

Tədbiri açan Azərbaycan Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov müasir Azərbaycan tarixinin bütöv bir mərhələsinin xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Akademik qeyd edib ki, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin adı ölkəmizin dünəni, bu günü və gələcəyi ilə birlikdə çəkilir. Azərbaycan var olduqca, Ümummilli Lider Heydər Əliyevin xatirəsi hər zaman böyük sevgi ilə yad ediləcək.



Akademik Nizami Cəfərov qeyd edib ki, Ulu Öndər haqqında saysız-hesabsız kitablar yazılıb və yazılmaqdadır. Onlardan biri də yazıçı-publisist Vəsimə İsmayılqızının ərsəyə gətirdiyi ”Heydər Əliyevin vətən səfərləri” adlı çoxcildlik kitabıdır. Müəllif nəşrin üzərində uzun illər ərzində işləyib. Kitab Ulu Öndərin 100 illik yubileyi münasibətilə hazırlanıb. Akademikin fikrincə, 3 seriyadan ibarət nəşrdə müəllif fərqli baxış ortaya qoyub.

Ulu Öndərin xalq və vətən qarşısında əvəzedilməz xidmətlərini qeyd edən yazıçı-publisist Vəsimə İsmayılqızı ”Heydər Əliyevin vətən səfərləri” çoxcildliyinin ilk kitabının çapdan yeni çıxdığını diqqətə çatdırıb. Qeyd edib ki, ensiklopedik toplunun birinci kitabı Ulu Öndərin respublikaya rəhbərlik etdiyi birinci dövrü əhatə edir. Həmin dövrdə Heydər Əliyevin rayonlara səfərləri, Bakı şəhərində Mərkəzi Komitədən kənarda iştirak etdiyi tədbirlərlə bağlı materiallar öz əksini tapıb. Seriyaya daxil olan ”Goranboyda izim qaldı”, ”Beyləqanda izim qaldı”, ”Şuşada izim qaldı” kitablarının hər birində rəhbərin bu rayonlara səfərləri haqqında geniş söhbət açılır.

”Silsilə kitabın ikincisi ”Daxili səfərlər” seriyasından olan çoxcildlikdir. Bu cilddəki məqalələr Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin respublikaya rəhbərliyinin 20 illik dövrünü əhatə edir. Nəşrin birinci cildi dövlətimizin başçısının 2004-2006-cı illərdə ölkədaxili siyasi fəaliyyəti, bölgələrə səfərlərini özündə əks etdirir. 2006-2008-ci illəri əhatə edən ikinci cilddə isə Prezident İlham Əliyevin regionların inkişafı istiqamətində fəaliyyətindən bəhs olunur.

Seriyanın çapdan çıxan növbəti kitabı isə ”Zəfər səfərləri” adlanır və bu nəşrdə 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfərimizdən sonra 2020-2022-ci illərdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin bölgələrə səfərləri ilə bağlı materiallar toplanıb.

Bu cilddə ümumilikdə Zəfəri şərtləndirən amillərdən, dövlət-ordu-xalq birliyindən danışılır və dövlətimizin başçısının möhtəşəm Qələbəmizdən sonra regionlara səfərləri təfsilatı ilə verilir.

Nəşrdə, həmçinin Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın xalqa müraciətləri, o cümlədən sosial şəbəkələr vasitəsilə paylaşımları yer alıb”, - deyə müəllif diqqətə çatdırıb. Onun sözlərinə görə, çoxcildlik əhatəli yaddaş kitablarıdır. ”Zəfər kitabı” seriyasından olan silsilə kitabların üçüncü nəşri Vətən müharibəsində qazandığımız Zəfərimiz haqqındadır. Bütün cildlər standart format və tərtibatda, həmçinin ensiklopedik toplu meyarlarına uyğun hazırlanıb.

Yazıçı-publisist Vəsimə İsmayılqızı çoxcildli nəşrin uzun müddət və zəhmət hesabına başa gəldiyini, eyni zamanda, bu işdən məmnunluq duyduğunu söyləyib.

Elm və Təhsil Nazirliyi Neft-Kimya Prosesləri İnstitutunun direktoru akademik Vaqif Abbasov, professor, tibb elmləri doktoru Fuad Sərdarlı, Prezident Kitabxanasının direktoru Mayıl Əhmədov, ADA Universitetinin müəllimi, ”Ədibin evi” Ədəbiyyata Dəstək Fondunun icraçı direktoru Şəfəq Mehrəliyeva, kitabın redaktorlarından Əməkdar müəllim İsgəndər Səklikov, filologiya üzrə fəlsəfə doktoru Firudin Qurbansoy və digərləri çıxış edərək nəşrlə bağlı fikirlərini bölüşüblər. Vurğulayıblar ki, kitabı vərəqləyərkən Ulu Öndərin zəngin fəaliyyəti, Prezident İlham Əliyevin ölkəmizin inkişafı istiqamətində gördüyü işlər, yürütdüyü uzaqgörən siyasət, Vətən müharibəsində Zəfərimiz və regionlarda görülən işlər göz önündə canlanır.

**Qeyd edək ki, silsilə nəşrin məsləhətçiləri və ”Ön söz”ün müəllifləri Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, filologiya elmləri doktoru, professor, Azərbaycanın Bosniya və Herseqovinadakı səfiri Vilayət Quliyev, redaktoru şair Dilsuz Mustafayevdir.**

**Qədir Kərimov,**
**tədqiqatçı-filoloq ,AJB-nin üzvü**



# SÖZ və QƏLƏM FƏDAİSİ

## Çətini yazmağa başlamaqdır...

**Əlimə qələm alıb yazmağa başlarkən Milli mətbuatımızın banisi və ilk qaranquşu Həsən bəy Zərdabini, onun ”Əkinçi”qəzetini xatırladım.Ustad dediyim vəfalı dost,gözəl insan,nümunəvi ,istedadlı ziyalımız, Əməkdar jurnalist,vətənpərvər eloğlu,millətinə ,dövlətinə sadiq vətəndaş İdris Şükürlünü dahi Azərbaycan ziyalısı və azadlıq təşnəsi Həsən bəy Zərdabinin müasir davamçılarından biri hesab edirəm.**

Dünyanın əşrəfi sayılan insanı Allah bütün canlılardan fərqli olaraq daha mükəmməl yaradıb.Əslində bu dünya insan üçün sınaq meydanıdır. Bəlkə də elə ömürün mənası da insanın öz Yaradanı qarşısında bu çətin sınaqdan necə çıxmasından asılıdır. Kimi öz yaxşı əməlləri, xeyirxahlığı, səmimiliyi, dürüstlüyü, nəfsinə qalib gəlməsi və təqvalı olması nəticəsində bu sınaqdan üzüağ çıxır, kimi də bu dünyanın ötəri, heç kimə qalmayan bər-bəzəyinə aldanıb dünya malının əsirinə çevrilərək nəfsinə alçalır, pisliyi, namərdliyi, nankorluğu özünə peşə seçərək bu işıqlı dünyanı üzüqara tərk edir. Elə insanlar da var ki, ömürləri şama bənzəyir.Şamın ömrü çox qısa olur. Ancaq şam öz işığıyla ətrafa nur saçır. Yəni bu işıq, bu nur ətrafı öz hərarətinə və istiliyinə bələyir. Xoşbəxt o insandır ki, yaşadığı ömrü yada salanda heç vaxt peşmançılıq hissi keçirmir. Kimyagər və filosof Paulo Coelho yazır:”İnsanın yeganə borcu var: Öz yolu ilə sonuna qədər getmək. Hər şey bundadır və xatırla ki, nə vaxtsa nəsə istəsən, bütün kainat sənin arzunun həyata keçməsinə kömək edəcək.” Öz yolu ,öz dəst-xətti olan belə gözəl əməl sahibi ,xeyirxah insan,ömrünü millətin tərəqqisi üçün şam kimi əridən ,yeganə borcunu ləyaqətlə yerinə yetirən,taleyin sınaqlarından üzüağ və alnıaçıq çıxan ,ustadımız,nasir, publisist, politoloq, SSRİ Jurnalistlər İttifaqı (1984),(indiki Azərbaycan Jurnalistlər Birliyi) AzərKİVİHİ-nin (2000) üzvü, Əməkdar jurnalist İdris Mütəllim oğlu Şükürlüdür.O,1957-ci il mayın 1-də Lerik rayonunun Şingədulan kəndində baş milis leytenantı Mütəllim kişi ilə çörəkli,səxavətli,,süfrəsi bərəkətli Rahilə xanım Bəşirova ilə qurulan nümunəvi bir ailədə anadan olmuşdur.İdris sözünün mənası oxuyan ,təlim keçən deməkdir.Bəlkə övladına ad qoyan dəyərli valideynlər bu adı seçməklə İdris Şükürlünün həyatının ziya,işıq ,nur olacacağını sanki öncədən hiss etmişdilər.Həyatda təsadüf yoxdur,təvafüq var.Bu ailənin əsli hal-hazırda mövcud olmayan Kerəbın kəndindəndir.Ana tərəfdən babası Səfərəli kişi böyük alim Şeyx Qulamrzanın (Şeyx Qələm) böyüyüb təhsil almasında böyük zəhmət çəkmişdir.İndiki şəhid Azər Mirzəyev adına tam orta məktəbdə 1964-1974-ci il oxumuşdur. Bir müddət sıravi kolxozçu işləmiş,1975-ci ildən 1976-cı ilə kimi ”Bolluq uğrunda” (indiki ”Lerik”) qəzeti redaksiyasının mətbəəsində mürəttib işləmiş,1976-1984-cü ildə BDU-nin Jurnalistika fakültəsini qiyabi yolla bitirmişdir.1976-1978-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmiş və Arxangelsk vilayətinin Xalmaqor rayonunda hərbi xidmətdə olmuşdur.Hərbi xidmətdə olarkən akademik M.V .Lomonosovun adını daşıyan Lomonosovo kəndində alimin ev muzeyində 2 dəfə olmuşdur.Hərbi xidmətdə olarkən müxtəlif mövzulardakı yazıları ”Bolluq uğrunda”(indiki ” Lerik”), ”Azərbaycan gəncləri ” qəzetlərində,”N”saylı hərbi hissənin qəzetində publisistik yazıları çap olunur .Bu yazılara görə ona redaksiyadan qonorar da göndərilir.Hərbi xidmətdə ”Əla hərbi xidmətə görə” medalı ilə təltif olunur və 2 dəfə növbəti məzuniyyətə buraxılır.1978-ci ildə ADU-nun(indiki BDU-nun) Jurnalistika fakültəsində təhsilini davam etdirməklə yanaşı, rayon qəzetində kitabxanaçı işləmiş,1981-1989-cu illərdə ”Bolluq uğrunda” qəzeti redaksiyasında ədəbi işçi,1989-cu ildən məsul katib kimi çalışmışdır.



Dahilər olmasa,fenomen şəxsiyyətlər yetişməz! Jurnalistika ixtisası üzrə oxuyarkən alim və professorlardan -Nəsir İmanquliyev,Qulu Xəlilov, Şamil Qurbanov,Tofiq Rüstəmov, Əliş Nəbili,Nurəddin Babayev ,Seyfulla Əliyevdən dərs almışdır.Hətta elmi rəhbəri Əliş Nəbilinin rəhbərliyi ilə buraxılış işini- ”Lerik qəzetinin nəşrinin tarixi”ni uğurla müdafiə etmişdir.

1989-1991-ci illərdə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu,yəni Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının əyani şöbəsini bitirmişdir.1991-ci ildə ”Kənd həyatı” jurnalının cənub bölgəsi üzrə xüsusi müxbiri işləmişdir.1992-ci ildə ”Lerik” qəzetinin redaktoru təyin edilmişdur.Qələmin əsas vəzifəsi həqiqətləri yazmaq,jurnalist və yazarın əsas vəzifəsi cəmiyyətdə gördüyü,müşahidə etdiyi bütün hadisələrə obyektivmünasibət bildirib, toplumun tərbiyəsi məqsədilə,hər şeyi uyğun bir dillə çatdırmaqdır. Bu amala xidmət edən çox az sayda jurnalist və yazar var.Öncül ziyalımız İdris Şükürlü bu müqəddəs vəzifənin öhdəsindən uğurla gəlmiş və 32 ildir ki ,bu şərəfli və məsuliyyətli vəzifədə çalışır.Belə ki ,söz ustası İdris Şükürlü təkcə 15-dən çox kitabın müəllifidir.Böyük iftixar hissi ilə oxuduğum əsərlərinin adlarını qeyd etmək istəyirəm:”Ölsəm, inanma!” (oçerklər), Bakı,(1996),”Gözəlliyi gözlərimdə apardım” (mənsur şeirlər), Bakı, (1998),”Ömür çırağı sönmədi” (sənədli povest-Milli Qəhrəman Əsgər Əliyev haqqında), Bakı( 2002),”Adsız qəhrəman” (Süleyman Bədəlov haqında sənədli povest), Bakı( 2003),”Seyid Mir Saleh Ağa ocağının nuru” (oçerklər), Bakı( 2003),”Əliheydər müəllimin arxeoloji cənnətdə tapıntıları”(oçerklər),Bakı( 2004),”Kitabların işığında”(Ağaş Mirzəyev haqqında oçerklər), Bakı( 2007),Dünyadan bir loğman köçdü.(Cərrah Elxan Bədəlov haqqında)(2010),”Çəkirəm dünyanın şəklini sözlə”(şeirlər)(2012),”Açılmayan səhər”(şeir-esse),”Əsl insan haqqında düşüncələr”(Cərrah Əli Bədəlov haqqında sənədli povest)(2012),”Şeyx Qələm”, Xatirə-memuar(2013),”Bədənində dəfn etdilər ölümü”,(Şəhidlər haqqında oçerklər)(2017),”Nakam ömrün nəğməsi”,(xatirə-oçerklər)(2021),Qalib xalqın qalib lideri(oçerklər)Bakı(2023) və s...

İlk kitabı ” Ulduz” jurnalının məsul katibi, şair-publisist Allahverdi Məmmədlinin redaktorluğu ilə 1996-cı ildə çap olunmuş və bu əsərdə ilk dəfə Lerikdən Vətənin müdafiəsinə qoşulan Birinci Qarabağ müharibəsində qəhrəmanlıqla şəhadət şərbətini içmiş 85 nəfər şəhid ,4 nəfər Milli Qəhrəman haqqında avtobioqrafik məzmunlu esse yazılmışdır.88 səhifəlik bu əsəri yazarkən İdris Şükürlü şəhid ailələri görüşmüş,qəlbi yaralı bu əzizlərimizdən iftixarımız olan şəhidlər barədə çox böyük həssaslıqla məlumat almış,bununla kifayətlənməyərək şəhidlərin yaralı döyüş yoldaşları, komandirləri ilə əlaqə yaradıb onların verdiyi əvəzsiz məlumatlardan bəhrələnib bu bənzərsiz əsəri ərsəyə gətirmişdir.Əsər şəhid ailələrinə təmənnasız verilmişdir .Əsəri oxuyarkən məhbus olan göz yaşlarını göz zindanında saxlamaq olmur və vətənpərvərlik,mərhəmət hissi oxucunu ixtiyarsız kövrəldir...”Ölsəm,inanma”kitabında son söz əvəzi yazmış şair-publisist Allahverdi Məmmədlinin qeydlərini oxumaq kifayətdir ki,Vətəni özü qədər sevən İdris Şükürlünü duyasan ,hiss edəsən.

Məhz bu əsərə görə vətənpərvər ziyalımız İdris müəllim Azər KİVİHİ-nin ”Nailiyyət ” diplomuna ,”Qızıl qələm ”media mükafatıına layiq görülüb.

**Əməkdar jurnalist İdris Şükürlü y ədəbi-bədii və publisistik üslubda yazıb yaratmış, 50-yə yaxın kitabıntərtibçisi və redaktoru ,çoxunun isə ön söz müəllifi olmuşdur.Hər bir ön sözü bənzərsiz məqalədir.Novator yazar ”Pərvanə” dərgisinin (2009) və ”Azad təfəkkür ” qəzetinin (2003) redaktoru və təsisçisi olmuşdur.Müxtəlif janrlarda yazıb çap etdirdiyi əsərlər:məqalə, oçerk, hekayə, publisistik yazılar,şeir və sənədli povestlərdən ibarət həyatın bir parçası olan bu canlı lövhələr yaddaşlarda dərin iz salır.Söz və qələm fədaisi İdris Şükürlü yaradıcılığında elmiliyə, fəlsəfi-etik baxışlara, uzaqgörənliyə, xalq ruhuna, milli-əxlaqi dəyərlərə üstünlük verir. Müraciət etdiyi mövzular çox vaxt özu onu axtarıb tapır.Əsərlərini oxuyarkən düşünürsən ki, cərəyan edən hadisələr sanki sənin gözlərinin önündə baş verir. Müqayisəli paralellər onun əsərlərində bədii ümumiləşdirməyə aparır.İdris Şükürlünün bədii yaradıcılığı bir neçə istiqamətdə və ədəbi janrda inkişaf edir: onun əsərlərinin qəhrəmanları müasirlərimizdir. Qanı Vətən torpağına çilənmiş fədakar əsgərlərimizin,şəhidlərimizin həyatı, döyüş yolu sənədli-bədii lövhələrlə, yeni ruhda təqdim edilməsi, milli-əxlaqi dəyərlərə hörmət, tarix? keçmişimizin, maddi-mədəniyyətimizin tədqiq edilməsinə yeni baxış, insan amili, onun müasir cəmiyyətdəki mövqeyi, arzu və düşüncələri, üzləşdiyi adalətsizliyə sərt münasibəti, dünyanı yaşadan təbiətə bəşəri sevgi onun yaradıcılığnın ana xəttini təşkil edir.**



# BAYAT



№ 15 (875)



ELDAR BAXIŞ

## QƏLƏM

Olanım qələmdi vardan,dövlətdən
Dövlətdən uzağam, vardan uzağam.
Özüm öz nökərim, özüm öz bəyim,
Özüm öz qulluqçum,özüm öz ağam.

Qaşımı qaldırıb baxan deyiləm,
Dövlət sümürənə, var udana mən.
Yeməyə bir loxma çörək tapanda
Min şükür deyirəm yaradana mən.

Qızılla,gümüşlə,ipəklə, tüllə
Xurcunum, fərməşim basılı deyil.
Asılı deyiləm mən bir adamdan,
Bir adamda məndən asılı deyil.

Məni düz yolumdan döndərə bilməz
Beş adam,on adam, yüz adam canım.
Uçan bulud kimi, axan su kimi,
Əsən külək kimi azadam, canım.

Elə bu azadlıq bəsimdi mənim,
Neynirəm dövləti, neynirəm varı?
Neynirəm dilimi gödək eliyən
Qızılı,gümüşü, malı, davarı?

Bəsimdi, şeytana deməli sözü
Şeytanın üzünə şax deyirəmsə.
"Hə" deməli işə "hə" deyirəmsə,
"Yox"deməli işə "yox" deyirəmsə.

Mənə qələm verib bu azadlığı,
Elə bu əlimdə tutduğum qələm.
Hərdən qadın kimi,hərdən qız kimi
Dizinə baş qoyub, yatdığım qələm.

Qələmin dizində yata-yata mən
Yuxular görmüşəm, dürlü yuxular.
Köhnə qala kimi, qalaca kimi
Sehirli yuxular, sirrli yuxular.

Ruhum uçub mənim,ruhum qovuşub
Avara, Xəzərə, Huna, Oğuza.
Qələmə demişəm dərdim olubsa,
Qələmimdə açıb, deyib kağıza.

Qələmim olanda güclü oluram,
Çaşmayan adamı mən çaşdırıram;
Bu gidi dünyanın pişiyini mən
Ağaca,divara dırmaşdırıram.

Qələmim olanda qorxu bilmirəm,-
Niyə qorxmalıyam mən axı, niyə?
Olanım qələmdi vardan,dövlətdən,
Onunda qiyməti otuz qəpiyə.

Nə yaxşı ki, qələm otuz qəpikdi,
Nə yaxşı ki, deyil od qiymətinə.
Nə yaxşı ki, qələm bazarda getmir
Maşın qiymətinə, at qiymətinə.

Axı, otuz qəpik otuz min deyil,
Kiməsə borclu da qala bilərəm.
Bu yazdığım qələm əlimdən çıxsa,
Gedib ayrısını ala bilərəm.

***

Bəri bax, bazarda hərlənən gədə,
paltarı köynəyi kirlənən gədə,
kartofun başına fırlanan gədə,
niyə yuxarıdan baxırsan mənə?

Bəri bax, dalanda əlləşən oğlan,
zil qara maşında əyləşən oğlan,
o qızla, bu qızla iyləşən oğlan,
niyə yuxarıdan baxırsan mənə?

Bəri bax, meymuna oxşayan kişi,
eyvanda qarnını qaşıyan kişi,
arvad hesabına yaşayan kişi,
niyə yuxarıdan baxırsan mənə?

Tərəzi gözüdü zamanın gözü,
namərdini çəkər, mərdini çəkər.
Adam var həmişə öz hayındadı,
adam var düyanın dərdini çəkər.

Mən özgə adamam siz özgə adam,
mən öz cızığımdan çıxan deyiləm,
o ələ, bu ələ baxan deyiləm,
mən yumurtadan yun qırxan deyiləm...

uşaqla uşağam, böyüklə böyük,
ağacla ağacam, mən quşla quşam.
Bu yaşa gəlmişəm ömrümdə hələ
bircə qarışqa da tapdamamışam...

Dünyanın işini nə bilmək olar,
kimi gedəsidi, kimi qalası.
Mənə belə baxma a kartof satan,
mənə belə baxma, atam balası...

## MƏNİM DƏ HAVAMI ALDI BU DÜNYA

Mənim də havamı aldı bu dünya,
Görməli işləri görə bilmədim.
Yığıb, toparlayıb sevinci mərdə,
kədəri namərdə verə bilmədim.

Bəslədiyim arzu gözümdə qaldı,
arzumu gözümdə heç elədilər.
Mənim arılarım öldü acından,
Mənim ağrılarım beçələdilər.

Oynaq-oynaq sular zarıdı getdi,
yaşıl-yaşıl otlar qurudu getdi.
gözəl-gözəl qızlar qarıdı getdi,
Mən də baxa-baxa qaldım dünyada.

Huşlu adam vardı, huşunu yedi,
Dəyirman acıxıb daşını yedi,
cücə qarışqanın başını yedi,
mən də baxa-baxa qaldım beləcə.

***

Nə oldu, ayrıldıq bir-birimizdən?
Dərə bir tərəfdə, dağ bir tərəfdə.
Ayrılıq ələdi saçlarıma dən,
Qara bir tərəfdə, ağ bir tərəfdə.

Həsrət də alovdu, yandırdı, yaxdı,
Ürəkdə, könüldə neçə iz qalıb.
Mənim qollarımın yiyəsi yoxdu,
Sənin incə belin kəmərsiz qalıb.

## SƏRÇƏ BALASI

İlahi, mənə yox, mən istəmirəm,
İlahi, yazığın gəlsin bu qıza.
Elə eləmə ki,
oğlanlar, qızlar,
Kişilər, arvadlar gülsün bu qıza.
Elə eləmə ki,
vüsal yerinə
Göz yaşı danışsın, qəhər danışsın.
Bir qızdan bir bölük adam danışsın,
Bir qızdan bir böyük şəhər danışsın.
Elə eləmə ki, bu qız bu eldə,
Dilə-dişə düşsün məndən ötəri
Sərçə balasıdı bu qız bu saat,
Boynunu uzadıb dəndən ötəri.
Bu qızın bu saat məndən umduğu,
Məndən istədiyi dən məndə yoxdu.
Bu qız ay istəyir, ay yoxdu məndə,
Bu qız gün istəyir gün məndə yoxdu.
Sevgi yoxdu məndə sevəm bu qızı,
Elə axan suyu belə döndərim.
Çevirəm özümü kəpənəyə mən,
Bu qızı çiçəyə, gülə döndərim.
Səndən çiçək olmaz, səndən gül olmaz,
Məndən də kəpənək, sərçə balası.
Durduğumuz yerdə biz niyə duraq,
Biz niyə tərpənək, sərçə balası?
Lap belə tərpəndik, lap belə getdik,
Sən deyən, mən deyən olası deyil.
Sərçə balasısan sən bu dünyada,
Şair ki, kəpənək balası deyil.
Kəpənək olmuşam dünyada bir vaxt,
Qanadım da olub bilmək istəsən.
İstəyim də olub özümə görə,
İnadım da olub, bilmək istəsən.
O qanad,
o inad,
o istək hanı,-
O qanad,
o inad,
o istək öldü.
Bircə gün çəkmədi gəlib-getməyi,
Kəpənək doğuldu, kəpənək öldü.
Ağca pambıq kimi,
ağca yun kimi,
Diddilər, diddilər o kəpənəyi.
Daraşıb qanadlı, əlli-ayaqlı,
Yedilər, yedilər o kəpənəyi.
Hanı o kəpənək, hanı o sevgi?-
Yaşamır, yaşamır, sərçə balası.
Bu ağ kəpənəklər o kəpənəyə,
Oxşamır, oxşamır, sərçə balası.
... Sən ey yeri, göyü yaradan kişi,
Uzaq görünürmü ordan yer sənə?!
Bu qıza bu boyda sevgi vermisən,
Mənə də bir azca sevgi versənə.
Səni də düşəsən mənim günümə,
Sənin göyün olsun,
quşun olmasın.
İlahi, neyləsən, sən mənə eylə,
İlahi, bu qızla işin olmasın

## GECƏNİN BİR ALƏMİ

Sonra nə oldusa, yadıma gəlmir,
Onu bilirəm ki, qanım qaynadı.
Onu bilirəm ki, ruhum oynadı,
Sonra nə oldusa, yadıma gəlmir.

Tez durub geyindim, çıxdım küçəyə,
Küçə sizə sarı çəkirdi məni.
Ulduz sizə sarı, ay sizə sarı,
Gecə sizə sarı çəkirdi məni.

Gecədən, ulduzdan, aydan da betər,
Ürək sizə sarı çəkirdi məni.
Fələyə nə deyim, tutub qolumdan,
Fələk sizə sarı çəkirdi məni.

Küçənin, gecənin, ulduzun, ayın,
Ürəyin sözündən çıxa bilmədim.
Tanrının sözündən çıxa bilmədim,
Fələyin sözündən çıxa bilmədim.

Alnıma toxundum, gördüm tərləyib;
Dodağıma baxdım, uçuqdu gördüm.
Bütün darvazalar gördüm bağlıdı,
Sizin darvazanız açıqdı gördüm.

Keçdim darvazadan, çıxdım həyətə,
Arzu, istək məni yaxalamışdı.
Ulduz oyaq idi, ay oyaq idi,
Tanrı oyaq idi göyün üzündə...
Qapınızın zəngi yuxulamışdı.

Qapını oyatdım, zəngi oyatdım,
Oyatdım yuxudan zəngin səsini.
Daha düşünmədim, fikirləşmədim
İşin avandını, işin tərsini.

İş belə oldu ki, zəngin harayı,
uxudan yarımçıq qaldırdı səni.
Durna qatarında uçub gedirdin,
Durna qatarından saldırdı səni.
Sən oyanan kimi, sən duran kimi,
Əllərin oyanıb qalxdı yuxudan.
Yastığın üstünə sərilib qalan,
Tellərin oyanıb qalxdı yuxudan.
Çiyinlər oyandı -pambıq çiyinlər;
Addımlar oyandı- kövrək addımlar.

Nə gözəl olurmuş, Allah, yuxudan
Yarımçıq duranda gözəl qadınlar.
Həmişəki kimi "eşş" eləmədin,
Bir sözü çevirib beş eləmədin,
Sağını-solunu eşələmədin,
Yüyürdün qapıya, çatdın qapıya.

Uzandı işığa süd barmaqların,
Evin süd işığı alışdı, yandı.
Sonra nə oldusa, yadıma gəlmir,
Sonra vaxt dayandı, zaman dayandı.

Sonra söndü evin süd işıqları,
Elə bil əridi, çürüdü, getdi.
Ulduzun yanına, ayın yanına,
Tanrının yanına yeridi getdi.
O süd işığından nə qaldı bizə?
Ağ yastıq, ağ döşək, ağ yorğanüzü.
Sənin baxışının odu, alovu,
Mənim baxışımın çınqısı, közü.
Od-oda qarışdı, alov-alova,
Köz-közə qarışdı, çınqı-çınqıya.

Əl ələ qarışdı, barmaq barmağa,
Dil dilə qarışdı, yanğı yanğıya.
Sən mənə dedin ki, lap elə belə?
Mən sənə dedim ki, lap elə belə.

Bu mənim telimdi, bu sənin telin.
Axtara bilirsən, tapa bilirsən,
Axtar elə-belə, tap elə-belə.

Gecə çırpınırdı, gecə əsirdi,
Gecə titrəyirdi, nə titrəyirdi,
Sinəmiz gecəni: -bu xoş keçəni
Bir daş ütü kimi ütüləyirdi.

Gecənin sümüyü sürmə olmuşdu,
Dişinə dəyirdi dişi gecənin.
Bütün qitələri bölüşdürmüşdük,
Biri bizim idi, beşi gecənin.

Sonra nə oldusa, yadıma gəlmir,
Onu bilirəm ki, səhər açıldı.
Onu bilirəm ki, əlim səyridi,
Açıq pəncərədə baxdım səmaya
Tanrı bizə baxıb gülümsəyirdi...

***

Sevgi bitmir, istək bitmir,
neynirəm, bu şoran yeri...
Mənim könlüm dağ yeridir,
sənin könlün aran yeri...

Toxum ver, əkə bilirəm,
ağrı ver, çəkə bilirəm;
Özümə qiblə bilirəm,
sən o yatıb-duran yeri.

Sənin o evin-eşiyin,
sənin o itin-pişiyin,
Sənin o yorğan-döşəyin,
Dünyanın qurtaran yeri...

# İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 26 (2400) 19 iyul 2024-cü il



# Laçının uzaqdan görünən dağları...

**...Bəzən dərdə nəinki insan, heç daş da, dəmir də, dağ da dözmür. Çünki dərd elə bir şeydir ki, Allahın yaratdığı nə varsa, ondan heç vaxt uzaq düşmür. Kefinin kök vaxtı bir də görürsən ki, dərd səni yaxaladı və qalırsan canınla əlləşə-əlləşə. Bax belə bir dərd də düz 30 il bundan əvvəl Azərbaycan xalqını, Azərbaycan torpağını yaxaladı. Erməni faşistləri 1992-ci ildən Qarabağın əksər rayonlarını, şəhərlərini, qəsəbələrini, kəndlərini işğal elədilər. Və onlar torpağı işğal eləməklə də kifayətlənmədilər. Yerin altında və üstündə nə vardısa hamısını yağmalayıb apardılar. Apara bilmədilərini od vurub yandırdılar. Evlərin, binaların damlarını, tavanlarını, döşəmələrini, qapı-pəncərələrini söküb apardılar. Heç bir müharibədə olmayan vəhşiliyi göstərdilər.**



Düz 30 il onlar işğal elədikləri Azərbaycan torpağını altını üstünə çevirdilər. Amma hər şeyin bir sonu olduğu kimi, onların da işğalının bitdiyi bir məqam var idi. Artıq o məqam yetişmişdi.

2020-ci ilin sentyabrın əvvəllərindən davamlı olaraq ermənilər işğal etdikləri Qarabağ torpağından nəzarətimizdə olan olan yaşayış məntəqələrini atəşə tutmağa başladılar. Və bu atəş günlərlə davam etdi.

Axırda bu xalqın səbir kasası doldu, Ali Baş Komandan, Prezident İlham Əliyevin əmri ilə Azərbaycan ordusu əks hücuma keçdi. 44 günlük İkinci Qarabağ savaşında ordumuz işğal altında olan Cəbrayılı, Hadrutu, Füzulini, Qubadlını, Zəngilanı, Şuşanı azad elədi. Bu qələbədən sonra ermənilər məcbur olub təslim aktına - yəni 10 noyabr bəyannaməsinə imza atdılar və öhdəlik götürdülər ki, bir neçə ayın ərzində Ağdamı, Laçını və Kəlbəcəri boşaldacaqlar.

Verilmiş müddət başa çatandan sonra erməni qoşunları həmin ərazidən çıxmağa başladılar. Ancaq yenə alçaqlıqlarından və vəhşiliklərindən əl çəkmədilər. Ordu torpaqlarımızdan çıxarkən meşələrə od vurdu, uzun müddət yaşadıqları evləri yandırdılar. Azərbaycan ordusu isə öz üzərinə düşən vəzifəni şərəflə yerinə yetirdi. 2023-cü il sentyabrın 19-u və 20-də Qarabağın Xankəndi, Xocavənd, Xocalı, Əskəran və digər yaşayış məntəqələri anti-terror əməliyyatı zamanı ermənilərdən tamamilə təmizləndi. Və bundan sonra azad olunmuş rayonlarda abadlıq-quruculuq işləri başlandı.

Bu tikinti işləri Laçında da geniş vüsət aldı. Qısa zaman kəsiyində şəhərə işıq, qaz, su xətti çəkildi. Asfalt yollar salındı. Bir sözlə, bütün infrastruktur əsaslı surətdə yenidən quruldu. Bütün böyük tikinti işlərindən sonra artı Laçına köç başladı.

Bilmirik, siz Laçında olubsunuz, ya yox?! Ammam Laçında olmaq özü də böyük bir xoşbəxtlik və gözəllikdir. Çünki Laçın şəhəri sovet dönəminkindən də möhtəşəm və ecazkardır. Burda köhnə binalar bərpa edilməklə, yeni mənzillər və sosial obyektlər inşa edilib. Laçın şəhərinə köçmüş bir neçə sakinlə söhbət edirik. Onlardan biri Əşrəf Əliyevdir. O, Əşrəf Əliyev ki, düz 30 il Vətən həsrəti ilə yaşayıb və 30 ildən sonra öz doğma yurdu - Laçına qayıdıb. Özü də tək qayıtşmayıb ha. Övladları və nəvələri ilə geri dönüb. Əşrəf müəllim bizi yeni köçdükləri çox gözəl və yaraşıqlı mənzilə apardı. İçəri girdik və içəri girəndə bizi onun ailə üzvləri gülər üzlə qarşılayır. Oğlu və nəvəsi deyir ki, müəllim, bu axşam çox rahat yatmışıq. Heç yerdə tapmadığımız rahatlığı öz dədə-baba yurdumuzda gördük. Evin ağsaqqalı Əşrəf müəllim isə deyir ki, mən heç, bu uşaqlar Laçına gələndə elə bil ki, Cənnətə gedirdilər. Çünki çox vaxt Laçını biz yuxumuzda görürdük. Sözün açığı əlimizi hər şeydən üzmüşdük. Oğlumun birinin imkanı daha yaxşıdır və Bakının mərkəzində də 5 otaqlı mənzili var. Mənə deyir ki, qayıt gəl şəhərə. Mən də dillənirəm ki, ay oğul, o evlər sağlığınıza qismət, mən burdan gözəl yer tanımıram.

Şükür Allaha, yüksək təqaüd alıram və burda da rahat dolanıram. İstəsəm işdə taparam e, amma ona ehtiyacım yoxdur. Laçının təmiz havası, gözəl təbiəti, saf bulaq suyu nəyə desən dəyər. Heç buranı qoyub, Bakıya getmək olar?

Nəsib Həsənov da Laçına köçənlərdən biridir. Görürük ki, sevincindən kefi ala buluddan nəm çəkir və gözləri gülür.

Laçına gedəndə o gözlər dolmuşdu və o gözlərdə əbədi bir kədər vardı. İndi o kədərin yerini vüsal tutub. Nəsib kişi deyir ki, əvvəllər çoxlu mal-qoyunumuz olub. Çünki bizim kənddə də evimiz var idi, şəhərdə də. O vaxt qoyunlarımızın çoxunu apara bilmədik və qoyub getdik. Hər şey Allahdan asılıdır. Çünki biz ümid etmirdik ki, bu tezliklə Laçına dönərik. Deməli, hər şeyi quran və yaradan Allahdır.

Ali Baş Komandan, Prezident İlham Əliyevin və Azərbaycan ordusunun köməkliyilə Laçın azad olundu və biz də doğma Vətənimizə qayıtdıq. Biz Laçının dağlarını Füzilinin kəndlərində olarkən görüb kədərlənirdik. Çünki o dağlar uzaqdan da görünürdü.

Uzaqdan görünən o dağlara həsrətlə baxıb kövrəlirdik. İndi isə artıq Laçın da, o dağlar da, o buz bulaqlar da, sərin meşələr də, gülli-çiçəkli ormanlar da bizimdir. Gör necə xoşbəxt insanlarıq ki, o güllərin, çiçəklərin ətri bizi yenidən sevindirib və bu yurd yeri hamımızı öz qoynuna alıb. Vətənə dönməkdən böyük xoşbəxtlik yoxdur. Biz hamımız and içmişdik ki, Laçın alınsın, maşından yerə düşəndə dizin-dizin sürünüb o torpaqdan öpəcəyik. Elə Laçına qayıdanların hamısı, içi mən qarışıq maşından düşən kimi əhdimizi yerinə yetirdik və ürəyimiz sakitləşdi.

Əlbəttə, biz Laçında olarkən kiminlə söhbət etdiksə, onların sevincinin, şadlığının şahidi olduq. Şahidi olduq ki, 30 ildən sonra Laçına qayıdan o insanlar yuxuda görə bilmədiklərini həyatda görüblər.

Onlar görüblər ki, Laçın elə həmin Laçındır. Sadəcə olaraq, erməni faşistləri o gözəl və qədim məkanın çox yerini dağıdıb, xaraba qoyublar. Onların xaraba qoyduqları, yandırdıqları, dağıtdıqları evləri, sosial obyektləri və bürün infrastrukturu Azərbaycan dövləti qısa zamanda yenidən tikdi və əhalinin istifadəsinə verdi.

**...Hələ Laçına bundan sonra nə qədər insan, nə qədər köç gələcək. Onlar da yeni tikilən və tikiləcək evlərdə məskunlaşacaq və rahat nəfəs alacaqlar. Sadəcə olaraq, bir balaca səbirli olmaq lazımdır. Çünki mərhələ-mərhələ bütün insanlar öz yurdlarına dönəcəklər...**

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Repressiyaya aid film çəkilir: "Cinayət işi 1937"

**Azərbaycanda 1920-ci ildə "qırmızı inqilab"dan sonra tariximiz elə qanlı hərflərlə yazılmağa başladı. Ən böyük faciələrimizdən biri də elə həmin illərdən asta-asta başladı, sürətləndi, genişləndi və nəhayət böyük bir fəlakətə səbəb oldu.**

Vətənimizdə 30 ilə yaxın davam edən repressiyaların ağrısı-acısı bu gün də hiss olunmaqdadır. Sadə, zəhmətkeş, günahsız İnsanların "əksinqilabçı", "trotskiçi", "casus", "millətçi", "üsyançı" kimi müxtəlif ittihamlarla kütləvi şəkildə məhv edilməsi İosif Stalinin, Lavrenti Beriyanın, Anastas Mikoyanın və onların Azərbaycandakı əlaltılarının ən məkrli planı olub.

### Böyük fəlakət

Rəqəmlər repressiyanın dəhşətini belə ortaya qoyub.

Deməli, o illərində SSRİ-də ümumilikdə 1.575.259 adam həbs edilib. Onlardan 173.382 nəfəri şər atıalaraq "əksinqilabçi" kimi qələmə verilərək cəzaya məruz qalıb, 1.344.923 nəfər məhkum edilib, 681.692 nəfər isə güllələnib. Azərbaycan bəlkə də sovet dönəmində ən çox repressiyay məruz qalan respublikalardan birincisi olub. Beləki, 100 mindən çox ziyalı, hərbçi, mədəniyyət və incəsənət xadimi, alim, yazıçı, müəllim, din xadimi Sibirə, Qazaxıstana və uzaq adalara sürgünə göndərilib. Bəli bu rəqəm yetir ki, əhalinin hər 1000 nəfərinə düşən repressiya qurbanlarının sayına görə Azərbaycan keçmiş sovet respublikaları içərisində birinci yerdə durduğu təsdiqini tapır.

Tarixçi və mütəxəssislərin apardığı araşdırmalara görə, Azərbaycanda ümumilikdə 1930-1940-cı və 1950-ci illərin əvvəllərində 80 mindən çox adam repressiya edilib ki, bunun da 29 min nəfəri ziyalılardır. Təkcə 1937-ci ildə 16 Azərbaycan generalı qətlə yetirilib. Azərbaycanın Qazaxıstandakı səfirliyinin məlumatına görə, Stalin repressiyaları illərində Qazaxıstanda 150 min azərbaycanlı öldürülüb, onlardan 28 min nəfəri məhkəmə və istintaq olmadan güllələnib.

Amma təəssüfləndirici haldır ki, bu fəlakət haqqında Azərbaycan gəncliyi, xüsusən məktəblilər çox az məlumata malikdir. Çünki məktəblərdə əyani-vəsait kimi istifadə edilək bədii, sənədli filmlər çox azdır, yaxud da yoxdur.






### Repressiya ilə bağlı yeni film çəkilir

Müharibə Veteranı Qadınlarına Sosial Yardım İctimai Birliyinin sədri Radə Abbas xanım da fikrimizlə qismən razılaşır:

-Repressiya qurbanı olan tanınmış şəxsiyyətlər haqqında filmlərin çəkilməsi danılmaz faktdır. Görkəmli dilçi-alim Bəkir Çobanzadə, böyük dramaturqumuz Hüseyn Cavid, poeziyamızın görkəmli nümayəndəsi Mikayıl Müşfiq haqqında sənədli filmlər çəkilib. Amma ümumilikdə faciəmizi canlandıracaq repressiyaya aid hələ ki film çəkilməyib.

**- Radə xanım, aldığım məlumata görə, yeni layihəniz də məhz bu mövzu olacaq?**

- Əslində repressiya qurbanlarının qaranlıq taleyinə işıq salmaq çox gecikib. Amma bu sahədə işlər dayanmır. Bəli, məlumatı düz eşitmisiniz. Layihəmizə əsasən Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin, tanınmış maarifçi və ictimai xadimlərin xanımlarının repressiyaya məruz qalmasından, sürgün həyatından , güllələnməsindən bəhs edən sənədli filmi çəkiləcək. 9 iyul 2024- cü ildə Bakı şəhərində Repressiya Qurbanları muzeyində layihəmizin icrası məqsədi ilə çəkiləcək "Cinayət işi1937" adlı sənədli filmin çəkilişləri artıq başlandı. Azərbaycan Respublikasının Qeyri Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə Müharibə Veteranı Qadınlarına Sosial Yardım İctimai Birliyinin bu layihəni layiqincə həyata keçirmək üçün bütün səylərini birləşdirir.

**-Repressiyaya məruz qalmış, güllələnmiş bir çox maarifçi və ictimai xadimlər haqqında filmlər var. AzTV-nin İctimai-siyasi proqramlar studiyasının tarix şöbəsi tərəfindən repressiya qurbanları haqqında "İş nömrəsi" adlı silsilə filmlərin çəkilişlərinə start verib və Əhməd Cavadın xatirəsinə film hazırlayıb. "İş № 1112" filmi 18 yanvar AzTV-də yayımlandı. Bu tip filmlərdən sonra repressiya qurbanı olan qadınlar haqqında yeni film çəkmək sizə çətin gəlmir?**

- Hələ 2019 -cu ildə Türkiyənin "TRT AVAZ" telekanalı "Əhməd Cavad: Bir millətin ruhu" adlı bədii-sənədli filmini çəkmişdi. Filmdə dahi şairin keçdiyi həyat yolu, yazdığı şeirlər, işgəncə ilə öldürülməsi əks olunub. Ekran əsərinin ssenari müəllifliyi Vahit Taha Kurutlu, layihə üzrə məsləhətçi Nicat Quliyevə, filmin musiqisi Aygün Səmədzadəyə məxsus idi. Düşünürəm ki, Azərbaycan Xalq Cümhuriyyətinin və müstəqil Azərbaycan Respublikasının Dövlət himninin sözlərinin müəllifi Əhməd Cavadın xatirəsinə həsr olunan nə qədər çox film çəkilsə , gələcəyimiz üçün bir o qədər faydalı olar. Biz də çətin olsa da repressiyaya məruz qalan qadınların həyatını ekranlaşdıracağıq. Çətindir, bəli! Amma şərəfli bir işdir! Xalqın sabahı, gələcək üçün vacibdir.

**- Çəkiliş zamanı sıxıntınız oldumu?**

-Repressiya Muzeyində aparılan çəkilişdə Repressiya qurbanı olan BÖYÜK TÜRK Əhməd Cavadın adını, soyadını daşıyan nəticəsi Əhməd Cavadda iştirak etdi.

Düzü, muzeydə şəkiliş aparmaq çox çətindir. Çünki qəddar Sovet rejiminin, qəddar Stalinin axıtdığı nahaq qanların izləri hələ də divarlarda durur. Günahsız insanları qətlə yetirənin, ailələrinə işgəncə verənin "dövlət"olması insanı üzür. Sıxıntı verir.

Yeri gəlmişkən, təhlükəsizlik məsələləri üzrə ekspert, ehtiyatda olan polkovnik Seymur Şeydayev repressiya ilə bağlı məlumatları da diqqətimizi çox çəkdi.

Beləliklə, layihənin film çəkilişləri davam edir. Ümid edirəm, əziyyətimizin, məsuliyyətimizin məhsulu olacaq o maarifləndirici filmi yüksək səviyyədə tamaşacılarımıza nümayiş etdirəcəyik!

**-Radə xanım, məlumatınıza görə sizə təşəkkür edirik!**

**Əntiqə Rəşid**

---

# "Azərbaycanda oynamaq karyerama təsir edəcək"

**Təlim-məşq toplanışını Erzurumda davam etdirən "Araz-Naxçıvan" gündəlik məşqlərlə yanaşı, yoxlama oyunlarında da gücünü sınayır.**

QOL.az klubun mətbuat xidmətinə istinadən xəbər verir ki, komandam ilk matçda Türkiyə Superliqası təmsilçisi "Alanyaspor"la üz-üzə gəlib. Heç-heçə (1:1) başa çatan matçda mövsümlərarası fasilədə transfer edilən Benny ilk dəfə "qırmızıağlar"ın heyətində debüt edib. İkinci hissədə meydana daxil olan portuqaliyalı futbolçu görüşlə bağlı təəssüratlarını bölüşüb: "Alanyaspor"la oyun yoxlama xarakteri daşısa da, biz meydanda sanki günlərlə keçdiyimiz məşqlərin hesabatını verməyə çalışdıq. İlk oyunumuz idi, çatışmazlıqların olması normaldır, amma müsbət məqamlar da vardı. Məncə, ilk addımımız pis alınmadı, ancaq vacib olan baş məşqçinin fikirlərini və istəklərini düzgün icra etməkdir. Tədricən buna nail olacağımızı vurğulaya bilərəm". 27 yaşlı portuqaliyalı yarımmüdafiəçi keçidi haqda isə bunları deyib: "Menecerim Eren bəy Azərbaycandan təklif gəldiyini bildirdi. Futbolçu həyatı elədir ki, hər zaman yeni çağırışlara hazır olmalısan. Bu baxımdan dəyərləndirək, dedim. Artıq 1 həftədir ki, "Araz-Naxçıvan"ın düşərgəsindəyəm. Çox yaxşı, intizama riayət edən bir kolektivimiz var. Hər kəs bir-birinə mehriban davranır, kömək etməyə çalışır.



Təbii ki, klubun da bir hədəfi var və buna nail olmaq üçün əlimizdən gələnini maksimum edəcəyik. Yeni mövsümə hazırlığımız yüksək səviyyədə davam edir. Start uğurlu olmalıdır. Bunun üçün də biz futbolçular maksimum çalışmalıyıq". Futbolçu ölkəmiz və çempionatımız haqda müəyyən bilgilərə sahib olduğunu, bu işdə ona keçmiş komanda yoldaşları kömək etdiyini bildirib:

"Əlbəttə, hə dedikdən sonra həm formasını geyinəcəyim klub, həm də liqa haqqında məlumat topladım. Bu işdə mənə ən çox vaxtı ilə bir komandada oynadığım, indi isə karyerasını ölkənizdə davam etdirən bir neçə futbolçu kömək etdi, dolğun məlumat verdilər. Burada olmaq və oynamaq karyerama müsbət mənada təsir edəcək".

Qeyd edək ki, Benny indiyə qədər Portuqaliyanın "Farmaçao", "Oeiras", "Belenenses", SAD, "Benfika B", "Çaves", "Uniao Torreense" və Kiprin "Doxa Katokopias" klublarında çıxış edib.

---

### TƏBRİK



**Canımız-ciyərimiz və ürəyimiz, hamımızın gələcəyinə böyük ümid bəslədiyimiz Məhəmmədin 10 yaşı tamam olur. Biz Məhəmmədi həmişə sağlam, ağıllı və inamlı görmək istəyirik. İnanırıq ki, o, ata-anasının bəslədiyi ümidi doğruldacaq və onlara layiq övlad olacaq. Bir daha bal kimi şirin balamızı ad günü münasibətilə bağrımıza basıb öpür, ona can sağlığı arzulayırıq!**

**Atası Əli müəllim, atasının dostları**
**Faiq Qismətoğlu və Səməndər Məmmədov**

---

## Şahrudin yenidən "Qarabağ"da



**"Qarabağ" yeni mövsüm üçün növbəti transferini gerçəkləşdirib.**

QOL.az xəbər verir ki, bu barədə Ağdam təmsilçisinin yaydığı rəsmi məlumatda bildirilib.

"Qarabağ" qapıçı Şahrudin Məhəmmədəliyevi heyətinə cəlb edib. Klubula 30 yaşlı qapıçı arasında bir illik müqavilə imzalanıb.

Ötən mövsümdə Türkiyənin "Adana Demirspor" klubunun formasını geyinən futbolçu 2025-ci ilin yayına qədər Ağdam klubunda çıxış edəcək.

"Qarabağ" bu yay qapıçı Fabian Buntiç və hücumçu Musa Qurbanlını da heyətinə qatıb.

Məhəmmədəliyev 2016-23-cü illərdə də "Qarabağ"ın formasını geyinib. O, 2023-cü ilin yayında "Qarabağ"dan Türkiyə klubuna transfer edilib. Şahrudin Ağdam təmsilçisi ilə 7 dəfə Azərbaycan çempionu olub, 3 dəfə ölkə kubokunu qazanıb.

Qeyd edək ki, Şahruddin Azərbaycan milli komandasında 29 oyun keçirib.

## Klopp İngiltərə millisinin baş məşqçisi olmağı rədd etdi



**"Liverpul"dan ayrılan Yurgen Klopp İngilltərə millisinə baş məşqçilik etməyəcək.**

QOL.az xəbər verir ki, bu barədə "Sky Sports" məluma yayıb. Almaniyalı mütəxəssis millini tərk edən Qaret Sautqeytin əvəzinə əsas namizədlərdən biri hesab olunurdu. Lakin Klopp İngiltərə yığmasını çalışdırmaqdan imtina edib.

Bundan əvvəl Klopp ABŞ millisinin baş məşqçisi olmağı da rədd etmişdi.

Qeyd edək ki, 57 yaşlı mütəxəssis 2015-ci ildən rəhbərlik etdiyi "Liverpul"dan bu yay yayda ayrılıb. Klopp əvvəllər "Borussiya Dortmund" və "Maynts"da çalışıb.

---

**Namazova Nuranə Sahib qızının adına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.**

---

Faiq Qismətoğlu ailə üzvləri ilə birlikdə **Kamran Əhmədova** əzizi

**Məhəmməd müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sevil İrəvanlı və Sona Çərkəz əzizləri **Şəlalə xanıma** qardaşı

**Qurban Hümmətovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 187
Çapa imzalanmışdır: 18.07.2024